# AZƏRBAYCAN MUSİQİSİNDƏ BAHAR MÖVZUSU VƏ NOVRUZ MOTİVLƏRİNİN İZLƏRİ

İLQAR İMAMVERDİYEV



İKSAD Publishing House

ISBN 978-605-7510-07-5

# AZƏRBAYCAN MUSİQİSİNDƏ BAHAR MÖVZUSU VƏ NOVRUZ MOTİVLƏRİNİN İZLƏRİ

**İLQAR İMAMVERDİYEV**

İKSAD Publishing House

**ISBN 978-605-7510-07-5**

**Institution Of Economic Development And Social Researches Publications®**
**(The Licence Number of Publicator: 2014/31220)**
**TURKEY TR: +90 342 606 06 75**
**USA: +1 631 685 0 853**
**E posta: kongreiksad@gmail.com**
**www.iksad.org**
**www.iksadkongre.org**
**www.iksad.net**

**Kitabın tüm hakları İKSAD Yayınevi'ne aittir.**
**İzinsiz çoğaltılamaz, kopyalanamaz.**
**Metinlerden etik ve yasal olarak yazarlar sorumludur**
**Iksad Publications - 2018© ISBN 978-605-7510-07-5**

**PROF. DR. İLGAR CEMİLOĞLU İMAMVERDİYEV**



İlgar Cemil oğlu İMAMVERDİYEV 23 Eylül 1956 yılında Azerbaycan'ın Gence şehrinde doğdu. Fikret Amirov adına 1 sayılı Çocuk Müzik Okulu'nu (1967-1972), Kanber Hüseyinli adına Orta İhtisas Müzik Lisesini (1972-1976) ve Üzeyir Hacıbeyli adına Bakü Müzik Akademisi'ni (1976-1981 yıllarında tar alanında) başarı diplomaları ile bitirdim. 1985 yılında Öğrenci ve Gençlerin 12. Dünya festivalinin (Moskova) diplomasını, 1986 yılında Orta Asya ve Trans Kafkasya cumhuriyetleri arasında Doğu Aletleri üzere Bakü'de düzenlenen Üzeyir Hacıbeyli adına I uluslararası yarışmanın birincilik diplomasını kazandım. Trans Kafkasya, Orta Asya ve Türkiye'de düzenlenen halk müziği ve folkloru üzere çeşitli uluslararası kongrelerde yer almış, yüzden fazla bilimsel makalelerim hakemli dergilerde yayımlanmıştır.

1994 yılında sanatşinaslık adayı, 2009 yılında sanatşinaslık doktoru unvanını aldı. 1981 yılından 2000 yılına kadar Bakü Müzik Akademisi Halk Çalgı Aletleri bölümünde, 2000–2006 yılları arasında Erzurum Atatürk Üniversitesi'nde görev yaptı, 2007 yılından itibaren Gaziantep Üniversitesi Türk Musikisi Devlet Konservatuarı'nda doçent, 2009 yılından itibaren profesör olarak sözleşmeli çalışmaktadır.

"Ansambl için piyesler mecmuası" (1997), "Azerbaycan âşık icracılığı sanatının karakteristik özellikleri" (2004), "Azerbaycan'ın 20 saz havası" adlı I, II (2005) ve III (2006), "Azerbaycan'ın 40 saz havası" (2006 ), "Piyano eşlikli saz eserleri" (2006), "Piyano eşlikli tar eserleri" I, II cilt (2006), hem de "İran Türklerinde âşık düğün törenleri" (2006), iki ciltten oluşan "Azerbaycan dans havaları" (2007), üç ciltten oluşan "Azerbaycan muğam *(uzun havalar)* renkleri ve deranetleri" (2007, 2009), "Azerbaycan ve İran Türklerinin âşık-icracılık sanatının karşılıklı ilişkileri" (2008), "Âşık Mikail Azaflı'nın saz havaları" (2008), altı ciltten oluşan "Azerbaycan halk şarkıları "(2007, 2008, 2009)," Azerbaycan muğam *(uzun havalar)* incileri *(mücevherleri)* " (2010)," "Komik hikayeler ve gülmeceler "(2010)," Miskin Abdal ocağının el sanatkarları "(2011) , "Şirvan âşıklarının saz havaları" (2011), "İran-Azerbaycan Âşıklarının 40 Saz Havası (2012), "Köroğlu havaları" (2012), "Saz havaları Antolojisi" (2013), "Azerbaycan enstrümantal halk müziği örnekleri" (2014), "Vahit Ali oğlunun şiirlerine bestelenmiş müzikler" (2015), "Miskin Abdal elinin saz-söz üstatları" (2016), "Dede Şemşir ifacılığı sanatında ananevi saz havaları" (2017) adlı otuz altı kitap yayımlandı.

Zaman zaman farklı ülkelerde Rusya *(Moskova, St. Petersburg)*, Kazakistan (*Alma-ata*), Özbekistan *(Taşkent, Semerkant),* İtalya *(Roma, Napoli, Kapri),* İran *(Tebriz, Urmiya),* İrak *(Bağdat, Babil),* Türkiye *( Ankara, Erzurum, Ağrı, Iğdır, Bayburt, Amasya, Osmaniye, Şanlı Urfa, Akçaabat, İstanbul, Bursa, İzmir, Ayvalık, Eskişehir, Kırşehir, Nevşehir.)* farklı konserlere katıldı.

(Gürcistan'da *(Tiflis 1981)*, Özbekistan'da *(Taşkent 1988, 1989),* Kazakistan'da *(Alma-ata 1991)*, Türkiye'de *(Ankara 2002, 2007, 2012, Kocaeli 2007, Urfa 2015, Edirne 2016, Niğde 2017, İstanbul 2012, 2017, Komrat-Gagavuzya /Moldova 2017, Nevşehir 2017, Iğdır 2017, Sivas 2017, Diyarbakır 2017, Antalya 2018 )*, düzenlenmiş halk müziği, folkloru üzere çeşitli uluslararası sempozyum ve kongrelerde, sammitlerde sunum yaptı. "Kaçak Nabi", "Papak", "Beyin oğurlanması" *(Damadın çalınması)*, "Doğma Sahiller" filmlerinin ve "Sekreğin destanı" *(Korkut-ata hikâyesi)* çizgi film müziğini tar, saz bağlama ve ud enstrümanları ile seslendirdi. Farklı yıllarda Azerbaycan ve Türkiye televizyonunda "AzTV 1", "İctimai TV", "TRT İnt", "TRT Gap", "25. kanal" da tar ve saz aletinde konserlere katıldı.

"Azerbaycan Müziğinde Bahar Konusu ve Novruz Motiflerinin İzleri" kitabı, Prof. Dr. İlgar Cemil oğlu İmamververdiyev'in Azerbaycan ve Türk müzik kültürüne otuz yedinci katkısıdır.

## ÖN SÖZ

### *MİLLİ MƏNƏVİ DƏYƏRLƏRİMİZİ QORUYAQ*

Türk dünyasının mənəvi dəyərlərinin başında Novruz bayramı gəlməkdədir. Novruz bayramı 4 fəsil (Qış, Yaz, Yay, Payız) arasında Bahar fəslinin qədəm qoyduğu mübarək gün hesab olunur. Türk xalqları bu bayramı hər il coşğu ilə qeyd etməkdədirlər. Qəlbləri riqqətə gətirən, könülləri xoşhal edən ay dedikdə ilk öncə Bahar mövsümü-Novruz bayramı yada düşür. Hər bir xalq bu bayramı əziz sanır, bu mərasimi özünəmünasib tərzdə ən gözəl səviyyədə qaşılamağa cəhd göstərərlər. Ozanlar-Aşıqlar bu şahanə xalq bayramı günlərində sazlarını şövqlə çalaraq şən nəğmələr söyləmiş, şairlər gözəl misralı şeirlər qoşmuş, rəssamlar sulu boya ilə əlvan rəsmlər çəkmiş, yerli musiqiçilər, professional bəstəkarlar isə ilhama gələrək bir - birindən fərqli, qəlbəyatımlı melodiyalar icad edib, könüllərə xoş gələn musiqilər bəstələyib xalqına, millətinə mənəvi xidmət göstərmişlər.

Novruz bayramı milli adət-ənənələrimiz arasında özünəməxsus ayrıca bir yeri vardır. Azərbaycanda da bu bayram dövlət səviyyədə daha möhtəşəm qeyd edilməkdədir. Zaman - zaman tədqiqatçılarımız, folklorşünaslarımız, ədəbiyyatşünaslarımız, aşıqşünaslarımız, musiqişünaslarımız, etnoqrafçılarımız, tarixçilərimiz, arxeoloqlarımız bahar bayramı - Novruzla bağlı yüzlərlə aktual, elmi tədqiqat xarakterli qiymətli əsərlərlə elm aləmimizə zənginlik gətirmişlər.

***“Azərbaycan musiqisində Bahar mövzusu və Novruz motivlərinin izləri”*** adlı kitabımızda Novruz-Bahar mövzusu ilə bağlı anonim xalq musiqilərimizlə yanaşı, həvəskar musiqiçilərimizin ən əsas da professional bəstəkarlarımızın musiqi sahəsindəki xidmətlərinə aydınlıq gətirməklə, bu xalq musiqi incilərimizdən bir çoxunu nota yazaraq onu qorumağın, yaşadılmasının önəmli bir üsulu olaraq nəzərdə tutmuşuq. Məqsədimiz gənc nəsil musiqiçilərimizi məlumatlandırmaq, amator müğənnilərimizin və ifaçılarımızın şeir mətnlərini doğru-dürüst əxz edib, öyrənməklə ifa zamanı ola biləcək hər cür yanlışlığının, xətaların qarşısını müəyyən qədər önləməkdir. Qarşıya qoyduğumuz bu kimi bir çox önəmli problemlərin həllində bu kitabımızın müstəsna yer alacağına inanırıq.

**İLQAR CƏMİL OĞLU İMAMVERDİYEV**

***Sənətşünaslıq elmləri doktoru,***
***Bakı Musiqi Akademiyasının,***
***Qaziantep Universiteti Türk Musiqisi Dövlət***
***Konservatoriyasının Professoru***
***30. 07. 2018***

# 1. GİRİŞ

Türk dünyasının ortaq mənəvi dəyərlərinin ilk sıralarında, farsca yeni gün anlamını ifadə edən Novruz bayramı yer almaqdadır. Bolluğun, bərəkətin, firavanlığın rəmzi hesab olunan Novruz bayramı haqda elm adamları zaman-zaman maraqlı məqalələrlə mətbuat səhifələrində, beynəlxalq elmi konfranslarda çıxış etmişlər. *"Novruz haqqında məlumatlara Biruni Əbu Reyhanın "Asarul Baqiye" (Pamyatniki minuvşix pokoleniy), Kaşğarlı Mahmudun "Divanü Lugat-it Türk", Balasaqunlu Yusif Has Hacibin "Kutadqu biliq", Ömər Xəyyamın "Novruznamə", Nizamülmülkün "Siyasətnamə", Nizami Gəncəvinin "İsgəndərnamə" və b. əsərlərində rast gəlirik".*[1] Təbiətin qış yuxusundan oyanmasının, torpağın canlanmasının xəbərçisi Bahar fəsli olduğu kimi, müslüman aləmində yeni ilin başlanğıcı da Novruz bayramı hesab edilir. Şəmsi-günəş təqviminə görə Yazın başlandığı, gecə ilə gündüzün tarazlaşdığı gündə ( mart ayının 20-si, 21-i və ya 22-sində) Novruz bayramı qeyd edilməkdədir.

Tarix elmləri üzrə fəlsəfə doktoru Məhəmməd Allahmanlının "Nurlan" nəşriyyatı tərəfindən 2011-ci ildə Bakıda yayınlatdığı "Azərbaycanın Qərb bölgəsinin mənəvi mədəniyyətindən" adlı tarixi-etnoqrafik tədqiqat xarakterli kitabının 122-ci səhifəsində Novruz bayramı ilə bağlı belə yazır: "Novruz bayramı xalqımızın həyatı, təsərrüfatı, əmək fəaliyyəti, eyni zamanda, sırf təbiət hadisəsi - qışın yazla əvəz olunması, yeni təsərrüfat ilinin başlanması ilə bağlıdır."[2]

Qədim "Odlar Yurdu"nun məkanı hesab edilən müstəqil Azərbaycanımızda, bu milli bayram rəsmi olaraq dövlət səviyyəsində keçirilməkdədir. Birlik və bərabərliyin, dostluğun, qardaşlığın nişanəsi, sülhün, əminamanlığın simvolu olan Novruz bayramı, hər bir evdə, hər bir ailədə böyük sivinclə yaşadılmaqdadır. Bu gözəl bayramla bağlı göstərilən bir çox önəmli adət-ənənələrimizi elimizdə, obamızda və televiziya ekran-larından hər zaman müşahidə etmiş, radio dalğalarında fərqli proqramlarda səsləndirlilən şən-şux musiqiləri məşhur sənətcilərimizin professional ifalarında saatlarla dinləyərək məftun olmuş, mənəvi-estetik zövq almışıq.

Azərbaycanda "Bahar fəsli" dediyimiz zaman, ilk öncə "Yaz mövsümü" yada düşür. Farsca Yazın əvvəlinə "Novbahar"[3] da deyilir. Yeri gəlmişkən qeyd etməliyik ki, "Novbaharı"[4], adında klassik aşıq havası Təbriz aşıqlarının ifalarında yaşadılmaqdadır. Urmiya,Miyandab aşıqlarının repertuarında isə "Şəkəryazı"[5], "Novruzu", "Fəslibahar" [6] adlı

---

[1] Bax: Xəlil A. "Novruz: ilkin qaynaqları və tarixi inkişafı" Xalq qəzeti.- 2010.- 21 mart.- S. 4.
[2] Bax: http://www.anl.az/el/a/264391.pdf
[3] Bax: https://azerdict.com/az/izahli-luget/n%C3%B6vbahar
[4] Bax: İlqar İmamverdiyev, "Azərbaycan və İran türklərinin aşıq ifaçılıq sənətinin qarşılıqlı əlaqələri "Nafta-Pres" yayınevi, Bakı–2008, S. 447
[5] Bax: İlqar İmamverdiyev, "Azərbaycan və İran türklərinin aşıq ifaçılıq sənətinin qarşılıqlı əlaqələri "Nafta-Pres" yayınevi, Bakı–2008, S. 448
[6] Bax: İlqar İmamverdiyev, "Azərbaycan və İran türklərinin aşıq ifaçılıq sənətinin qarşılıqlı əlaqələri "Nafta-Pres" yayınevi, Bakı–2008, S. 451

saz havaları mövcuddur. Savə-Həmədan aşıqları isə “Bahar Həmədanı”[7] adlı havanı el şənliklərində və toy-düyünlərdə sazlarında çalıb-oxumaqdadırlar.

Azərbaycanda fəsillərilə bağlı maraqlı bir tapmaca, hələ uşaqlıq dönəmindən xatirə olaraq yaddaşımızda qalmışdır:

Üçü bizə yağıdır, (Qış fəsli)
Üçü cənnət bağıdır. (Bahar, Yaz fəsli)
Üçü yığıb gətirir, (Yay fəsli)
Üçü vurub dağıdır. (Payız)

Bu dörd misrada “Cənnət bağı”na bənzədilən “Bahar mövsümü”nün yurdumuza qədəm qoyması, “Yaz fəsli”nin gəlişi, Novruz bayramının keçirildiyi gündən başlamaqdadır. Novruz bayramınadək dörd çərşənbə özünü göstərir:

**1.“Su çərşənbəsi”.** Azərbaycanın bir çox bölgələrində “Su çərşənbəsi” olan gün süfrəyə su qoyulur. Evin ətrafına təmiz bulaq suyu və ya saf su səpilməsi, el adətlərimizdən biri kimi qəbul edilir.[8] İnanca görə Novruz çərənbələrində evdən özgələrə, yad kimsələrə bərəkət sayılan duz, od, çörək və su kimi nemətlərdən pay verməк yaxşı əlamət kimi qəbul edilmir. *“Su çərşənbəsinə “Yalançı çərşənbə”*[9]*, “Əzəl çərşənbə”, “Sular Novruzu” da deyirlər. Su çərşənbəsində su və su mənbələri təzələnir, arxlar qaydaya salınır, su hövzələrində abadlıq işləri görülür, su ilə bağlı müxtəlif şənliklər keçirirlər. Su çərşənbəsi suya tapınma inamı ilə bağlıdır. Hələ gün doğmamışdan hamı axar su üstünə gedib niyyətlərinin hasil olması üçün dilək tutarlar”.*[10] Bu haqda digər bir araşdırmaçı isə belə yazır: *“Hər kəs sübh erkən axar suya gedib öncə əl-üzünü yuyur, bir-birinin üzərinə su çiləyir, su üstündən atlanır, yaralıların yarasına su çiləyirlər. Xalqın inamına görə, Su çərşənbəsi günü "təzə su"dan keçərək azar-bezarını ona verənlər ilboyu xəstəlikdən uzaq olarlar.”*[11]

**2.“Od çərşənbəsi”**, “Xəbərçi çərşənbə”[12] adı ilə də tanınır. “Od çərşənbəsi” zamanı, əsasən Azərbaycanın hər bir məhəlləsində, küçəsində tonqallar alışdırılır, səngimək ərəfəsində isə dəliqanlı gənclər üzərindən sıra ilə atlayarlar. (Bax: Şəkil № 1)



Şəkil № 1. Novruz tonqalı

[7] Bax: İlqar İmamverdiyev, “Azərbaycan və İran türklərinin aşıq ifaçılıq sənətinin qarşılıqlı əlaqələri “Nafta-Pres” yayınevi, Bakı–2008, S. 479

[8] Bax: https://www.aydinlik.com.tr/dunya/2017-mart/azerbaycan-da-nevruz-bayrami-coskusu

[9] Bax: Allahmanlı M. “Azərbaycanın Qərb bölgəsinin mənəvi mədəniyyətindən” *(tarixi-etnoqrafik tədqiqat)* “Nurlan” nəşriyyatı, Bakı - 2011, s. 125.

[10] Bax: https://www.google.com.tr/search?ei=n1 K3WqvHBsq2s QH e3p6YDw&q=novruz+tonqali+haqqinda&oq=novruz+tonqal%C4%B1&gs_l=psy-ab. 1.1.0i22i30k1 l2j0i22i10i30k1.1626491.4862 837.0.48656 65.48.25.1.0.0.0.303. 2691.1j17j1j1.21. 0....0...1c.1. 64.psy-ab..31. 17. 2448.6..0j33i160k1j35i39k 1j0i131k1j0i67k1j0i 10k1j0i203k1.304.STIAo8MxpPY

[11] Naibə,“Bu gün Su çərşənbəsidir Novruz çərşənbələrini layiqincə qarşılamaq lazımdır”, Həftə içi.- 2011.- 22 fevral.- S. 7.

[12] Bax: Allahmanlı M. “Azərbaycanın Qərb bölgəsinin mənəvi mədəniyyətindən” *(tarixi-etnoqrafik tədqiqat)* “Nurlan” nəşriyyatı, Bakı - 2011, s. 125.

Şairə xanım Şirin Kərimbəyli Şadiman (Bax: Şəkil № 2) "Yansın bayram şamları"[13] adlı səggiz bəndlik



Şəkil № 2. Şirin Kərimbəyli Şadiman

şeirinin ikinci bəndində bu hadisəni poetik misra ilə belə təsvir etmişdir:

Tonqalları çatılsın,
Üstündən el atılsın.
Hər ev bura qatılsın,
Sinədə qürur olsun,
Novruzumuz gur olsun.

Novruz bayramı axşamı isə hər bir evin sakininin, ailə üzvülərinin sayına görə bir ədəd olmaqla şam yanadırılar. (Bax: Şəkil № 3)



Şəkil № 3. Şamdan içinə qoyulmuş bir cüt Novruz şamı yanarkən

Filologiya üzrə fəlsəfə doktoru, dosent Ağaverdi Xəlil (Bax: Şəkil № 4) adlı tədqiqatçı alim, tonqal barədə belə yazır:



Şəkil № 4. Ağzverdi Xəlil

*"Tonqal əski türkcədə günəşin doğmasını bildirən "tanq" və günəşin qürubunu ifadə etmək üçün istifadə olunan "tünq" kəlmələri ilə fonetik və semantik baxımdan əlaqəlidir. Heç şübhəsiz ki, tonqal ilk öncə günəşi və bundan sonra da Tanq Tenqrini simvolizə edir. Əski türklərdə günəş həm Tanrıdır, həm də yaradıcı əcdaddır.*"[14] "*Hər evin və binanın qarşısında tonqalın yandırılması həmin ilin isti, bərəkətli keçməsinə nişanədir."*[15]

[13] Bax: http://yaaz.az/novruz-bayrami-seirl%C9%99ri/
[14] Bax: Xəlil A. "Novruz: ilkin qaynaqları və tarixi inkişafı" Xalq qəzeti.- 2010.- 21 mart.- S. 4.
[15] Bax: https://sevincbayramli.wordpress.com /2016/03/01/az%C9% 99rbaycan-folklorunda-novruz-ad%C9%99tl%C9%99ri-od-c% C9% 99rs%C9%99nb%C9%99si-od-ritualinin-milli-t%C9% 99 f%C9%99 kkurd%C9%99ki-yeri/

**3.“Külək çərşənbəsi”** Azərbaycanda “Yel çərşənbəsi”, “Qara çərşənbə”[16] adları ilə də tanınır. Yel çərşənbəsində əsən soyuq və isti küləklər yazın gəlişindən xəbər verir. Yel çərşənbəsi olan gün hər kəs ürəyində bir dilək tutar. *“Yel çərşənbəsi gecəsi söyüd ağacının altına gedib niyyət edər və Yel babanı çağırardılar. Əgər Yel baba sənin səsini eşidib əssə və söyüdün budaqlarını torpağa toxundursa, deməli, diləyin yerinə yetəcək*”[17]

*“Etiqadlara görə, bu çərşənbədə oyanan yel və külək dünyanı dolaşır, oyanmış suyu, odu hərəkətə gətirir. Bu çərşənbəyə xalq arasında yelli-küləkli çərşənbə də deyirlər. Yel çərşənbəsində əsən isti, soyuq küləklər yazın ılıq nəfəsini, hənirtisini, təravətini gətirir. Gün ərzində bir neçə dəfə dəyişən külək yelin özünün təzələnməsi kimi də qəbul edilir”.*[18] Yel barədə bir çox atalar sözlərimiz də vardır: "Yel əsib qoz tökülüb", "Yelnən gələn selnən gedər", "Yel apardığını qaytarmaz", "Yellə dost olan yellənə-yellənə qalar", "Yel bağlayanı el açar", "Külək kimi hərdən bir yana əsmə", "Yel əsir, yengələr oynayır", "Yel aparan yelinki, yerdə qalan mənimki", "Kələknən gələn, küləknən gedər", "Yel qayadan nə aparar"...

“İrs” folklor ansanblının bədii rəhbəri və konsertmeysteri, istedadlı tar ifaçısı Sidqi Mustafayev (Bax:Şəkil № 5), müəllifi anonim olan “Yel çərşənbəsi” [19] adlı şeirə, gözəl bir



Şəkil № 5.Sidqi Mustafayev

mahnı da bəsdələyib musiqisevərlərə ərməğan etmişdir. Hər il Novruz bayramı günlərində bu musiqi, ansanblın solistləri, müğənniləri tərəfindən səsləndirilməkdədir:

A yel baba, yel baba,
Tez gəl, baba, gəl baba.
Taxılımız yerdə qaldı,
Yaxamız əldə qaldı.

Sovur bizim xırmanı,
Atına ver samanı.
Dən yığılıb dağ olsun,
Yel babamız sağ olsun.

Yel əsər toz qoparar,
Ağacdan qoz qoparar.
Yellə gələn bəlanı,
Yel özü də aparar.

Dağ başında yel əsər,
Düşər üzə tel əsər.
Doğru söz tez kar eylər,
Qılıncdan iti kəsər.

[16] Bax: Allahmanlı M. “Azərbaycanın Qərb bölgəsinin mənəvi mədəniyyətindən” *(tarixi-etnoqrafik tədqiqat)* “Nurlan” nəşriyyatı, Bakı - 2011, s. 125.
[17] Bax: http://www.sherg.az/pre.php?id=35696
[18] Bax: https://news.milli.az/society/4685.html
[19] Bax: Rafiq Babayev, “Min bir mahnı” VI nəşr, “Min bir mahnı” yayınevi, Bakı-2007, S. 559.

**4. "Torpaq çərşənbəsi".** Qədimdən bəri "Torpaq çərşənbəsi"ndə vətəndaşlarımız şəhərlərdə, yerli sakinlər-imiz kəndlərdə, qəsəbələrdə qurumuş ağac budaqlarını, gərəksiz odun parçalarını toplayaraq, məhəllənin və ya küçənin münasib bir yerində cəm edib, şər qarışana yaxın məqamda kibrit çəkib öncə lopanı, daha sonra yanan lopa ilə ağac yığnaqlarını alışdırarlar. (Bax:Şəkil № 6).




Şəkil № 6. Novruz tonqalı alışdırılarkən

Azərbaycanın bəzi bölgələrində, son illərdə öz ömrünü başa vurmuş müxtəlif ölçülü avtomobil şinlərinə, lastiklərin üzərinə alışdırıcı maddələr (neft, benzin) töküb yandırmağa meyl edən gənclərin artdığını müşahidə edilməkdədir. Özünə güvənən gənclər isə alışan tonqallar üzərindən atlayıb, ağırlığını - uğurluğunu oda - alova tökdüklərinə inanarlar. Bu bəhsəbəhsli atlayışlar gənclər arasında keçirilən, sanki bir idman yarışını xatırlatmaqdadır.

Yusif Dirili (Bax: Şəkil № 7), adlı şairimiz 2011-ci il 14 mart tarixində yazdığı



Şəkil № 7. Yusif Dirili

"Bayramların sultanı"[20] adlı yeddi bəndlik şeirinin beşinci bəndində uşaqların ocaq üstündən tullanmalarını bu poetik misralarla necə də gözəl ifadə etmişdir:

Tonqal çatıb uşaqlar,
Atlanırlar üstündən.
Qorxu yoxdu alovdan,
Göz çıxardan tüstüdən.

Xalqımız arasında sonuncu çərşənbə olan "Torpaq çərşənbəsi", "İlaxır Çərşənbə" adı ilə də tanınır. *"İnanca görə Torpaq çərşənbəsi yetişəndə torpaq artıq əkinə hazır olur və ona toxum səpmək olar. İlaxır çərşənbədə bağ-bostan, dirrik yerləri əkinə hazırlanır".*[21] "İlaxır Çərşənbə" gecəsini hamı öz evində qeyd etməyə önəm verir. "İlaxır Çərşənbə"ni öz evində keçirə bilməyən şəxslər, inanca əsasən Novruz bayramını yeddi il dalbadal başqa yerdə, fərqli məkanlarda qarşılamalı olarlar.

Gələcək ilin necə olacağını bir az müddətdə öyrənmək məqsədilə, məhz bu mübarək gecədə hər kəs qulaq falına "kəşfiyyata" çıxarlar. Bu məramla da daha çox həddi-büluğ yaşına çatmış gənclər, yeniyetmə zənənlərimiz əsasən qonşu evlərin qapısının arxasında, pusquda dayanıb - gizlənərək, ilk eşitdikləri kəlməyə uyğun, təzə ildə onları gözləyən hadisələri öncədən öyrənməyə çalışırlar. (Bax: Şəkil № 8)

[20] Bax: https://diriliqurbanimeclisi.wordpress.com/2014/03/20/yaz-novruz-seirl%C9%99ri/
[21] Bax: https://525.az/site/?name=xeber&news_id=96434#gsc.tab=0

 

Şəkil № 8. Novruz bayramı günü qulaq falına çıxan qızlar

Bu səbəbdəndir ki, axırıncı çərşənbə axşamı hər bir insanımız, yalnız könül açan, qəlboxşayan xoş sözlər danışmağa, bir növ dilini şirin sala bilməyə cəhd edərlər. Bu "bir günlük vərdiş", uzun illərdir ki, Azərbaycanımızda milli adət halını almışdır.

Xalqımız arasında məşhur olan "Düşdü"[22] rədifli şeirində ustad Aşıq Ələsgər (Bax:



Şəkil № 9. Aşıq Ələsgər

Şəkil № 9) "Çərşənbə günü" təbirini bu poetik sözlərlə ifadə etmişdir:

Çərşənbə günündə çeşmə başında,
Gözüm bir alagöz xanıma düşdü.
Atdı müjgan oxu keçdi sinəmdən,
Nazu-qəmzələri qanıma düşdü.

"Novruz bayramı" Azərbaycanda "Bahar bayramı", "Yaz bayramı" adı ilə də tanınır. Hətta bahar bayramı ilə əlaqədar Azərbaycanın fərqli bölgələrində keçiriləcək bir çox mərasimlərin, tədbirlərin adlarında belə "Təbiətin yazı, aşığın sazı", "Yaz bayramı, saz bayramı", "Gədəbəyin yazı, aşığın sazı" bu təbirlərə rast gəlirik. "Novruz bayramı"nı əslində sevinc, şənlik bayramı adlandırmaq daha doğru olar. Məhz bu əlamətdar günlərdə insanların çöhrəsində sevinc təbəssümləri, şən əhval - ruhiyyə heç əksik olmaz. Yaşamaq həvəsi, qurub - yaratmaq eşqi xüsusən də Vətənin rifahı naminə çalışmaq əzmi daha da vüsət alır. Verimli torpaqlar, əkin sahələri, bağ - bağçalar şumlanıb, toxumlar səpilərək gələcək ayların bərəkətinin təməli bu günlərdə qoyulur. Şairlər, yazıçılar, rəssamlar bu mövsümdə, təbiətin qış yuxusundan oyanmasından, bağlarımızın gül- çiçəyə qərq olunmasından, dağlarımızın ilahi mənzərələrindən şövqə gələrək xalqımıza gözəl sənət əsərləri ərməğan etmişlər. İstisnasız deyə bilərik ki, Azərbaycanda elə bir şair tapmaq mümkün deyildir ki, bahar fəslinə, yazın gəlişinə, Novruz bayramına şeirlər həsr etməsin. Şərq ədəbiyyatında olduğu kimi, Azərbaycan klassik ədəbiyyatında "Bahariyyə", "Novruziyyə", "Baharnamə" adlı qiymətli əsərlərimiz də vardır ki, Baharla, Novruzla əlaqədar yaranmışdır.

Təsadüfi deyildir ki, xalqımız bu gözəl bayrama olan hörmətin, sevginin nişanəsi kimi, oğul övladlarımızın adlarını "Novruz", "Novruzəli", "Novruzxan", "Bayram", "Bayraməli", "Əlibayramlı" qoymuşlar. Yeri gəlmişkən ustad aşıqlarımızın repertuarında "Bayramı"[23] adlı klassik saz havasının olduğunu da qeyd etməliyik. (Bax: Əlavələr bölümü, səh. 108-110)

[22] Bax: https://az.wikisource.org/wiki/%C3%87%C9%99r%C5%9F%C9%99nb%C9%99_g%C3%BCn%C3%BCnd%C9%99,_%C3%A7e%C5%9Fm%C9%99_ba%C5%9F%C4%B1nda

[23] Bax: İlqar İmamverdiyev, «Dədə Şəmşir ifaçılığı sənətində ənənəvi saz havaları», "Vətən oğlu" NP MMC yayınevi, Bakı – 2017, 219 - 221 s.

Azərbaycanın və Güney Azərbaycanın ustad aşıqlarımızın repertuarında əsrlərcə yer alan məşhur "Novruz və Qəndab" dastanında da Novruz isminə rast gəlirik. Hətta təbiətin oyanması və bahar mövsümündə, xüsusən də novruz bayramı ərəfəsində dağlarımızda, yaylaqlarımızda açan çiçəklərin birinə "Novruz gülü" (Bax: Şəkil № 10), adı verilmişdir. İlham İdrisoğlu (Bax: Şəkil № 11), adlı musiqiçi isə "Novruz gülü"[24] isimli rəqs havası bəsdələyib, sintezatorda ifa etmişdir:



Şəkil № 10. Novruz gülü



Şəkil № 11. İlham İdrisoğlu

Otaylı, butaylı Azərbaycanımızın qüdrətli şair övladı Məhəmmədhüseyn Şəhriyar (Bax:



Şəkil № 12. Məhəmmədhüseyn Şəhriyar

Şəkil № 12), da "Heydərbabaya salam"[25]adlı poemasının bir bəndində "Novruz gülü"nün adını bu poetik misralarla anır:

Bayram yeli çardaxları yıxanda,
"Novruz gülü", "Qar çiçəyi" çıxanda,
Ağ buludlar köynəklərin sıxanda,
Bizdən də bir yad eyləyən sağ olsun,
Dərdlərimiz qoy dikəlsin dağ olsun.

Yaz mövsümünün nemətlərindən gül çiçək isimlərini zərifliyin, abır-həyanın, ismətin, namusun, qeyrətin rəmzi olaraq bir çox ailələrdə valideynlər ağıllı - kamallı, qız övladlarımızı Bahar fəslinə bənzətdikləri üçün "Bahar", "Gülbahar", "Qönçə", "Gülqönçə", "Lalə", "Süsən", "Yazgül", "Nurgül", "Gülnur", "Gülayə", "Güldəstə", "Gülsənəm", "Yasəmən", "Nərgiz" (Bax: Nərgiz gülü, Şəkil № 13) deyə bu gözəl adları onlara töhvə edib, şəninə yaraşdırmışlar.

[24] Bax: https://www.youtube.com/watch?v=imm1tK5qtK4
[25] Bax: https://www.antoloji.com/heydar-baba-ya-selam-siiri/



Şəkil № 13. Nərgiz gülü

Musiqi incilərimiz arasında bəstəkarı və müəllifi bilinməyən "Nərgizim"[26] adlı xalq mahnısı da vardır ki, ismini "Nərgiz çiçəyi"ndən almış, bir qız övladımıza həsr olunmuşdur. Hətta, əməkdar incəsənət xadimi, bəstəkar Telman Hacıyev (Bax: Şəkil № 14), Azərbaycanın xalq şairi Fikrət Qocanın (Bax: Şəkil № 15), "Nərgiz"[27] adlı bir şeirinə, ahəngi qəlbəyatımlı xoş bir



Şəkil № 14.Telman Hacıyev



Şəkil № 15. Fikrət Qoca

musiqi də bəsdələmişdir. Yeri gəlmişkən onu da qeyd etməliyik ki, yaz mövsümünün qırmızı rəngli gözəl çiçəklərindən olan "Lalə" (Bax: Şəkil № 16), istedadlı bəstəkarlarımızdan



Şəkil № 16. Lalələr

Telman Hacıyevin (Bax: Şəkil № 14), və əməkdar incəsənət xadimi, Əfsər Cavanşirovun (Bax: Şəkil № 17) yaradıcılığında da yer almışdır.



Şəkil № 17. Əfsər Cavamşirov

Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi Telman Hacıyevin (Bax: Şəkil № 14), Fəlsəfə elmləri doktoru, professor, şair Aslan Aslanovun (Bax: Şəkil № 18),

---

[26] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı-2007, S. 383-384
[27] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı-2007, S. 383.



Şəkil № 18. Aslan Aslanov

"Lalələr"[28] adlı şeirinə bəsdələdiyi şən - şux əhval-ruhuyyəli mahnını, dünya şöhrətli vokal ustadı, SSRİ xalq artisti, "Sosialist Əməyi Qəhrəmanı" Rəşid Behbudov[29] (Bax: Şəkil № 19),



Şəkil № 19. Rəşid Behbudov

musiqi mədəniyyətimiz tarixində, müdhiş ifası ilə özünəməxsus peşəkarlıq möhürünü vurmuşdur:

Yayın ortasında Gəncə çölündə,
Çıxıbdır yenə də dizə lalələr.
Yağışdan islanmış yarpaqlarını
Səriblər çəməmə, düzə lalələr...

Nəqərat
*Lalələr... lalələr...*
*Lalələr... lalələr...*

Xəyalımdan nələr gəlib, nə keçər,
Yaz gələr, ellərə durnalar köçər.
Bulqalar samavar, ağ daşlar şəkər,
Bənzəyir çəməndə közə, lalələr.

Meylim üzündəki qara xaldadır,
Hicranın əlacı ilk vüsaldadır.
Nə vaxdır Bakının gözü yoldadır,
Bir qonaq gələsiz bizə, lalələr.

Yaz mövsümündə açan "Lalə" və "Süsən çiçəyi"[30] (Bax: Şəkil № 20), ilə əlaqədar "Lalə"[31], "Süsənbəri"[32] (Bax: Əlavələr bölümü, səh. 111-113), adlı qədim saz havaları,

---

[28] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı-2007, S. 324-325

[29] Bax: https://ok.ru/video/27017482558 , https://www.youtube.com/watch?v=SiYcBIey1_8

[30] Süsən çiçəyi - Bax:https://www.google.com.tr/ search ? q=s %C3 % B Cs%C9% 99n+g%C3%BCl%C3%BC &tbm=isch&source =iu&ictx=1&fir=a8G7sLGTrifOxM%253A%252CqFlbrqyT_xKhdM%252C_&usg=__vVBC4KYPKrf1pyWGsx_JFmHnyJ8%3D&sa=X&ved=0ahUKEwijqJu87ujZAhUEBywKHSnQBpAQ9QEINzAB#imgrc=a8G7sLGTrifOxM:

[31] Lalə - Bax: İlqar İmamverdiyev, «Dədə Şəmşir ifacılığı sənətində ənənəvi saz havaları», "Vətən oğlu" NP MMC yayınevi, Bakı–2017, 90-92 s.



Şəkil № 20.Süsən çiçəyi

Azərbaycan aşıq sənətinin adlı - sanlı ustadı, əməkdar incəsənət xadimi Şəmşir Qurban oğlu Qocayevin (Bax: Şəkil № 21), ifaçılıq sənətində mövcud olduğunu da qeyd etməliyik.



Şəkil № 21. Dədə Şəmşir

Hətta saz-söz sənətimizin korifey nümayəndəsi Dədə Ələsgərin (Bax: Şəkil № 9), məşhur "Qadan alım"[33] şeirində "Süsən", "Lalə" və "Nərgiz" çiçəklərinin adlarına da rast gəlirik:

Səhər-səhər bağda gəzən nazənin,
Dəstinlə qönçəni üz, qadan alım!
Süsəndən, sünbüldən, lalə, nərgizdən;
Siyah tellərinə düz, qadan alım!

## 2. NOVRUZ BAYRAMININ ƏSAS ATRİBUTLARI

### a. Səməni

Qeyd etməliyik ki, Azərbaycan xanımları "Novruz bayramı"na bir ay öncədən hazırlaşarlar. Təmizlik işləri üçün həyət - bacalar süpürülər, evlər səliqə sahmana salınar. Səmənilərin göyərdilməsi üçün iri buğda dənələri birər-birər seçilib isladıldıqdan sonra, fərqli ölçüdə olan sinilərə, boşqablara, nəlbəkilərə düzülüb cücərə bilməsi üçün, üstü yaş tənziflə örtülərək, bir müddət kölgəli yerdə saxlanılır. Bir ay ərzində göyərmiş "Səməni"lər (Bax: Şəkil № 22) bolluğun, bərəkətin simgəsi kimi hər bir evdə, hər bir ailədə süfrələrimizi bəzərlər.



Şəkil № 22.Səməni

Qədim zamanlardan günümüzədək gələn Səməni ilə bağlı bir ənənə hələ də Azərbaycanda və İranda yaşadılmaqdadır. Bu adət, insanların arzu və isdəklərinin həyata keçməsi, diləklərinin gerçəkləşməsi ilə bağlıdır. Belə ki, Novruz bayramından öncə "Axır çərşənbə" günü, bir ana öz övladının instituta daxil ola bilməsi üçün və ya oğlunun əsgərlikdən sağ-salamat geri qayıtması üçün qəlbən uca Tanrıdan belə bir dilək tutar. İnanca

[32] Süsənbəri - Bax: İlqar İmamverdiyev, «Dədə Şəmşir ifacılığı sənətində ənənəvi saz havaları», "Vətən oğlu" NP MMC yayınevi, Bakı–2017, 146-148 s.

[33] Bax: https://trtr.facebook.com /Azer. Kultur/photos/a .2448864 28995. 137922.190662723995/ 101512619003 73996/

görə  Allahdan isdənilən bu arzu həmin il qəbul olunarsa, bu niyyətə əsasən dilək sahibi yeddi il ərzində Novruz bayramı ərəfəsində “Səməni halvası” bişirmək məcburiyyətindədir. Bu münasibətlə də tənzif arasında isladılmış və bir iki gün içərisində çirtilmiş buğda (azca cücərdilmiş Səməni) ət maşınında çəkilir, əzilmiş buğda sıxılaraq cecəsi suyundan tamamilə ayrılır. Bir qədər şəkər tozu və münasib ölçüdə qara un əlavə edilməklə, bu qəhvə rəngli qarışımından ibarət, duru halındakı şirin içəcəyə, istəyə görə bir qədər qabıqlı  fındıq, ya da fındıq içi də atıldıqdan sonra ocaq üzərində böyük ölçülü mis qazanlarda, dibi yanmasın deyə iri kəfkirlərlə bir neçə saat qarışdırılaraq bişirilir. “Səməni halvası” yarımçıq qaynadılıb bişdikdə duru halda, axıradək qaynadılıb suyu  tam çəkildikdə isə qatı, halvaya bənzər görüntülü olur. Bununla belə hər ikisinə də “Səməni halvası” deyilir. Diləyin gerçəkləşməsi səbəbi ilə xüsusi olaraq hazırlanan və müqəddəs sayılan sulu “Səməni halvası”, daha sonra çömçə ilə orta həcmli dərin çini kasalara tökülüb, nəzərdə tutulmuş şəxslərin sayına görə bölüşdürülərək öncə kasıblara, qonum - qonşulara ən nəhayət qohum - əqrəbalara pay göndərilir. Keçən əsrin 60-cı illərində diləyi qəbul olunmuş, bir övlad anası Sadıxova Hava Tanrıverdi qızı öz maddi ilmkanı ilə yeddi il müddətində diləyini yerinə yetirdikdən sonra, ömrünün sonuna kimi məhz Novruz bayramı ərəfəsində “Səməni halvası” bişirib, tanıdığı yaxın şəxslər üçün ikram edərdi.

Novruz bayramının şah əsəri olan “Səməni” haqda bir çox bəstəkarlarımız: Azərbaycanın xalq artistləri Səid Rüstəmov (Bax: Şəkil № 23), Oqtay Zülfüqarov (Bax: Şəkil



Şəkil № 23. Səid Rüstəmo



Şəkil № 24. Oqtay  Zülfüqarov



Şəkil № 25. Rauf  Məmmədov

№ 24), Rauf Məmmədov (Bax: Şəkil № 25 ), Teymur Elçin (Bax: Şəkil № 26 ), Zivər Ağayeva (Bax: Şəkil № 27),  kimi şairlərimizin sözlərinə bir neçə gözəl musiqilər də yazıb,



Şəkil № 26. Teymur Elçin



Şəkil № 27. Zivər Ağayeva

müğənnilərimiz ifa etmişlər. Hətta “Səməni” adlı Azərbaycanın xalq rəqsini (Bax: Əlavələr bölümü, səh. 142) məşhur rəqqaslarımız professiional ifaları ilə tamaşaçıların hüsn-rəğbətini qazanmışlar. Bu musiqini, SSRİ xalq artisti Adil İsgəndərovun (Bax: Şəkil № 28) rejissorluğu ilə Azərbaycanın əməkdar incəsənət xadimi, yazıçı-dramaturq Sabit Rəhmanın (Bax: Şəkil № 29) ssenarisi əsasında 1963-cü ildə lentə alınmış “Əhməd haradadır?” adlı bədii - filmdə də



Şəkil № 28. Adil İsgəndərov



Şəkil № 29. Sabit Rəhman

Nərgiz xala rolunun ifaçısı, məşhur aktrisamız, Azərbaycanın xalq artisti Nəcibə xanım Məlikova (Bax: Şəkil № 30) bu şahanə rəqsi peşəkarcasına oynaması ilə xalqımızın nəzər-diqqətində qalmışdır:



Şəkil № 30. Nəcibə Məlikova "Səməni" rəqsini ifa edərkən.

***Səməni № 1.*** Musiqisi Rauf Məmmədova ( Bax: Şəkil № 25), sözləri isə Zivər Ağayeva ( Bax: Şəkil № 27), aid olan, istedadlı xanım müğənnimiz Nəzakət Məmmədovanın (Bax: Şəkil № 31 ) ifa etdiyi "Səməni"[34] isimli ruhoxşayan gözəl melodiyalı mahnı, adından və



Şəkil № 31. Nəzakət Məmmədova

mətnindən göründüyü kimi, "Novruz bayramı"nın rəmzi, süfrələrimizin bəzəyi, xonçalarımızın yaraşığı olan "Səməni"yə həsr edilmişdirr:

Yenə gözəl vətənimə gəldi yar,
Mənim könlüm bu aləmdən ayrılmaz.
Kim bu mavi gözəlliyə vurulmaz,
Gülüş dolu dodaqlara səməni.
Bizim ellər oxuyur bu nəğməni.
Səməni, ay səməni saxla məni.

Nəqərat
*Düzərəm dörd yanına nərgizi, yasəməni,*
*Səməni, ay Səməni saxla məni.*

Bu bayramda hər il məclis düzəldən,
Əl çəkərmi sənin kimi gözəldən.
Süfrələrin bəzəyisən əzəldən,
Yaraşıqsan otaqlara səməni.
Bizim ellər oxuyur bu nəğməni.
Səməni, ay səməni saxla məni.

Nəqərat
*Düzərəm dörd yanına nərgizi, yasəməni,*
*Səməni ay səməni saxla məni.*
Mən il boyu həsrətinə dözərəm,
Elə bilmə gözləməkdən bezərəm.
Yollarını sözəlrimlə bəzərəm,
Getmə məndən uzaqlara səməni.

[34] Bax: https://www.youtube.com/watch?v=HEkmyKROlck saat: 4:50-6:07

***Səməni № 2.*** Söz yazarı bəlli olmayan bir şeirə, Azərbaycan Respublikasının xalq artisti Səid Rüstəmovun (Bax: Şəkil № 23), yazın gəlişi münasibəti ilə bəsdələdiyi "Səməni"[35] adlı musiqisinin mətni, adından göründüyü kimi Novruz bayramının emblemi olan "Səməni"yə ərməğan edilmişdir:

Səməni, sən yaşılsan,
Süfrəyə yaraşırsan.
Boşqabda göyərəndə,
Sən aşırsan, daşırsan.

Nəqərat
*Səməni, səməni, səməni,*
*Becərrəm hər il səni.*
*Səməni,*
*Səməni, saxla məni.*
*Səməni,*
*Bəslərəm hər il səni,*
*Səməni.*

Günəş göydə güləndə,
Novruz gülü gələndə.
Süfrələri bəzərsən,
Məclislər düzələndə.

Nəqərat
*Yaşıl, gözəl səməni,*
*Sevir el-oba səni.*
*Gülər üzünü görcək,*
*Xatırlarıq çəməni.*

**b. Novruz şirniyyatları**

Novruz bayramı ərəfəsində, "Axır Çərşənbə" gününədək xanımlarımız, qız-gəlinlərimiz buğda ununu xamur halına gətirib "Paxlava" "Şəkərbura", "Şəkər çörəyi", "Şorqoğalı", "Nazik" və s. bu kimi xoş təamlı çeşidli şirniyyatlar bişirmək üçün, sanki yarışa girib hazırlıq işlərinə başlayarlar. Ənənəmizə əsasən Novruz bayramınadək bu "Novruz şirniyyatlar"ı bişirilib hazır olar. Adı keçən şirnilərin hər birinin öz mənaları vardır.

**1**. Azərbaycan paxlavası dediyimiz zaman ilk öncə iki növ paxlava yada düşür. "Şəki paxlavası" (Bax:Şəkil № 32) və "Gəncə paxlavası" (Bax: Şəkil № 33) ulduzun rəmzidir. Düyü unundan hazırlanan "Şəki paxlavası" ilin hər mövsümündə Şəki şəhərinin xüsusi Şəki paxlavası bişirilən sexlərdə hazırlandığı halda, elimizin adətinə görə məşhur "Gəncə paxlavası" yalnız "Novruz bayramı" ərəfəsində, əsasən hər bir evdə, hər bir ailədə daha çox




Şəkil № 34. Məcməi

[35] Bax: Səid Rüstəmov, "Mahnılar və romanslar", "Muzıka" nəşriyyatı, Moskva – 1977, s. 41- 42

xüsusi mis məcməilərdə ( Bax: Şəkil № 34 ), ağac kömür ocağının üzərində bir müddət bişirildikdən sonra, kəsilib boşqablara, nimçələrə yığılıb əlvan görünüşləri ilə göz oxşamaqla süfrələrimizi bəzəməkdədir.



Şəkil № 32. Şəki paxlavası.



Şəkil № 33. Gəncə paxlavası

**2**. "Şorqoğalı" (Bax: Şəkil № 35), və "Nazik" ( Bax: Şəkil № 36) isə günəşin rəmzi hesab olunur.



Şəkil № 35 Şorqoğalı



Şəkil № 36. Nazik

**3**. Hilal formasında olan "Şəkərbura" (Bax: Şəkil № 37) "Aypara"nın, "Şəkər çörəyi" (Bax: Şəkil № 38), isə "Bütöv ay"ın görüntüsünü təmsil edir.



Şəkil № 37. Şəkərbura



Şəkil № 38. Şəkər çörəyi

**c. Rəngli yumurtalar**

Novruz bayramının önəmli atributları arasında yumurtalar da yer alır. Dünyanın yenidən canlanmasının rəmzi kimi xarakterizə edildiyi üçün, Novruz bayramı ərəfəsində yumurta boyamaq, milli adət-ənənə halını almışdır. Hər il bayram süfrəmizi "Səməni", "Şəkərbura", "Paxlava", "Şorqoğalı" ilə yanaşı, əlvan rənglərlə xüsusi üsullarla boyadılmış yumurtalar da bəzəməkdədir. Novruz bayramı ərəfəsində "Səməni"lər göyərdilməklə, həmçinin xamırdan bişirilən şirnilərlə yanaşı, əskidən bəri yumurtalar da əsasən üç rənglə boyanardı ki, hər rəngin də öz mənası vardır. "Qırmızı rəngli yumurta" odu-alovu, "Yaşıl rəngli yumurta" təbiəti, "Sarı rəngli yumrta" isə günəşi təmsil edirdi. Keçmiş illərdə günəş rəngli qırmızı yumurta boyama işi yalnız quru soğan qabığının bəyaz yumurta ilə birgə suda qaynadılması ilə əldə olunurdu. Zaman ötdükcə, texnologiya inkişaf etdikcə son illərdə əlvan rənglərlə boyanmış yumurtalar daha çox diqqəti çəkməkdədir. Hal - hazırda Azərbaycan xanımlarının yumurta boyama işi, sözün əsl mənasında sənət əsərinə, daha dəqiq desək "zəgər işi"nə çevrildiyi üçün, naxışlarla bəzədilmiş əlvan rəngli yumurtaların (Bax: Şəkil № 39) sayı-hesabı bilinməməkdədir.



Şəkil № 39. Əlvan rənglərlə boyanmış, naxışlı yumurtalar

Yumurta ilə bağlı ikinci bir adətimiz yumurta döyüşüdür. Əsasən yeniyetmə gənclərimiz, yumurtanın sərtliyini yoxlamaq məqsədi ilə, onu ön dişlərinə həssasca toxundurmaqla sərt qabıqlı olub-olmamasını dəqiq təyin etdikdən seçdikdən sonra, nəhayət döyüşdürmək məqsədilə tərəfmüqabilinin əlində saxladığı yumurta ilə toqquşdurma qərarını verər. (Bax: Şəkil № 40).



Şəkil № 40. Novruz bayramında yumurta döyüşü

Qaydaya əsasən yumurtası çatlayan tərəf məğlub hesab edildiyi üçün, qırılmış yumurtasını qalib tərəfə qeyd-şərtsiz təhvil verməlidir.

### d. Novruz xonçası

Novruz bayramının atributlarından biri də "Novruz xonçası"dır. Novruz xonçası dediyimiz zaman Azərbaycanda sinilərin (Bax: Şəkil № 41), iri nimçələrin (Bax: Şəkil № 42) və ya məcməilərin (Bax: Şəkil № 43)



Şəkil № 41. Sini



Şəkil № 42. Nimçə



Şəkil № 43. Məcməi

mərkəzi hissəsinə, mütləq təbiətin canlanmasının rəmzi hesab edilən göyərdilmiş "Səməni" olmaqla, ətrafına əsasən boyalı yumurtalar, imkan daxilində xamırdan bişirilib hazırlanmış müxtəlif şirnilər *("Paxlava", "Şəkərbura", "Şəkər çörəyi", "Şorqoğalı", "Nazik")*, müxtəlif çərəzlər: "Qoz" (Bax: Şəkil № 44), "Fındıq" (Bax: Şəkil № 45), "Badam" (Bax: Şəkil № 46), "Yer fısdığı" (Bax: Şəkil № 47), "Püsdə" (Bax: Şəkil № 48), "Ləbləbi"[36] (Bax: Şəkil № 49), "İydə" (Bax: Şəkil № 50), "İnnab" (Bax: Şəkil № 51), "Qaysı" (Bax: Şəkil № 52), "Kişmiş" (Bax: Şəkil № 53), "Şabalıd" (Bax: Şəkil № 54), tünd bənövşəyi rəngli fındıq boyda yetişmiş "Xirnik" (Bax: Şəkil № 55), "İran Xurma"sı (Bax: Şəkil № 56), son illərdə "Mədinə xurması" (Bax: Şəkil № 57), qənnadı fabriklərinin istehsal etdikləri çox çeşidli, al - əlvan görünüşlü "Konfet"lər, "Şakolad"lar, "Rəngli şam"lar və s. sıra ilə düzülərək bəzədilir.

[36] Ləbləbi - Çərəz kimi yeyilən qovrulmuş qabıqsız noxud. Bir məsldə belə deyilir: "Əkdiyim noxud, biçdiyim noxud, bazara girib, ləbləbi olub". Bax:https://azerdict.com/az/izahli-luget/l%C9 %99bl%C9%99bi



Şəkil № 44. Qoz



Şəkil № 45. Fındıq



Şəkil № 46. Badam



Şəkil № 47. Yer Fısdığı



Şəkil № 48. Püsdə



Şəkil № 49. Ləbləbi



Şəkil № 50. İydə



Şəkil № 51. İnnab



Şəkil № 52. Qaysı



Şəkil № 53. Kişmiş



Şəkil № 54. Şabalıd



Şəkil № 55.Xirnik



Şəkil № 56. İran Xurması



Şəkil № 57. Mədinə Xurması

Qeyd etməliyik ki, hər bir evin xanımı, qız-gəlini bu xonçaları öz zövqlərinədə görə bəzədikləri üçün, xoşagəlimli görünüşləri ilə bir-birindən fərqlənir. (Bax: Şəkil № 58).



Şəkil № 58. Novruz xonçaları

Adətən belə xonçalar hər bir evin masasının ən gözəl bəzəyi, şah əsəri olub, Novruz bayramı ərəfəsində və ya bu bayram günündə qonum - qonşuları, qohum-əqrəbaları, dost - doğmaları ziyarət etmək məqsədilə götürülən ən şərəfli, ən layiqli hədiyyə hesab edilir.

**e. Kosa və Keçəl**

Azərbaycanda keçirilən Novruz bayramının atributlarından, biri də Kosa və Keçəldir. (Bax: Şəkil № 59), Keçəl ilə Kosa, əslində məişət həyatında baş verən bir çox nöqsanları,



Şəkil № 59. Keçəl və Kosa

bəzi neqativ işləri, etikadan uzaq yanlış hərəkətləri görüb, acı həqiqətləri zarafatyana bir tərzdə tənqid edən komik aktyorlardır. Bu kimi qüsurlar Keçəl və Kosa ifadələrində dikənə çevrilib, hədəfindəki pis niyyətli şəxsləri sancmaqla həm də istehzalı tərzdə məzxərəyə qoyub, bu qəbildən olan tiplərə lağ edir. Bu iki personajın ətrafına yığışmış insanlar da deyib-gülüb, şənlənir, onların kiçik teatr oyununu xatırladan məzhəkəli-əyləncəli tamaşası müqabilində komik dialoqlardan aldığı tənqidi, istehzalı, zarafatyana deyilmiş poetik sözlərin təsiri ilə bir qədər düşünməli olurlar.

Novruzun keçiriləcəyi bayram tədbirinin iştirakçı-ları, Keçəli və Kosanı xalqımızın dilində əzbərə çevrilmiş bu poetik sözlərlə, sanki xor şəklində məclisə dəvət edərlər:

A Kosa-Kosa gəlsənə,
Gəlib salam versənə.
Çömçəni doldursana,
Keçəli yola salsana.

A uyruğu, uyruğu,
Saqqalı it quyruğu.
Kosam bir oyun eylər,
Quzunu qoyun eylər.
Yığar bayram payını,
Keçəlin toyun eylər.

Novruz, Novruz bahara,
Güllər-güllər nübara,
Kim yığar, kim apara,
Bağçamızda gül olsun,
Gül üstə bülbül olsun.

Novruz-novruz bahara,
Güllər-güllər nubara,
Bağçamızda gül olsun,
Gül olsun, bülbül olsun,
Bal olmasın, yağ olsun,
Evdəkilər sağ olsun,
Xanım dursun ayağa,
Kosaya pay versin ağa.[37]

[37] Bax: http://www.balalar-az.com/e-lib/negmeler/37-2/648-7

Sözləri və musiqisi Səadət Fərziyevaya (Bax: Şəkil № 60). aid olan "Xoş gəlmisən novruzum"[38] adlı uşaq mahnısının nəqərat qismində Novruz şənliyinə Kosa, digər bir



Şəkil № 60. Səadət Fərziyeva

variantdakı bu poetik sölərlə dəvət edilir:

Nəqərat
*A kos-kosa gəlsənə,*
*Bir sevinib gülsənə.*
*Qaynayıb qarışsana,*
*Bizimlə oynasana.*

### f. Dədə Qorqud və Bahar qız

Azərbaycanda keçirilən Novruz bayramının rəmzi kimi "Dədə Qorqud" və "Bahar qızı" tədbirin əsas qəhramanlarından biri olaraq xalqımızın nəzər-diqqətini çəkməkdədir. Bayramın keçirilməsinin təşkilatcıları olan təcrübəli rejissorlar, hər zaman bu rolda sərvi boylu, şah qamətli görünüşə, aydın diksiyaya, səlist nitqə, düzgün tələffüzə sahib, gözəl temrlə şeir söyləyə bilmək qabiliyyətinə malik aktyorları seçirlər. Məlumdur ki, "Bahar qız", yazın gəlməsini müjdələyən simvoldur. "Dədə Qorqud" obrazı isə Azərbaycan musiqi mədəniyyətin, xalq müdrikliyinin ümumiləşdirilmiş timsalidir. İctimai-siyasi xadim, dramaturq, yazıçı, şair, filologiya elmləri doktoru, Azərbaycan Dövlət mükafatı laureatı Şıxəli Qurbanovun ( Bax: Şəkil № 61), 1967-ci ildə ilk dəfə Bakıda dövət səviyyəsində təşkil etdiyi



Şəkil № 61. Şıxəli Qurbanov

Novruz bayramında "Bahar qız" rolunu məşhur aktrisa, Azərbaycan Respublikasının xalq artisti Səfurə İbrahimova ( Bax: Şəkil № 62), 1989-cü ilın mart ayında Bakıda keçirilən "Novruz şənliyi"ndə isə xalqımızın müdrik qəhrəmanı olan Dədə Qorqud obrazını görkəmli saz-söz ustadı, "Əməkdar mədəniyyət işcisi" Mikayıl Azaflı ( Bax: Şəkil № 63) canlandırmışlar.

---

[38] Bax: https://www.youtube.com/watch?v=kjjgql5Qkvo





Şəkil № 62. Səfurə İbrahimova

Şəkil № 63. Mikayıl Azaflı

21 Mart 2002 tarixində Ərzurum Atatürk Universitetində, yaz bayramı ilə əlaqədar təşkil olunmuş "Novruz şənliyi"ndə [39] Dədə Qorqud rolunun ifaçısı professor İlqar Cəmiloğlu (Bax: Şəkil № 64), "Bahar şənliyinə xoş gəlmişsiniz" rədifli şeiri ilə seyirçiləri təbrik etmiş, "Bahar qız" (Bax: Şəkil № 65), isə bu gözəl bayrama təşrif gətirmiş qonqaları, professor Əli



Şəkil № 64.İlqar Cəmiloğlu



Şəkil № 65. Bahar qız



Şəkil № 66. Əli Qafqasyalı

Qafqasyalının (Bax: Şəkil № 66), "Novruz bayramınız mübarək olsun" adlı qoşması ilə salamlamışdır:

**Dədə Qorqud:**

Böyük Türk xalqının mərd insanları,
Bahar şənliyinə xoş gəlmişsiniz.
Atatürk yurdunun isdi qanları,
Bahar şənliyinə xoş gəlmişsiniz.

**Bahar qız:**

Ana vətənimin oğul, qızları,
Novruz bayramınız mübarək olsun.
Şanlı bayrağımın ay, ulduzları,
Novruz bayramınız mübarək olsun.

**Dədə Qorqud:**

Müqəddəsdir sənin torpağın daşın,
Şanlı tarixin var, uludur yaşın.
İgid qəhrəmandır, bacın, qardaşın,
Bahar şənliyinə xoş gəlmişsiniz.

**Bahar qız:**

Allahdan dilərəm səadət sizə,
Əbədi var olsun, bu dövlət sizə.
Haqdan nazil olub məhəbbət sizə,
Novruz bayramınız mübarək olsun

**Dədə Qorqud:**

İlqar Cəmil oğlu, əlimdə sazım,
Ürəkdə sözlərim, xoşdur avazım.
Namuslu, iffətli oğulum, qızım,
Bahar şənliyinə xoş gəlmişsiniz.

---

[39] Bax: http://www.hurriyet.com.tr/gundem/devlet-nevruzu-kutladi-61013

**Bahar qız:** Bu bəşər, bu aləm heyrandır sizə,
Nə gözəl zamandır, dövrandır sizə.
Əli Qafqazlı qurbandır sizə,
Novruz bayramınız mübarək olsun.



Şəkil № 67. Qədim gəncədə keçirilmiş Novruz şənliyində
Dədə Qorqud və Bahar qız

## 3. KÜSÜLÜLƏRIN BARIŞDIĞI MÜBARƏK GÜN

Azərbaycan adətlərinə görə Novruz bayramı günlərində kimsə-kimsənin qəlbini qırmaz, xətrinə dəyməz, kimsə bir kimsədən inciyib-küsməz. Əksinə küsən şəxslər "Novruz bayramı" ərəfəsində və ya Novruz mərasiminin keçirildiyi mübarək gündə umu-küsünü bir kənara atıb, barışmağa cəhd edərlər.

**1.** Şair Hüseyn Sözlü bir bayatısında bu haqda belə deyir:

Hamı gülsün, danışsın,
Sevinclərə qarışsın.
Küsülülər barışsın,
Bu bayram axşamında.

**2.** Şair Dilsuz Mustafayev (Bax: Şəkil № 68) isə məcazi anlamda yaz günündə



Şəkil № 68.Dilsuz Mustafayev

küsənlərin əlindəki gülün, çiçəyin solacağını aşağıdakı bayatısında ifadə etmişdir:

Əzizim gülü solar,
Nərgizi, gülü solar.
Yaz günü küsənlərin,
Əlində gülü solar.[40]

**3.**.Tamilla Əsədovanın, Azərbaycanın əməkdar incəsənət xadimi Mədinə Gülgünün (Bax: Şəkil № 69) "Bayramda barışarlar"[41] adlı beş bəndlik şeirinə bəsdələdiyi mahnını, Azərbaycanın xalq artisti Şövkət Ələkbərovanın (Bax: Şəkil № 70) ifasında dinlədiyimiz

[40] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı-2007, S. 76.
[41] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 79.



Şəkil № 69. Mədinə Gülgün



Şəkil № 70. Şövkət Ələkbərova

zaman[42] musiqinin mətnində, küsülülərin bahar bayramında barışmaq təklifini bu poetik misralarla belə ifadə etmişdir:

Gül açdı inci-inci,
Nə küs məndən, nə inci.
Ay könlümün sevinci,
Gəl, barışmaq vaxtıdır.

Gedən quşlar döndülər,
Budaqlara endilər,
Bağlar da sevindilər,
Gül, barışmaq vaxtıdır.

Səməni xonça-xonça,
Düzərəm yol boyunca.
İncitmə məni bunca,
Gəl, barışmaq vaxtıdır.

Ağaclar yaşıllandı,
Yamacda lalə yandı.
Ürəyim səni andı,
Gəl, barışmaq vaxtıdır.

Hər yanda yaz ətri var,
Xoş gəlmisən ay bahar,
Bayramda barışarlar,
Gəl, barışmaq vaxtıdır.

**4.** İranın Həşkirt aşıq məktəbinin ustad sənətkarı Fərəc Muradi (Bax: Şəkil № 71) isə baharın gəlişi ilə əlaqədar “Gərək”[43]rədifli şeirində sevənlərin küsülü qalmamasını,



Şəkil № 71. Aşıq Fərəc Muradi

onların barışmasını bu poetik bənlərdə tövsiyə etmişdir:

[42] Bax: https://sozmusiqi.wordpress.com/bayramda-barisharlar/
[43] Bsx: İlqar İmamverdiyev , “Azerbaycan ve İran Türklerinde Nevruz Etkinlikleri ve Âşık Şiirinde Nevruz”, TAED 28, 2005, 234 s.

Bayram olur küsülülər barışar,
Şirin dillər bir-biriynən danışar,
Qohum-qardaş gələr bahəm görüşər,
Təzə ilə xoş gəldin etmək gərək,
Yar yarının könlünü almaq gərək.

Qız-gəlinlər, otağların bəzərlər,
Süfrələrə şirniləri düzərlər.
Həna yaxar al yanaqlı gözəllər,
Təzə ilə xoş gəldin etmək gərək
Yar yarının könlünü almaq gərək.

Novruz gəlir, bahar olar təzə il,
Cəh-cəh vurar, oxur bağlarda bülbül.
İsti vurar, hər yan açar qızıl gül,
Təzə ilə xoş gəldin etmək gərək,
Yar yarının könlünü almaq gərək.

Fərəc söylər, bayram olsun, toy olsun,
Allah verən nemətimiz çox olsun,
Hər ilimiz bir-birindən xoş olsun.
Təzə ilə xoş gəldin etmək gərək,
Yar yarının könlünü almaq gərək.

**5.** İranın Xurrəmdərə saz-söz məktəbinin ustad sənətkarı Aşıq Gülabəli Davudbəyinin (Bax: Şəkil № 72) Bahar mövsümü zamanı küsülü şəxslərin bir-biri ilə bu mübarək gündə,



Şəkil № 72. Gülabəli Davudbəyi

Novruz bayramında barışdığı zaman dilərin təzələnməsini "Təzələndi"[44] rədifli şeirin ikinci bəndində bu poetik misra ilə çox gözəl ifadə etmişdir:

Zimistan qəhrindən çıxdı bülbüllər,
Tarıx təzələndi xoş gəlsin illər.
İldə bir yol gəlir bu gözəl günlər,
Küsənlər barışdı, dil təzələndi.

**6.** İranın Qaraca bölgəsinin ustad sənətkarı aşıq Ramazanəli Xudabəndilu (Bax: Şəkil № 73), "Mübarək olsun"[45] rədifli şeirilə küsənlərin, bir - birindən incimiş şəxslərin

[44] Bax: İlqar İmamverdiyev, "Azerbaycan ve İran Türklerinde Nevruz Etkinlikleri ve Âşık Şiirinde Nevruz", TAED 28, 2005, 232 s.
[45] Bax: İlqar İmamverdiyev, "Azerbaycan ve İran Türklerinde Nevruz Etkinlikleri ve Aşıq Şiirinde Nevruz" A.Ü. Türkiyat Araştırmaları Enstitüsü Dergisi (TAED), Sayı 28 Erzurum 2005, S. 232-233



Şəkil № 73. Ramazanəli Xudabəndilu

barışmasını oxucularına bu poetik misralarla xatırlatmaqla Novruz bayramının mənəvi dəyərini ifadə etmişdir.

Bu əziz bayramda hamı görüşür,
Küsülü, davalı hamı barışır.
Varlı, yoxsul bir-birinə qarışır,
Ellər, bayramınız mübarək olsun.

**7.** Şair Cəmil Əkbər (Bax: Şəkil № 74) də "Bahar gəlişilə, Yaz gəlişilə" rədifli on bəndlik şeirinin doqquzuncu bəndində, hansı səbəbdənsə inciyib küsən şəxslərin Baharın,



Şəkil № 74. Cəmil Əkbər

Yazın gəlişi ilə barışdığını bu poetik misralarla ifadə etmişdir:

Tər torpağa, torpaq tərə qarışır,
Küsüşənlər, incişənlər barışır.
Çəmən-çiçək bir-birilə yarışır,
Bahar gəlişilə, Yaz gəlişilə.

**8.** İlqar Cəmiloğlu (Bax:Şəkil № 75) isə doqquz bəndlik "Novruz gələndə" rədifli gəraylısında, küsən şəxslərin alyansa gəlib barışdığı münasib günün Novruz bayramı



Şəkil № 75. İlqar Cəmiloğlu

olduğunu 5-ci bənddə bu poetik misrada belə ifadə etmişdir:

Arılar gülə qarışır,
Süsən sünbüllə yarışır.
Küsənlər, o gün barışır,
Novruz gələndə-gələndə.

## 4. ŞAİRLƏRİMİZİN BAHAR BAYRAMINA ƏRMƏĞAN ETDİKLƏRİ POETİK SÖZ İNCİLƏRİ

**1.** Xalq şairimiz Səməd Vurğun (Bax:Şəkil № 76) yaşadığı dönəmdə bu gözəl mövzunu ecazkar qələmi ilə poetikləşdirmiş, coşğun ilhamı sayəsində onu süsləmiş, Bahar”[46] adlı



Şəkil № 76. Səməd Vurğun

“möhtəşəm əsərini xalqımıza ərməğan etmişdir:

Bahar, istəklimsən başdan-binadan,
Ən gözəl qızısan sən təbiətin.
Xoşbəxt yaranmısan xoşbəxt anadan,
Gözünün odusan şeirin, sənətin,
Ən gözəl qızısan sən təbiətin.

Sükuta düşmənsən əzəldən sən də,
Nə yatır, nə də bir sakit olursan.
Çöllərə min yaşıl xalı sərsən də,
Çarpışıb yağışla, boranla, qarla,
Qışın son nəfəsi qasırğalarla
Sən də döyüşlərdə yaşa dolursan,
Nə yatır, nə də bir sakit olursan.

Buludlar qoynunda çaxan şimşəyin,
Sivri qılınc kimi sıyrılır qından.
Tufan da qoparır bəzən küləyin,
Dağlara səs düşür qışqırığından.

Bahar, qoy suların gurhagur axsın,
Sinəmin üstündən keçsin sellərin.
Başımın üstündə şimşək də çaxsın,
Qoy tufan qoparsın əsən yellərin.

Doyunca çarpışıb qasırğalarla,
Göydə qartal kimi yorulum mən də.
Sonra qoşa yatıb dostum baharla,
Baş-başa dincəlim bir göy çəməndə.

[46] Bax: http://kayzen.az/blog/poeziya/12137/bahar-%7C-s%C9% 99m%C9%99d-vur%C4%9Fun.html

Dən olub səpilək gəl səninlə mən,
Göyərək torpaqda sünbüllər kimi.
Qızlar gülab çəksin qoy ətrimizdən,
Baharın zinəti al güllər kimi.

Qoşa çinar olub bitək yol üstə,
Göylərə boy ataq öz ölkəmizdə.
Yayın istisində Muğanda, Mildə,
Yolçular dincəlsin qoy kölgəmizdə.

Ya da dağ döşündə qoşa qaynayan,
Ürək sərinlədən çeşmələr olaq.
Yerdə bulud-bulud axıb oynayan,
Sərin çaylar kimi axdıqca dolaq,
Ürək sərinlədən çeşmələr olaq.

Yer qazaq, su çəkək boz səhralara,
Daş yonaq, söz yazaq iti əl kimi,
Göyləri şimşək tək biz yara-yara,
Gəzək yer üzünü bir əməl kimi.

Bir cüt ala gözlü göyərçin olub,
Gəl, Yer kürəsinin çiyninə qonaq.
Şeir tək dillənib, nəğmə tək ötüb,
Dildən-dilə düşək, əzbər oxunaq.

Bir cüt məşəl olsun ürəklərimiz,
Bir cüt ulduz kimi baş-başa yanaq.
Sülhün, səadətin keşiyində biz
Gəl qoşa dayanaq, qoşa da yanaq.

Min il ömür sürək səninlə qoşa,
Bir canda döyünən iki ürək tək.
Min il nəfəs verək torpağa, daşa,
Nəsildən-nəsilə təzələşərək.

**2.** Azəbaycan Respublikasının xalq şairi Osman Sarıvəlli (Bax: Şəkil № 77) də baharın, yazın ana Vətənimizə, elimizə, obamıza mübarək qədəmlərini qoymasından cuşa



Şəkil № 77. Osman Sarıvəlli

gələrək, "Bahar gəldi"[47] adlı gəraylısını yazmışdır:

[47] Bax: Osman Sarıvəlli, "Seçilmiş əsərləri, Şeirlər, Poemalar", c. II, Azərnəşr, Bakı - 1987, s.75-76.

Doğdu günəş, əridi qar,
Bahar gəldi, bahar gəldi.
Xəbər verdi qaranquşlar,
Bahar gəldi, bahar gəldi.

Səhər çağı hava xoşdu,
Könüllər qaynadı coşdu.
Uşaqların yaxın dostu,
Bahar gəldi, bahar gəldi.

Kötükdən uçdu arılar,
Qarışqalar qatar qatar,
Kol dibindən yol saldılar,
Bahar gəldi, bahar gəldi.

Bu dağlarda gülə-gülə,
Bülbül nəğmə deyir gülə.
Al şəfəqli bir günəşlə,
Bahar gəldi, bahar gəldi.

Aşıqlar qurşandı saza,
Şairlər söz qoşdu yaza.
Bizim güllü bağçamıza,
Bahar gəldi, bahar gəldi.

Göy çəməndə səhər, səhər
Mahnı deyir şən körpələr,
Yaxasında bənövşələr,
Bahar gəldi, bahar gəldi.

**3. a.** Azərbaycanın alim - şair övladı, Cəmil İmamverdi oğlu Əkbər ( Bax: Şəkil № 74) 25 Mart 1989 - cu ildə yazdığı “Bahar gəlişilə, yaz gəlişilə” rədifli şeirində, bu gözəl mövsümü baharın, yazın gəlişini aşağıdakı poetik misralarla vəsv etmişdir:

Təbiət dəyişir öz libasını,
Bahar gəlişilə, yaz gəlişilə.
İlhama gətirir el-obasını,
Bahar gəlişilə, Yaz gəlişilə.

Havalar isinir, ətir dəyişir,
Tumurcuq açılır, çətir dəyişir,
Toxumlar cücərir, bitir dəyişir,
Bahar gəlişilə, Yaz gəlişilə.

Pöhrələr budağın bağrını dəlir,
Kolların dibində bənövşə gülür,
Baxdıqca insanın həvəsi gəlir,
Bahar gəlişilə, Yaz gəlişilə.

İnsan bir-birilə salama gəlir,
Ülfət-ünsiyyətə, kəlama gəlir.
Könül təlatümə, ilhama gəlir,
Bahar gəlişilə, Yaz gəlişilə.

Fəsillər xasının gözəlinə bax,
İbtida, bünövrə, xəzəlinə bax.
Dilləri, dodağı məzəliyə bax,
Bahar gəlişilə, Yaz gəlişilə.

Oyanır duyğular bədəndə, canda,
Coşub şövqə gəlir, damarda qan da.
Bəslənir pətəkdə zülal da, şan da,
Bahar gəlişilə, Yaz gəlişilə.

Torpaqdan cücərir, daranır nələr,
Bəslənir, yetişir, yaranır nələr.
Bürünür xınaya, daraşır nələr,
Bahar gəlişilə, Yaz gəlişilə.

Çəmən təzələnir, çöl təzələnir,
Dəniz təzələnir, göl təzələnir,
Aylar təzələnir, il təzələnir,
Bahar gəlişilə, Yaz gəlişilə.

Tər torpağa, torpaq tərə qarışır,
Küsüşənlər, incişənlər barışır.
Çəmən-çiçək bir-birilə yarışır,
Bahar gəlişilə, Yaz gəlişilə.

Qüvvəti, qüdrəti ondan alırıq,
Düşüncəyə, xəyallara dalırıq.
Ömür karvanını yola salırıq,
Bahar gəlişilə, Yaz gəlişilə.

**3. b.** Şair Cəmil Əkbər (Bax: Şəkil № 74) 1981-ci il 5 İyun tarixində yazdığı "Gözəlləşir" rədifli ikinci şeirində də bahar fəslinin gəlişi səbəbi ilə təbiətin gözəllik aləminə bələnməsini bu poetik misralarla dəyərləndirmişdir:

Zimistan köç edir, bahar, yay gəlir,
Gözəl fəsil gəlir, gözəl ay gəlir.
Dürlü sovqat gəlir, dolu pay gəlir,
Aylar gözəlləşir, il gözəlləşir.

Hər çiçəkdən min-bir ətir qoxuyur,
Elə bil çəmənlər xalı toxuyur.
Quşlar cəh-cəh vurub nəsə oxuyur,
Bülbül gözəlləşir, gül gözəlləşir.

Bəzənir, düzənir aranlar, dağlar,
Ruha qanad verir bağçalı-bağlar.
Əyibdi başını barlı butaqlar,
Çəmən gözəlləşir, çöl gözəlləşir.

Xəyal vəcdə gəlir, ilhamım coşur,
Sığmır məcrasına, həddini aşır,
Çaylar da kükrəyir, sellənib daşır,
Sona gözəlləşir, göl gözəlləşir.

Zəhmət dünyasında ucalırıq biz,
Hörmətlə, izzətlə qocalırıq biz.
Hünərlər göstərib bac alırıq biz,
Sənət gözəlləşir, il gözəlləşir.

Dəyişir mənası, adi izin də,
Adi baxışın da, adi gözün də.
Adi danışığın, adi sözün də,
Dəhan gözəlləşir, dil gözəlləşir.

Dəyişir donunu şəhər də, kənd də,
Yox olur qüssə də, hicran da dərd də.
Çəkilir kanallar, tikilir bənd də,
Oba gözəlləşir, el gözəlləşir.

Qulaq as tarıma, telli sazıma,
Bəhrəli yayıma, güllü yazıma.
Gözəl ahəngimə, xoş avazıma,
Kaman gözəlləşir, tel gözəlləşir.

Mənalar duyulur, söz hikmətlənir,
Baxışlar nurlanır, üz ismətlənir.
Əyrilər pislənir, düz qiymətlənir,
Sərraf gözəlləşir, ləl gözəlləşir.

Buludlar toqquşur, şimşəklər çaxır,
Çeşmələr, irmaqlar car olub axır.
Ellər sahilində baxır, hey baxır,
Çaylar gözəlləşir, sel gözəlləşir.

Ey Cəmil yaz, yarat danış düzünü,
Qoy eşitsin aləm sənin sözünü.
Gərdişi-dövrana yumma gözünü,
Arif gözəlləşir, bil gözəlləşir.

**4.** Şair Ənvər Əlibəylinin ( Bax: Şəkil № 78) “Sənin vurğununam, Bahar, ay Bahar” adlı şeiri Azərbaycana Baharın gəlişi şərəfinə yazılmışdır:



Şəkil № 78. Ənvər Əlibəyli

Sənin gəlişinlə düzəndə, dağda
Qarlar selə dönüb axar, ay bahar!
Ətirli güllərdən qızlar, gəlinlər
Dərib sinəsinə taxar, ay bahar!

Yaşıla bürünər çəmən, dağ, meşə,
Ayılar yuxudan Nərgiz, Bənövşə:
Qışın şaxtasında, inan, həmişə
Həsrətin qəlbləri yaxar, ay bahar!

Yaşıl reyhanların, qızıl güllərin
Ətrini gətirər əsən yellərin.
Mən də bülbülüyəm bu şad ellərin,
Sənin vurğununam, bahar, ay bahar!

**5.** Yusif Dirili ( Bax: Şəkil № 7) adlı istedadlı şairimiz, bahar mövsümünün el - obamıza, yurdumuza xoş gəlişi, Novruz bayramı ilə əlaqədar, 2010-ci il 10-11 mart tarixində "Yaz gələndə", "Novruz gəl", 14 Mart 2011-ci ildə isə "Bayramların sultanı"[48] rədifli üç şeir yazmış, bu gözəl mövsümü poetik sözün qüdrəti ilə vəsv etmişdir:

**Yaz gələndə**

Hələ qar əriməmiş,
İlk yaz sevincək gəlir.
Danaqıran qovzanıb,
Torpağın bağrın dəlir.

Bahar özün yetirib,
Çöl-çəmənlər oyanmış.
Qızılgül qönçələnib,
Yasəmənlər oyanmış.

Alabaxta kirimir,
Qumru ötür budaqda.
Zağca, qaranquş, leylək
Durna gəlib havaxdan.

Torpaq ılıq nəfəsin
Dənə, toxuma verir.
Quzuqulağı, yemliyi,
Yerbəyerdən göyərir.

Sular qışqırıq salıb,
Dərələrdən axır hey.
Göylərin gözü dolub,
Hərdən şimşək çaxır hey.

Kəsmir selləmə yağış,
Düz-dünyanı yuyunca.
Nə xoşdur seyr eləmək
Təbiəti doyunca.

[48] Bax: https://diriliqurbanimeclisi.wordpress.com/2014/03/20/yaz-novruz-seirl%C9%99ri/

## Novruz, gəl

Süfrədə düzüm-düzüm:
Ləb-ləbi, xurma, üzüm.
Plovda qalıb gözüm,
Novruz, gəl ha, Novruz, gəl.

Sənsən parlayan ulduz
Keçəl, Kosa, Bahar qız.
Qoyma gəl bizi yalqız,
Novruz, gəl ha, Novruz, gəl.

Könül evi viran var,
Bəxtindən nigaran var.
Aralıqda hicran var,
Novruz, gəl ha, Novruz, gəl.

Xoş niyyətin dolaşsın,
Küsülülər barışsın.
Bərəkət açıb-daşsın,
Novruz, gəl ha, Novruz, gəl.

Göyərtmişəm səməni,
Gözlərəm hər il səni.
Tez gəl, sevindir məni,
Novruz, gəl ha, Novruz, gəl.

Burda dağlar baş-başa,
Bağ-bağçalar tamaşa.
Əlvida dedik qışa,
Novruz, gəl ha, Novruz, gəl.

## Bayramların sultanı

Novruz gəlir yurduma,
Hər tərəf gül-çiçəkdir.
Az sonra keçəl, kosa,
Meydana gələcəkdir.

Hər tərəf işıq saçdı,
Novruz gəldi, sevindik.
Kədər bizdən gen qaçdı,
Şadyanlığa büründük.

Şəkərbura, paxlava,
Şorqoğalı yeməli.
Bayramların sultanı,
Ancaq sənə deməli.

Qoz-fındığın, qovurğan,
Ağzı dada gətirir.
Üzərriyin, yovşanın
Qada-bala götürür.

Tonqal çatıb uşaqlar,
Atlanırlar üstündən.
Qorxu yoxdu alovdan,
Göz çıxardan tüstüdən.

"Bənövşə bəndə düşə"
-Bir oyundu məzəli.
Uşaqların sevdiyi,
"Yenə gəldi ənzəli"

Çərşənbələr ard-arda
Mənalıdır hər biri.
Bərəkət simvolusan,
Neçə min ildən bəri.

**6. a.** Şadiman təxəllüsü şairə xanım Şirin Kərimbəyli (Bax: Şəkil № 2) də Novruz bayramı ilə əlaqədar iki şeir yazmışdır. Şairə xanım, Novruz axşamı dilək tutub şamların yandırılmasını "Yansın bayram şamları"[49] adlı şeiri ilə nəzmə çəkmişdir:

Yansın bayram şamları,
Gəlsin el adamları.
Şölələnsin kamları,
Ürəklərdə nur olsun,
Novruzumuz gur olsun.

Tonqalları çatılsın,
Üstündən el atılsın.
Hər ev bura qatılsın,
Sinədə qürur olsun,
Novruzumuz gur olsun.

Qoy yığışıb qış getsin,
Novruz ruhu xoş etsin.
Süfrə açan nuş etsin,
İşimiz uğur olsun,
Novruzumuz gur olsun.

Paxlava, şəkərbura,
Pilovun üstə qara.
Xəbər ver dosta, yara,
Bayram elə cur olsun,
Novruzumuz gur olsun.

Səməni qalaq-qalaq,
Alaq süfrəyə salaq.
Biz canbirqəlbdə olaq,
Söz ağızda dür olsun,
Novruzumuz gur olsun.

[49] Bax: http://yaaz.az/novruz-bayrami-seirl%C9%99ri/

Vətənin gözü gülsün,
Gecə-gündüzü gülsün.
Millətin üzü gülsün,
Evdə yur-yuğur olsun,
Novruzumuz gur olsun.

Bu yazın leysanları,
Torpağın ehsanları.
Ay Vətən insanları,
Sübhdən durhadur olsun,
Novruzumuz gur olsun.

Bir kimsə qəm görməsin,
Qəmlə süfrə sərməsin.
Ah qolunu gərməsin,
Qışla vurhavur olsun,
Novruzumuz gur olsun.

**6. b.** Şirin Kərimbəyli Şadiman (Bax: Şəkil № 2) xanımın ikinci şeiri "Novruz bayramı"[50] adlanır. Bu gözəl bayramın gəlişi şərəfinə insanların sevinməsi, hər bir evdə şadlıq mərasimlərinin keçirilməsi, küsənlərin barışması, tonqalların yandırılması və s. bu kimi xalqımıza məxsus milli adət-ənənələrimiz poetik misralarla belə verilmişdir:

Bu gün Novruz bayramı,
Gəlib yurda, yuvaya.
Gülür şadlanır hamı,
Şam atılır havaya.

Gur tonqallar qalanır,
Uşaqlar dövrə vurur.
Göydə tüstü bulanır,
Burum-burum tor qurur.

Əllərdə papaq, torba,
Körpələr qaçışırlar.
Şadlıq edir el, oba,
Ürəklər uçuşurlar.

Novruz bayramı gəlir,
Küsüşənlər barışır.
Hər qəlbi sevda dəlir,
Könül canla yarışır.

Uşaqların sevinci,
Aşıb-daşır sel kimi.
Hər birisi dür, inci,
Qaçışrlar yel kimi.

Bitməsin bu toy, büsat,
Yurdu alsın ağzına.
Qaynasın, daşsın həyat,
Çıxaq ömrün yazına.

---

[50] Bax: http://yaaz.az/novruz-bayrami-seirl%C9%99ri/

**7.** Xalqımızın istedadlı gənc şair övladı Ruslan Əliyevin ( Bax: Şəkil № 79) "Novruz



Şəkil № 79. Ruslan Əliyev

gəlir"[51] şeiri adından anlaşıldığı kimi, bahar bayramının ən gözəl günü Novruzun yurdumuza qədəm qoyması münasibəti ilə yazılmışdır:

Təbiət boyanıb, girir min dona,
Ağaclar hörmətlə baş əyir ona.
Kədər, qüssə tükənib, gəlir sona,
Xoş qədəmlə bu elə Novruz gəlir.

Naxış vurur Novruz, çəmənə-dağa,
Qışın yuxusundan oyanmış bağa.
Ruzu bərəkətlə gəlir torpağa,
Xoş qədəmlə bu elə Novruz gəlir.

Xalqımız sevinib şənlik edirlər,
Əl-ələ verirlər, yallı gedirlər.
"Bayramınız mübarək olsun" deyirlər,
Xoş qədəmlə bu elə Novruz gəlir.

Süfrələrə naz-nemətləri düzək,
Badələrə sevgi şərbəti süzək.
Kədərli ömürdən əlimizi üzək,
Xoş qədəmlə bu elə Novruz gəlir.

Şamları yandıraq, arzular tutaq,
Dərdlə vidalaşıb, dərdi unudaq.
Gülər üzlə Novruzu qarşılayaq,
Xoş qədəmlə bu elə Novruz gəlir.

## 5. AZƏRBAYCAN MUSİQİSİNDƏ BAHAR, NOVRUZ MÖVZUSU

Azərbaycanın musiqi irsinə ümumi bir nəzər saldığımızda aydın olur ki, Bahar bayramı və ya Novruz bayramı ilə ilgili musiqilər əsasən üç yöndən özünü göstərməkdədir.

**1.** Azərbaycan xalq musiqisi.

**2**. Professional bəstəkar yaradıcılığı.

**3.** Azərbaycan xalq rəqsləri.

**1.** Azərbaycan xalq musiqi sənətində Bahar, Novruz bayramına həsr olunmuş nümunələri iki mövqedə dayanır:

a. Aşıq yaradıcılığında, aşıq ifaçılığı sənətində yer alan novruz mövzulu, bahar motivli musiqili-poetik şeir nümunələri.

b. Sazəndələrimizin müşayiəti ilə xanəndələr-imizin ifa etdiyi bahar, novruz ahəngli, vokal-instru-mental musiqi örnəkləri.

[51] Bax: https://www.youtube.com/watch?v=aOk33VS_tCc

**2.** Azərbaycan bəstəkarlarının - musiqiçilərinin yaradıcılığında Bahar və ya Novruz bayramına həsr olunmuş musiqi əsərləri ikinci qrupda qərar aldığı, üçün onu da iki yöndən təhlil edə bilərik:

a. Professional bəstəkarlarımızın Bahar, Novruz bayramı münasibəti ilə yazdığı əsərlər. Bu qrupda yer alan bahar və ya novruz bayramına həsr olunmuş mahnıları bəstəkarlarımız məxsusi olaraq yazmışlar. Novruz, bahar mövzusunda olan uşaq mahnıları da bu qrupda yer almaqdadır.

b. Amator musiqiçilərimizin, həvəskar bəstəkarlar-ımız olan xanəndə və müğənnilərimizin bahar və ya novruz bayramına ithaf etdikləri mahnılar.

**3.** Novruz bayramına həsr olunmuş, eyni adlı və ya bahar atributlarının isimlərini (fərqli gül çiçək, bitki adları və s.) özündə yaşadan Azərbaycan rəqs musiqiləri.

## 6. AZƏRBAYCAN AŞIQ YARADICILIĞINDA NOVRUZ, BAHAR MÖVZUSU

Xalq ozanlarmızın yaradıcılıq məhsulu olan çoxsayda dastanlarımız, şifahi xalq ədəbiyyatı nümunələri, zəngin melodiyalı saz havalarımız, aşıqlarımız tərəfindən bahar bayramının şəninə səsləndirilmiş, bu ənənə hər il yeni bir ovqatda, coşğun əhval-ruhiyyədə davam etməkdədir.

**1.** Ustad sənətkarlarımızın əsasən toy-düyünlərdə "Tahir və Zöhrə"[52] dastanının bir bölümündə "Bala Nərgiz" rədifli gəraylını, "Şirvan gözəlləməsi"[53] adlı saz havası üstə çalıb söylədiyi bir məqamda, baharın gəlişi münasibətilə, əsərin qəhrəmanı Tahir Mirzənin Nərgizə xitabən ilk bənddə poetik misra ilə belə müraciət edir:

Budur gəldi bahar fəsli,
Açılıbdır lalə, nərgiz.
Ağız süddür, dodaq qaymaq,
Dilin batıb bala Nərgiz.

Təəssüflə qeyd etməliyik ki, gəraylı adlı aşıq şeir formasına əsaslanan bu şeir, Rafiq Babayevin "Min bir mahnı" yayınevi tərəfindən 2007-ci ildə Bakıda yayınlatdığı VI nəşr "Min bir mahnı" adlı kitabının 72-ci səhifəsində yanlış olaraq şeirin söz yazarının Aşıq Şakir Hacıyevə ?? aid olduğu bildirilmişdir.

**2.** Azərbaycanın böyük saz-söz ustadı Aşıq Ələsgər ( Bax: Şəkil № 9), də baharın, yazın gəlişini süsənli-sünbüllü, laləli "Dağlar"[54] rədifli qoşmasında, birinci bəndin ilk beytində poetik misralarla belə ifadə etmişdir:

Bahar fəsli, yaz ayları gələndə,
Süsənli-sünbüllü, lalalı dağlar[55].

Bahar fəslinin xoş məramla elimizə, obamıza qədəm qoyması və bu səbəblə də dağlarda yağmurun çoxalması ilə çaylarda sellərin aşıb-daşması, zəmzəm zümzüməli göllərdə sonaların, qazların şövqlə üzməsini, onların çıxadıqları qarğaşalı səslərini, Dədə Ələsgər ( Bax: Şəkil № 9), digər bir "Dağlar"[56] rədifli şeirinin ilk bəndində şairanə dillə belə vəsv etmişdir:

Bir ay yarım nobahardan keçəndə
Car olur köksündən sellərin, dağlar!
Çalxanır sonalar, çığrışır qazlar,
Zəmzəm zümzüməli göllərin, dağlar!

---

[52] Bax: "Azərbaycan məhəbbət dastanları", "Elm" Nəşriyyatı, Bakı- 1979, s. 45-46.
[53] Bax: İlqar İmamverdiyev, «Şirvan aşıqlarının saz havaları», "Ozan" yayınevi, Bakı-2011, S 41.
[54] Bax: https://az.wikisource.org/wiki/Da%C4%9Flar_(A%C5%9F%C4%B1q_%C6%8Fl%C9%99sg%C9%99r)
[55] Bax: İslam Ələsgər, "Aşıq Ələsgər", Yazıcı Nəşriyyatı, Bakı- 1988, s. 21.
[56] Bax: http://elibrary.bsu.az/kis/1603.pdf S. 296. Mikrosof Word – El chelengi.doc S. 149.

**3.** Məşhur saz ustadlarımızın “Bayramı” adı ilə çalıb oxuduğu, sözləri Aşıq Hüseyn Şəmkirliyə aid olan, zaman keçdikcə xanəndələrimizin də repertuarında da tədricən yerini almış, Azərbaycan xalq mahnısı kimi tanınan “Üç gül”[57] adlı musiqinin mətn qismində yazın, baharın yurdumuza, elimizə, obamıza qədəm qoyması ilə “ağ gül”lərin, “qırmızı gül”lərin və “sarı gül”lərin açılması poetik misralardakı vəsvini də xüsusilə qeyd etmək lazımdır:

Yarın bağçasında üç gül açılıb –
Ağ gül, qırmızı gül, bir də sarı gül.
Hər birisi bir-birindən öyməli,
Ağ gül, qırmızı gül, bir də sarı gül.

Ağca gülün qapısından baxmalı,
Qızıl gülü dəstə tutub qoxmalı.
Sarı gülü tər buxağa taxmalı,
Ağ gül, qırmızı gül, bir də sarı gül.

Ağ gülü bənzətdim göydə laçına,
Qızıl gülü düzdüm yarın saçına.
Hüseyn muştaqdır gülün üçünə,
Ağ gül, qırmızı gül, bir də sarı gül

**4. a.** Azərbaycanın əməkdar incəsənət xadimi, Şəmşir Qurban oğlu Qocayev ( Bax: Şəkil № 21), “Təzə yaz gəlir”[58] rədifli 6 bəndlik qoşması ilə baharın ana yurdumuza qədəm qoymasını bu petik misralarla vəsf etmişdir:

Zərdən yəhərləyib bahar atını,
Ellərin bayramı təzə yaz gəlir.
Yuxudan oyadır nəbatətini,
Bu ana torpağa min muraz gəlir.

Ağ duman özünü fərş edir yerə,
Verir nəfəsini gül abutərə.
Qar əriyir, çay axıdır hər dərə,
Deyirsən hər yandan Kür-Araz gəlir.

Yarpağı açmağa hökm edir külək,
Bahar köhlənini minir bir mələk.
Açılır bənövşə, çəmən, gül, çiçək,
Səfalı dağlara al-bəyaz gəlir.

Bağlar inci düzür bağ düyməsini,
Hər xilqət gözləyir öz vədəsini.
Ucaldır bağçada bülbül səsini,
Qayada kəklikdən xoş avaz gəlir.

Doluxur yağışlı qara buludlar,
Qalxır qoruncalı, yoncalı otlar.
Düzəlir yaylaqda qurğu büsatlar,
Çobanlar ney tutub sərəfnaz gəlir.

Sürülər yaylılır Murov dağına,
Vaxt yetişir fəslin gözəl çağına.
Elin mərasimli toy yığnağına,
Şəmşirin əlində telli saz gəlir.

---

[57] Bax: http://elibrary.bsu.az/kis/1603.pdf S. 146., Mikrosof Word – El chelengi.doc S. 74. , Rafiq Babayev, “Min bir mahnı” VI nəşr, “Min bir mahnı” yayınevi, Bakı-2007, S. 522.

[58] Aşıq Şəmşir. “O Kürün, Arazın Tərtəriyəm mən”, “Sabah” nəşriyyatı,Bakı-2004, s. 251

**4. b.** Dədə Şəmşirin (Bax: Şəkil № 21), 21 mart 1967-ci ildə yzadığı "Yaz günü"[59] adlı 11 bəndlik ikinci bir şeiri, "Mövsümlərin gözəli" olan Bahar fəslinin ana Vətənimizə xoşməramlı gəlişi ilə əlaqədar yazılmışdır:

Bahara deyirlər Novruz bayramı,
Ana dilimizə - təzə yaz günü.
Bu sözü əzəldən deyib el hamı,
Səadət gətirən bizə yaz günü.

Bizə hər neməti eyləyən sovqat,
Yuxudan oyanır cümlə nəbatat;
Bollanır, çoxalır, gəlir məhsulat,
Ruzi vrir elimizə yaz günü.

Bağlar bara çatır, bağça gül olur,
Bülbüllərdə şirin nəğmə, dil olur.
Əriyir çöllərin qarı, sel olur,
Suya dönür-baxsa buza yaz günü.

Lüt meşələr don geyinir yarpaqdan,
Nərgiz gülə-gülə çıxır torpaqdan.
Bənövşəni asmaq üçün buxaqdan,
Töhvə verir gəlin-qıza yaz günü.

Aləmin bayramı, xoş gələn bahar,
Cahanın zivəri hamı səndə var.
Hayqırır havada qara buludlar,
Yağış müyəssərdi sizə yaz günü.

Dəhanda dad verir quzuqulağı,
Şehli qərənfili, yarpız yarpağı,
Moruq çiyələyə qarışan çağı,
Dərman olur dərdimizə yaz günü.

Qarışqa dən yığır, arı bal çəkir,
Barama yarpaqdan ipək xal çəkir;
Bu ləzzəti bizim el-mahal çəkir,
Yetişirik çox muraza yaz günü.

Qartal uzaq baxır, kəklik çalır ney,
Qaranquş, sığırçın, bülbül tutur mey.
Quzey al bürünür, bəzənir Güney,
Səndə vardır işrət, məzə, yaz günü.

Taleyin kəskindi, iqbalın yeyin,
Şadlıq bayramını edirik böyün;
Kəkili qabarır şanapipiyin,
Çox gözəl görünür gözə yaz günü.

Çoban şiş təpədə tütək çalanda,
Çiçək dərib sağ əlinə alanda,
Sürülər göy ota çəhlim salanda,
Quzular yayılır düzə yaz günü.

[59] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən", "Sabah" nəşriyyatı,Bakı-2004, s. 129-130

Şəmşirin istəyi, ürəyi sənsən,
Dörd fəslin gözəli-göyçəyi sənsən.
Göyün də, yerin də çiçəyi sənsən,
Layiqsən söhbətə, sözə yaz günü.

**5.** İranın Xurrəmdərə aşıq muhitinin nümayəndəsi Aşıq Gülabəli Davudbəyinin ( Bax: Şəkil № 72), Bahar mövsümü, Novruz bayramı şərəfinə "Mübarək", "Bayram günləri", "Təzələndi" rədifdə, üç fərqli adda şeirlər qoşmuşdur.

**Mübarək**[60]

Ay ellərim sizə gözəl sözüm var,
Təzə bayram, təzə iliz mübarək.
Tarıx döndü, gəldi təzə baharım,
Təzə bayram, təzə iliz mübarək.

Nə qəşəngdi qız-gəlinin payları,
Xoş gələcək yeni ilin ayları.
Coşğun olsun hey suları, çayları,
Təzə bayram, təzə iliz mübarək.

Bu bayram rəsmidir ata-babadan,
Şadlıq səsi gəlir eldən, obadan.
Novruz gülü dərək bağçadan, bağdan,
Təzə bayram, təzə iliz mübarək.

Aşıq Gülab, Xurrəmdərə məkanım,
Gülüstandı, Azərbaycan, İranım.
Nə xoş gəlib, ayım ilim dövranım,
Təzə bayram, təzə iliz mübarək.

**Bayram günləri**[61]

Gəl mənimlə aşna olaq,
Təzə bu bayram günləri.
Bülbül gəlir gülə gonaq,
Təzə bu bayram günləri.

Dağlar boyanır çəmənə,
El sevinir gül, süsənə.
Qoy bir təbrik deyim sənə,
Təzə bu bayram günləri.

Davudiyəm budur sözüm,
Sənə qurban iki gözüm.
Gözəl sənə tarıx yazım,
Təzə bu bayram günləri.

[60] Bax: İlqar İmamverdiyev, "Azerbaycan ve İran Türklerinde Nevruz Etkinlikleri ve Aşıq Şiirinde Nevruz" A.Ü. Türkiyat Araştırmaları Enstitüsü Dergisi (TAED), Sayı 28 Erzurum 2005, S. 231
[61] Bax: İlqar İmamverdiyev, "Azerbaycan ve İran Türklerinde Nevruz Etkinlikleri ve Aşıq Şiirinde Nevruz" A.Ü. Türkiyat Araştırmaları Enstitüsü Dergisi (TAED), Sayı 28 Erzurum 2005, S. 231-232

**Təzələndi**[62]

Gəldi bahar fəsli, şad olsun bülbül,
Zövq alıb rişədən gül təzələndi.
Tamam Türk elində xalqım xoş olsun,
Novruz bayramında il təzələndi.

Zimistan qəhrindən çıxdı bülbüllər,
Tarıx təzələndi xoş gəlsin illər.
İldə bir yol gəlir bu gözəl günlər,
Küsənlər barışdı, dil təzələndi.

Qoyun-quzu gedir çay çəmənlərə,
Novruz gülü çıxıb, geniş çöllərə.
Bayram payı gəlir qız-gəlinlərə,
Günəş şəfəq salıb, tül təzələndi.

Gülab sözlərini yazır sizlərə,
Axır çərşənbədə gülən üzlərə.
Qız-gəlin mayildi göy yarpızlara,
Çöldə yemlik dərəm, əl təzələndi.

**6.** İranın Qaraca bölgəsinin Ərdalan kəndinin ustad sənətkarı, aşıq Ramazanəli Xudabəndilu ( Bax: Şəkil № 73), da Novruz bayramının gəlişi şərəfinə "Mübarək olsun"[63] rədifli şeirilə bahar bayramını poetik misralarla salamlamışdır.

Novruz günü gəldi, sevinir ellər,
Ellər bayramınız mübarək olsun.
Cəh-cəh vurub oxur, şeyda bülbüllər,
Ellər bayramınız mübarək olsun.

Bu əziz bayramda hamı görüşür,
Küsülü, davalı hamı barışır.
Varlı, yoxsul bir-birinə qarışır,
Ellər bayramınız mübarək olsun.

Ramazan, tərif de oğula, qıza,
Gözəl bayram şadlıq gətirib bizə,
Mübarək deyirəm bayramda sizə,
Ellər bayramınız mübarək olsun.

**7.** Mahmudoğlu ləqəbi ilə İranın Xoy, Səlmas, Urmiya, Miyandab, Sulduz şəhərlərində ustad sənətkar kimi tanınan aşıq Mənəf ( Bax: Şəkil № 80), "Deyilib"[64] rədidifli qoşmasında

[62] Bax: İlqar İmamverdiyev, "Azerbaycan ve İran Türklerinde Nevruz Etkinlikleri ve Aşıq Şiirinde Nevruz" A.Ü. Türkiyat Araştırmaları Enstitüsü Dergisi (TAED), Sayı 28, Erzurum- 2005, S. 232

[63] Bax: İlqar İmamverdiyev, "Azerbaycan ve İran Türklerinde Nevruz Etkinlikleri ve Aşıq Şiirinde Nevruz" A.Ü. Türkiyat Araştırmaları Enstitüsü Dergisi (TAED), Sayı 28, Erzurum-2005, S. 232-233

[64] Bax: İlqar İmamverdiyev, "Azerbaycan ve İran Türklerinde Nevruz Etkinlikleri ve Aşıq Şiirinde Nevruz" A.Ü. Türkiyat Araştırmaları Enstitüsü Dergisi (TAED), Sayı 28, Erzurum- 2005, S. 233-234



Şəkil № 80. Mənaf Mahmudoğlu

baharın gəlişi səbəbi ilə 13 günün hər birini poetik misralarla dəyərləndirib vəsv etmişdir:

Bahar fəsli yaz ayları gələndə,
Allahın lütfünə ehsan deyilib.
Mərifət sayılıb ilk bahar günü,
Bir, şanlı büsatlı sultan deyilib.

İkiminci günü hümmət adlanır,
Üçümüncü günü rəhmət dadlanır.
Dördüncüdə qəm otağı odlanır,
Beşiminci bəhr-ürfan deyilib.

Altıncıda gül-çiçəklər açılı,
Yedincidə ətrı xalqa saçılı.
Səkkizində eşq şərbəti içili,
Doqquzuna şöfkəti-şan deyilib.

Mahmudoğlu, hey arzular mövlasın,
On, on birdə Haqq salıbdı sayəsin.
On ikidə bərkid vəhdət payəsin,
Onüçündə çıxıb dolan deyilib.

**8.** İranın Şərqi Azərbaycan mahalının, Miyandab aşıq məktəbinin üstad sənətkarı Hidayət Musaoğlu ( Bax: ŞəkilNo 81), da baharın gəlişini "Gəlibdi Novruz bayramı"[65]



Şəkil № 81. Hidayət Musaoğlu

adlı şeirlə şərəfləndirmişdir:

Ceşin tutup bizim ellər,
Gəlibdi Novruz bayramı.
Nəğmə deyər göncə güllər,
Gəlibdi Novruz bayramı.

[65] Bax: İlqar İmamverdiyev, "Azerbaycan ve İran Türklerinde Nevruz Etkinlikleri ve Aşıq Şiirinde Nevruz" A.Ü. Türkiyat Araştırmaları Enstitüsü Dergisi (TAED), Sayı 28, Erzurum - 2005, S. 235.

Şeyda bülbül gəldi dilə,
Bəzək gəldi bizim çölə,
Xəbər çatsın tamam elə,
Gəlibdi Novruz bayramı.

Səmənilər güzar eylər,
Təbiət sevinər, gülər
Musaoğlu şadlıq söylər,
Gəlibdi Novruz bayramı.

## 7. AZƏRBAYCAN XALQ MUSİQİ İRSİNDƏ BAHAR, NOVRUZ TEMALARI

Yaxın şərq xalqlarının klassik musiqisində özəlliklə də klassik muğam sənətində Novruzla bağlı "Novruz bayatı", "Novruz-büzürg", "Novruz-kiçik", "Novruz-səba", "Novruz-xara" adlı muğam şöbələrinin olduğunu, bəstəkar-muzikoloq alim Əfrasiyab Bədəlbəylinin 1969-cu ildə "Elm" nəşriyyatı tərəfindən Bakıda yayınlatdığı "İzahlı monoqrafiq musiqi lüğəti" adlı kitabının 56-57-ci səhifəsində rast gəlirik. Bu kitabın 68-ci səhifəsində klassik ədəbiyyatda "Tar-novruz" adlı mahnının olduğu bilgisinə də təsadüf edirik. Müəllif bununla yanaşı Azərbaycanın 7 əsas muğamlarından olan "Hümayun" dəstgahında "Zabol" ilə "Bəhr nur" arasında olan şöbənin adının "Novruzu-əcəm", həmin dəstgahın "Rəvəndi"dən gələn bir şöbənin adının "Novruz ərəb", digər bir muğamımız olan "Rast" dəstgahında isə müqəddimə əvəzi olan giriş qisminin adının "Novruz-rəvəndə" olduğunu həmin səhifədə qeyd etmişdir.

Bir zamanlar "Novruzi-ərəbi" ismində qədim aşıq havasının mövcudluğuna dair yeganə qaynağa, 18-ci əsr klassik ədəbi abidəsinin müəllifi olan Məhəmməd adlı şəxsin yazdığı, 1987-ci ildə Bakıda yayınlanmış "Şəhriyar" dastanınının 89-cu səhifəsində də rast gəlirik: *"Bağban küçə ilə gedərkən sazı qoburundan çıxardıb kökləyib, sinəsinə basıb gah "Şahnaz" gah, "Rast" və ya "Novruzi-ərəbi" və s. havalardan oxuya-oxuya gəlib, ozan küçələrindən şəhərə girib sədayi-bülənd ilə gəlirdi".*[66]

Əfrasiyab Bədəlbəylinin bəhs etdiyimiz kitabının 30-cu səhifəsində qədim zərbli muğamlardan birinin adının "Bahar", 66-cı səhifəsində klassik ədəbiyyatda "Səbz-bahar" adlı mahnının olduğunu da bildirmişdir.

Azərbaycan xalq musiqi sənətində "Bahar bayramı", "Yaz bayramı" ilə bağlı, eyni zamanda "Novruz bayramı"na həsr olunmuş çoxsayda örnəklər vardır ki, bu nümunələr məşhur ifaçılarımızın repertuarında yer almaqdadır.

**1.** Bəstəkarı və söz müəllifi anonim olan "Bağçada güllər"[67] adlı qədim xalq mahnısı, Azərbaycanın xalq artisti Qəndab Quliyevanın ( Bax: Şəkil № 82), ifasında[68] lentin



Şəkil № 82.Qəndab Quliyeva

---

[66] Bax: Məhəmməd, "Şəhriyar", Yazıçı nəşriyyatı, Bakı - 1987, s. 87.
[67] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı–2007, S. 61.
[68] Bax: https://www.youtube.com/watch?v=Vx_-3gacVHI

yaddaşına köçürülmüş, həmin musiqini məşhur xanəndəmiz bu gün də uğurla ifa etməkdədirlər. Bu mahnını SSRİ xalq artisti, professor Bülbül Məmmədovun (Bax: Şəkil №



Şəkil № 83. Bülbül Məmmədov

83), ifasında da dinlədiyimiz zaman, nəqərat qismindən yazın gəlişini ifadə edən kəlmələrin yer aldığı bəlli olur. Bahar mövsümünün elimizə, obamıza qədəm basması ilə bülbüllərin xoş avazla ötməsi, cəh-cəh vurub şən nəğmələr oxuması aşağıdakı poetik misrlarlarla belə ifadə olunmuşdur:

Nəqərat
*Bağçada güllər,*
*Oxur bülbüllər.*
*Belə deyirlər,*
*Yenə yaz gəlir.* [69]

**2.** Bəstəkarı və şairi anonim olan və xanəndələrimizin repertuarında qərar almış, xüsusən də Yaqub Məmmədovun (Bax: Şəkil № 84) ifasında səsləndirilmiş "Bəh-bəh"[70] adlı



Şəkil № 84.Yaqub Məmmədov

Azərbaycan xalq mahnısını dinlədiyimiz zaman mətnindən anlaşılır ki, bahar mövsümünə, yazın gəlişinə həsr olunmuşdur. Bu mübarək ayda min-bir rəngli al-əlvan naxışlı çiçəklərin açması ilə baharın gəlişi hiss olunur. İnsanlarda kədərin, dərdin, qəmin azalması, gözəllərin işvəsinin, naz–qəmzələrinin daha da artması, bağ-bağçalarda şeyda bülbüllərin güllərin xoş rayihəli ətrini alaraq şövqlə oxumasını məhz bu xalq mahnısının birinci və üçüncü bəndinin sözlərində açıq-aşkar görürük.

Gül açılanda yaz olur, bəh - bəh, bəh!
Kədərim, qəmim az olur, bəh - bəh, bəh!
Gözəldə işvə-naz olur, bəh - bəh, bəh!
Gəl, gəl, gözəl yar, sevirəm səni!

Bülbül bağlarda səs salır: cəh - cəh, cəh!
Güllərin ətrini alır: bəh - bəh, bəh!
Musiqi səsi ucalır: bəh - bəh, bəh!
Gəl, gəl, gözəl yar, sevirəm səni![71]

---

[69] Bax: İlqar İmamverdiyev, «Azərbaycan rəqs havaları», 1. cilt, "Nurlan" yayınevi, Bakı–2007, S. 9-10
[70] Bax: https://www.youtube.com/watch?v=vraunwdbedA&t=37s
[71] Bax: http://elibrary.bsu.az/kis/1603.pdf S. 156., Mikrosof Word – El chelengi.doc S. 79., Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 80.

**3.** Durnaların Vətənə qayıdışı və qaranquşların geri dönüşü səbəbi ilə baharın, yazın gəlişinin ilk müjdəçisi olduğunu hər kəs bilməkdədir. Musiqisi və söz yazarı bilinməyən “Gül açdı”[72] adlı Azərbaycan xalq mahnısının mətninə nəzər saldığımızda gülün, çiçəyin açmasının bahar mövsümünün gəlişinə səbəb olduğunu görürük. Azərbaycanın istedadlı xanəndəsi Səxavət Məmmədovun ( Bax: Şəkil № 85 ), ifasında “Gül açdı”[73] adlı bu xalq mahnısının



Şəkil № 85. Səxavət Məmmədov

birinci bəndinin ilk misrasında da elimizə-obamıza baharın qədəm qoyması bu poetik misrada ifadə olunmuşdur. İfa zamanı o da anlaşılır ki, gülün açılması ilə baharın yazın budəfəki gəlişi yarın-yara qovuşması ilə deyil, təəssüf ki, anlaşılmazlıq üzündən aşiqin sevgilisindən ayrı düşməsi ilə nəticələnmişdir:

Gül açdı bahar oldu,
Yar məndən kənar oldu.
Yar məndən ayrılalı,
Ürəyim qubar oldu.

Azərbaycanın Respublikasının xalq artisti Qədir Rüstəmov (Bax: Şəkil № 86), isə ilk bəndi digər bir variantda, bu sözlərlə oxumuşdur:



Şəkil № 86. Qədir Rüstəmov

Gül açdı xəndan[74] oldu,
Açıldı dən-dən oldu.
Mən səndən ayrılmazdım,
Ayrılıq səndən oldu.[75]

Azərbaycanın əməkdar artisti Nuriyyə Hüseynova (Bax:Şəkil № 87), həmin beyti bu variantda oxumuşdur:

---

[72] Bax: http://elibrary.bsu.az/kis/1603.pdf S. 156, Mikrosof Word – El chelengi.doc S. 79., Rafiq Babayev, “Min bir mahnı” VI nəşr, “Min bir mahnı” yayınevi, Bakı - 2007, S. 221.
[73] Bax: https://www.youtube.com/watch?v=E6FddagcjCs
[74] Xəndan- şən, üzügülər, gülün tam açılmış şəkli.
[75] Bax: https://www.youtube.com/watch?v=c5uCcLL194M



Şəkil № 87. Nuriyyə Hüseynova

Mən yardan ayrılmazım,
Ayrılıq yardan oldu.[76]

Azərbaycanın xalq artisti Nəzakət Teymurova ( Bax: Şəkil № 88), digər müğənnilərdən fərqli olaraq 3-cü və 4-cü misranı aşağıdakı variantda ifa etmişdir:



Şəkil № 88. Nəzakət Teymurova

Mən yardan ayrılalı,
Halım yaman oldu.[77]

**4.** Sözü və musiqisi anonim olan "Sarı bülbül" [78] adlı xalq mahnısının 3-cü bəndində yazın-baharın gəlişi, təbiətin qış yuxusundan oyanması səbəbi ilə yaylaqların, çöllərin, yaşıl örpəyə bələnməsi, rəngarəng gül-çiçəklərin şeyda bülbülləri vəcdə gətirərək daha da çoşdurması, bu poetik misralarla necə də gözəl ifadə olunmuşdur:

Geymiş donun yaşıl çöllər,
Həvəsindən açır güllər.
Töküb şirin-şirin dillər,
Gəl oyadaq, yarı bülbül,
Sarı bülbül, sarı bülbül.

**5.** Musiqisi və sözü anonim olan, "Bülbüllər oxur"[79] adlı xalq mahnısını, Azərbaycanın xalq artisti Ağaxan Abdullayevin (Bax: Şəkil № 89), ifasında dinlədiyimizdə, ilk bəndin ilk,



Şəkil № 89. Ağaxan Abdullayev

misrasından baharın gəlişi səbəbi ilə gülşəndə bülbüllərin şahanə səslərlə ötüşməsi bu poetik misralarla öz əksini tapmışdır:

---

[76] Bax: https://www.youtube.com/watch?v=uGQxv_eqDnU
[77] Bax: https://www.youtube.com/watch?v=LgzeeY1Krzk
[78] Bax: http://elibrary.bsu.az/kis/1603.pdf S. 147., Mikrosof Word – El chelengi.doc S. 74.
[79] Bax: İlqar İmamverdiyev, «Azərbaycan rəqs havaları», 1. cilt, "Nurlan" yayınevi, Bakı–2007, S. 59-60

Bülbüllər oxur,
Cəh-cəh vurur,
Bağda gül üstə.

## 8. AZƏRBAYCAN BƏSTƏKARLARLARININ YARADICILIĞINDA NOVRUZ VƏ BAHAR MOTİVLƏRİ

Məşhur bəstəkarlarımızın bahar bayramı ilə bağlı yaratdıqları çoxsayda musiqi əsərlərini, tanınmış müğənnilərimiz əsasən Novruz bayramında çalıb oxuyaraq xalqımıza mənəvi - estetik zövq vermiş, bu müqəddəs xidmətlərini bu gün də cani - dildən davam etdirməkdədirlər. Yeri gəlmişkən onu da qeyd etməliyik ki, Azərbaycanın xalq artisti, professor Vasif Adıgözəlov (Bax: Şəkil № 90), Baharın gəlişi, Novruz bayramının şərəfinə "Novruzum"[80] adlı kantatasını bəsdələmişdir.



Şəkil № 90. Vasif Adıgözəlov

Professional bəstəkarlarımızın Novruz, Bahar mövzusuna həsr etdiyi əsərlərin sayı çoxdur:

**1.** Azərbaycan Respublikasının xalq artisti Tofiq Quliyevin ( Bax: Şəkil № 91), Zeynal Cabbarzadənin ( Bax: Şəkil № 92 ) şeirinə bəsdələdiyi "İlk bahar"[81] adlı musiqisini Azərbaycanın xalq artisti Şövkət Ələkbərovanın (Bax: Şəkil № 70) professional ifasında,



Şəkil № 91.Tofiq Quliyev



Şəkil № 92.Zeynal Cabbarzadə

mətnin birinci bəndində ilk baharın gəlişi, ikinci bənddə isə yaz fəslində təbiətin gözəllik libasına bürünməsi, əlvan rəngli xoş ətirli güllərin açılması, dağ çiçəklərinin qızlarımızın telinə taxılması səbəbi ilə onlara necə gözəl yaraşdığı, gözəlliklərinə yeni bir gözəllik gətirməsi bu poetik misralarla ifadə olunmuşdur:

a. Yenə gəldi ilk bahar, yaz gülə-gülə,
   Bu qədər gəl etmə yar, naz gülə-gülə.
b. Açılıb hər yan çiçək, bax gözəl, gözəl,
   Telinə əlvan çiçək, tax gözəl, gözəl.

[80] Bax: https://sozmusiqi.wordpress.com/az/dance/
[81] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı-2007, S. 261

**2.** Azərbaycan Respublikasının xalq artisti Cahangir Cahangirovun (Bax: Şəkil № 93), şair Ənvər Əlibəylinin ( Bax: Şəkil № 78), "Bahar nəğməsi" [82] adlı şeirinə bəsdələdiyi musiqinin mətni bahar bayramına, yaz fəslinin gəlişinə həsr edilmişdir:



Şəkil № 93. Cahangir Cahangirov

Dəyişir donunu meşə, dağ, dərə,
Al-əlvan geyinib, hər dərə, hər dağ.

Nəqərat
*Çöllərdə görünür başqa mənzərə,*
*Oxuyur bağlarda şur ilə bülbül.*
*Bağçada gül açır, yenə yaz gəlir,*
*Hər yana baxırsan, xoş avaz gəlir.*

Titrəsin zəmilər dəryalar kimi,
Vurulsun tayalar, qayalar kimi.

**3.** Azərbaycan Respublikasının xalq artisti Fikrət Əmirovun ( Bax: Şəkil № 94), Teymur Elçinin (Bax: Şəkil № 26) sözlərinə bəsdələdiyi və Azərbaycanın xalq artisti İlhamə Quliyevanın ( Bax: Şəkil № 95) ifasında dinlədiyimiz "Gülür ellər"[83] adlı musiqinin mətninə





Şəkil № 94. Fikrət Əmirov Şəkil № 95. İlhamə Quliyeva

nəzər saldığımız zaman, baharın gəlişinə həsr olunduğu anlaşılır:

Bayram gəlib elimə, elimizə,
Nəğmə düşüb dilimə, dilimizə.

Nəqərat
*Könül gülür, elim gülür?,*
*Gülür gözəl diyarım.*
*Çalır tarım, çalır sazım,*
*Gülür ellər gülür, Azərbaycan gülür.*

Hər yan gül-çiçək, gül-çiçək,
Əlvan gül-çiçək, gül-çiçək.
Zəhmət çəkib hünərlə, min-min əllər,
Xonça tutub el üçün qız gəlinlər.

**4.** Azərbaycanın əməkdar incəsənət xadimi, Qənbər Hüseynlinin (Bax: Şəkil № 96), Azərbaycan Respublikasının xalq şairi Hüseyn Arifin ( Bax: Şəkil № 97) "Bahar xoş gəlir[84]"

---

[82] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 65.
[83] Bax: https://www.youtube.com/watch?v=OBgQ1rs5r10





Şəkil № 96. Qənbər Hüseynli Şəkil № 97. Hüseyn Arif

rədifli şeirinə bəsdələdiyi musiqinin mətni də bahar bayramına həsr edilmişdir:

Nə gözəl ay gəlir, yaz gəlir, yay gəlir.
Qaynayır bulaqlar, gəl, gəl ay bahar!
Yamaclar gəl deyir, qız-gəlin al geyir,
Yel vurur, yellənir, könül dillənir.
Nəqərat.
*Qonaq gəlir ay, illər sevinsin,*
*Coşsun ürək, nəğmə deyək, dillər sevinsin.*
*Ey yaşıl bağlarım, qoca dağlarım!*
*Ey ata torpağım, ana diyarım!*
*Ey səhər, ey Günəş, tez parlayın bir,*
*Elimin-günümün baharı gəlir!*

**5.** Azərbaycan Respublikasının xalq artisti, Səid Rüstəmovun (Bax: Şəkil № 23), Azərbaycanın xalq şairi Hüseyn Arifin (Bax: Şəkil № 97) "Şeir deyilmi?!"[85] rədifli sözünə bəsdələdiyi lirik musiqini, Azərbaycan Respublikasının xalq artisti Gülağa Məmmədovun[86] (Bax: Şəkil № 98) ifasından dinlədiyimiz zaman mövzunun baharın gəlişindən bəhs edildiyi anlaşılır.



Şəkil № 98. Gülağa Məmmədov

Şair bu şeiri ilə baharın gülər üzünün, yazın nemətlərini gözümüz önündə poetik misralarla canlandırır:

Məndən təzə şeir xəbər alan dost,
Bəs yazın gəlməsi şeir deyimi?!
Çıxanda gəzməyə çölün, çəmənin,
Üzünə gülməsi şeir deyilmi?!

Yenə gözüm qalıb bağçada, bağda,
Min-min gül açılıb aranda, dağda.
Eyvana əyilən çarpaz budaqda,
Bülbülün nəğməsi şeir deyilmi?!

---

[84] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 65.
[85] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 485.
[86] Bax: https://www.youtube.com/watch?v=DNaA8MlD7dU

Dərədə moruq dər, döşdə çiyələk,
Gah yağış xoş gəlir, gah sərin külək.
Yaş ötür, doymayır dünyadan ürək,
Yaşamaq həvəsi şeir deyilmi?!

Kim deyir şeirin meydanı dardır?
Sonu görünməyən o bir bahardır!
Neçə ki, həyat var, şeir də vardır,
Həyatın nəfəsi şeir deyilmi?!

**6.** Azərbaycan Respublikasının xalq artisti Musa Mirzəyevin ( Bax: Şəkil № 99), şair Gəray Fəzlinin (Bax: Şəkil № 100), şeirinə bəsdələdiyi "Bağçada gül"[87] adlı


Şəkil № 99.Musa Mirzəyev


Şəkil № 100.Gəray Fəzli

mahnısının nəqarat hissəsində də baharın gəlişi səbəbi ilə ormanlarımızın yaşıl örpəyə, dağlarımızın, səfalı yaylaqlarımızın əlvan rəngli çiçəklərə bürünməsi, bağça - bağlarımızda xoş rayihəli güllərin açması, bu mövsümdə şeyda bülbüllərin şən nəğmələr oxuması aşağıdakı poetik misralarla belə ifadə olunmuşdir:

Bağçalar gül açır,
Bülbüllər dil açır.
Geyinir al-əlvan,
Bəh-bəh nə gözəl olur.

**7.** Respublikamızın xalq artisti Oqtay Kazımi (Bax: Şəkil № 101), Bahar bayramı ilə bağlı fərqli illərdə bir çox şairlərin sözlərinə "Böyük bayram", "Bayramınız mübarək", "Bayram olsun", "Bahar çağı", "Bahar təranəsi", "Bakının baharı" adlı mahnılar bəsdələmişdir. Onlardan biri də Azərbaycanın əməkdar incəsənət xadimi Ramiz Heydərin ( Bax: Şəkil № 102), "Bahar bayramı"[88] rədifli şeirinə bəsdələdiyi mahnıdır. Musinqini


Şəkil № 101.Oqtay Kazımi


Şəkil № 102.Ramız Heydər

mətnindən bu əsərin "Novruz bayramı"na həsr olunduğu anlaşılır. Bayram axşamı tonqalların qalanması, hər bir evdə şamların alışdırılması, süfrələrin müxtəlif şirnilərlə: paxlava, şəkərbura, çərəzlərlə bəzədilməsi, nimçələrdə səmənilərin göyərdilməsi poetik misralarda öz əksini tapmışdır:

[87] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı-2007, S. 61
[88] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 64.

Gör nə xoş gün gəlir,
Gör nə xoş ay gəlir.
Tonqallar qalanır,
Evlərə pay gəlir.
Çərəzlər, şirnilər,
Bəzəyir süfrəni,
Boylanır nimçədə,
Yamyaşıl səməni.
Bu bayram axşamı.

Evlərdə şam yanır.
Qırmızı, çəhrayı,
Şəfəqdə boyanır.
Geyinir, bəzənir,
Cavanlar, gəlinlər.
Bu evdən o evə
Hey qonaq gəlirlər.

Gəl, ay bahar bayramım,
Yaz bayramım gəl, gəl.
Sən baharım mənim,
Arzularım mənim.
Yolunu gözlərəm,
Baharım, gəl.

**8.** Azərbaycanın Respublikasının xalq artisti Ramiz Mirişlinin (Bax: Şəkil № 103), xalq şairimiz Fikrət Qocanın (Bax: Şəkil № 15) "Bahar nəğməsi"[89] adlı şeirinə bəsdələdiyi



Şəkil № 103. Ramiz Mirişli

musiqinin mətni də yazın gəlişindən, bahar mövsümündən bəhs edir:

Gələndə bahar güllər açar,
Çiçəklənər çəmən, dağ.
Ötər quşlar, qaranquşlar,
Yaşıl geyər, bağça, bağ.

Nəqərat.
*Gəldi bahar, gəldi bahar,*
*Üzə güldü arzular.*
*Günəş yandı göydə par-par.*
*Çiçəkləndi heyva, nar.*

Gəldi, yar baharım,
Güldü, yar baharım.
Qəlbimdən keçəni,
Duydu, yar, baharım.
Özün baharsan sən də, yar.

[89] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 66.

Səhər yelləri, öpər gülləri,
Üzə, yanağa düşər şehləri.
Qayıdar quşlar, qaranquşlar,
Atlas geyər ağaclar.

**9.** Respublikasının xalq artisti Ramiz Mirişlinin (Bax: Şəkil № 103 ), Azərbaycanın xalq şairi Fikrət Qocanın (Bax: Şəkil № 15), "Bayram axşamlarında"[90] adlı ikinci bir şeirinə bəsdələdiyi musiqinin mətni də yazın gəlişindən xəbər verən novruz bayramına həsr edilmişdir:

Yollar əlvan boyanar,
Evlərdə arzu yanar.
Gözlərə sevinc qonar,
Bayram axşamlarında.

Nəqərat
*Nəğmə olur dalğalar,*
*Qış dönüb olar bahar.*
*Göydən məhəbbət yağar,*
*Bayram axşamlarında.*

Görməzsən yalqızları,
Al geyər el qızları.
Lalə kimi qızarar
Bayram axşamlarında.

Nəqərat
*Hər tərəf işıq olur,*
*Başqa yaraşıq olur.*
*Göy yerə aşiq olur,*
*Bayram axşamlarında.*

**10.** Müəllifi məlum olmayan bir şairin sözünə Tofiq Əhmədovun (Bax: Şəkil № 104),



Şəkil № 104.Tofiq Əhmədov

bəsdələdiyi "Bahar"[91]adlı musiqinin nəqərat hissəsində də baharın gəlişi ilə, quşların bahar mövsümünə məftuncasına gözəl nəğmələr oxumasını belə bir poetik misralarla ifadə etmişdir.

Ey əbədi bir xalqın arzusu, kamı,
Bizim şair xalqın çoşğun ilhamı.
Baharı duyan quşlar,
Nəğmə oxuyan quşlar.
Vurulub əyyamına, bayramına.

[90] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 66.
[91] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 63.

**11.** Tofiq Əhmədovun (Bax: Şəkil № 104), şair Rəfiq Zəkanın (Bax: Şəkil № 105) şeirinə bəsdələdiyi “Bayram mahnısı”[92] adlı musiqinin mətninə nəzər saldığımızda, adından



Şəkil № 105. Rəfiq Zəka

da anlaşıldığı kimi bahar bayramına həsr edildiyinə şübhə qalmır. Bu gözəl fəslin illərin, güllərin, çöllərin, əllərin, ellərin bayramı olmasını şair poetik misra ilə belə ifadə etmişdir:

Od ürəkli diyarın,
Üzə gülən baharın.
Gələn xoşbəxt ayların,
İllərin bayramıdır.

Nəqərat
*Bol bəhrəli düzlərin,*
*Çöllərin bayramıdır.*
*Günəşli gündüzlərin,*
*Güllərin bayramıdır.*

Vətən torpağı gülsün,
Ömrümüz bəxtəvər, şən.
Xoş diləklə birləşən,
Əllərin bayramıdır.

Nəqərat
*Zəhmət çəkib bar dərən,*
*Firəvan günlər görər.*
*Sabaha könül verən,*
*Ellərin bayramıdır.*

**12.** Bəxtiyar Kərimovun (Bax: Şəkil № 106), Azərbaycan Respublikasının xalq şairi Nəriman Həsənzadənin ( Bax: Şəkil № 107) “Bahar Nəğməsi” adlı sözlərinə bəsdələdiyi



Şəkil № 106. Bəxtiyar Kərimov



Şəkil № 107. Nəriman Həsənzadə

musiqinin mətninə diqqət yetirdiyimizdə, mövzunun məhz bahar mövsümündən bəhs edildiyi anlaşılır:

Bahar yelləri əsin, hər səhər!
Yayılsın elə bizim nəğmələr.
Pıçıldaşın siz, yaşıl yarpaqlar!
Sizin də öz diliniz var.

---

[92] Bax: Rafiq Babayev, “Min bir mahnı” VI nəşr, “Min bir mahnı” yayınevi, Bakı - 2007, S. 78.

Nəqərat

*Sevinsin ürəklər, çəməndə çiçəklər,*
*Gül açsın arzular, istəklər.*
*Qovuşsun daim ürək-ürəyə,*
*Külək mahnıya, mahnı küləyə.*
*Arzu-arzuya, gülüş sevincə,*
*Söhbət olsun incə-incə.*

Hər bulağın öz zümzüməsi var,
Hər körpə quşun öz nəğməsi var.
Uçsun körpə quş, çağlasın bulaq,
Nəğməmizi bir oxuyaq.

Nəqərat

*Bu ellər oxusun, bülbüllər oxusun,*
*Nəğməli ürəklər oxusun.*

**13.** Azərbaycanın xalq artisti Emin Sabitoğlunun (Bax: Şəkil № 108), Azərbaycanın əməkdar incəsənət xadimi Ramiz Heydərin (Bax: Şəkil № 102), "Baharların sayı qədər"[93]



Şəkil № 108. Emin Sabitoğlu

adlı şerinə bəsdələdiyi musiqinin mətnindən bahar bayramının vəsvinə həsr olunduğu anlaşılır:

Ömrümdə, gör, neçə bahar yola salmışam,
Hər bahara sevinmişəm, ilham sanmışam.

Gül-çiçəkli, təravətli mayım olubdur,
Bahar – sevinc, bahar sevgi ayım olubdur.

Bəzəyibdir gələn bahar çölü, çəməni,
Qarşıda, gör, neçə bahar gözləyir məni…

Ürəyimdə yaz duyğusu, təravəti var,
Baharların sayı qədər məhəbbətim var.

**14.** Cavanşir Quliyevin (Bax: Şəkil № 109), şair Ramiz Rövşənin (Bax: Şəkil № 110) "Novruz" rədifli şeirinə bəsdələdiyi şən, şux musiqi tamamilə "Novruz bayramı"na aiddir. İlk dəfə Azərbaycan Respublikasının xalq artisti Brilliant Dadaşovanın (Bax: Şəkil № 111)



Şəkil № 109. Cavanşir Quliyev



Şəkil № 110. Ramiz Rövşən



Şəkil № 111.Brilliant Dadaşova

[93] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 66.

ifasında dinlədiyimiz bu musiqinin mətninə diqqət etdiyimiz zaman, yaz bayramının ölkəmizə qədəm qoyması münasibəti ilə, buzların əriyib selə dönməsi, çöllərin, dağ - dərələrin müxtəlif bitkilərlə, cücərmiş otlarla yamyaşıl libasını geyməsi, quzuqulağın, kəklik otunun, yemliyin bitməsi, gülün qönçəsinin açıldığı, bülbülə yeni bir avaz gəldiyi, məcazi mənada "Novruz bayramı"nın bir əlində müxtəlif çeşidli şirniyyatlarla bəzədilmiş xonça, digər əlində isə sədəfli saz tutması, Kosanın boyanmış yumurtaları torbasına doldurması, Keçəlin öz başını yağlayıb dəsmalla bağlaması, yağışın yağması, bir sözlə bu gözəl bayramı birlikdə əl çalaraq alqışlamasını bu poetik misralarla duyuruq:

Novruz gəlir, yaz gəlir,
Bir əlində saz gəlir.
Bir əlində xonçası,
Açıb gülün qönçəsi.

Nəqərat
*Bülbülə avaz gəlir,*
*Novruz gəlir, yaz gəlir.*
Kosa sən də gəlsənə,
Gəlib salam versənə.
O torbanı ver görək,
Yumurtalar rəngbərəng.

Novruza bax, yaza bax,
Bir əriyən buza bax.
Sellər axır şırhaşır,
Çöllər olur yamyaşıl,
Ot bitər, yemlik bitər,
Keçəl başda tük bitər.

Keçəl başın yağlasın,
Dəsmal verin bağlasın.
Rəqs eyləyək, oynayaq,
Çırtıq çalaq, şadlanaq,
Əl çalaq, alqışlayaq,
Bu məclisi başlayaq.[94]

**15.** Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, bəstəkar Mehriban Əhmədovanın ( Bax: Şəkil № 112), xalq şairimiz Fikrət Qocanın (Bax: Şəkil № 15),



Şəkil № 112. Mehriban Əhmədova

"Bahar nəğməsi"[95] adlı şeirinə bəsdələdiyi musiqini, Azərbaycanın xalq artisti Şövkət Ələkbərovanın (Bax: Şəkil № 70), ifasından dinlədiyimiz zaman[96], mətndən anlaşılır ki, mövzu yazın gəlişindən, bahar mövsümündən bəhs edir:

---

[94] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 390 - 391.
[95] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 63.

Çöllərə güllər yağıbdır,
Güllərə qızlar baxıbdır.
Çöllərə güllər yaraşır, güllərə çöllər,
Əllərə  güllər yaraşır, güllərə əllər.

Nəqərat:
*Bahardır, çaylar daşır, nəğmələr qoşur,*
*Yapraqlar pıçıldaşır, nəğmələr qoşur.*
*Ellərə bahar gəlibdir, laləli bahar,*
*Çöllərə günəş gülübdür, bəzənib çöllər.*

Çöllərə qızlar çıxıbdır, nəğməli qızlar,
Qızlara gözlər baxıbdır, sevimli gözlər.
Bahara biz yaraşırıq, bahar bizlərə,
Həmişə bahar yaraşır, gülər üzlərə.

**16.** Respublikasının əməkdar incəsənət xadimi Mehriban Əhmədova ( Bax: Şəkil № 112), Azərbaycanın xalq şairi Fikrət Qocanın (Bax: Şəkil № 15), "Bayram nəğməsi"[97] adlı digər bir şeirinə, ikinci bir bəsdə də yazmışdır. Bu mahnının Bahar bayramına həsr edildiyi şeirin adından və musiqinin  mətnindən anlaşılır:

Bu gün şən bayramıdır ellərin,
Lalələr bayrağıdır güllərin.
Çöllərdən gül yığağın, dostlarım,
Çalağın, oynayağın dostlarım.

Nəqərat
*Bayramlar çox yaraşır bizlərə,*
*Bayramda nəğmə yağır düzlərə.*
*Alışan gözlərə bax, gözlərə,*
*Oynamaq çox yaraşır qızlara.*

Bu gün şən bayramıdır ellərin,
Lalələr bayrağıdır güllərin.

Səsimiz hər tərəfi bəzəsin,
Gülüşlər çiçəklərə bənzəsiin.
Bu gün şən bayramıdır ellərin,
Lalələr bayrağıdır güllərin.

Ulduzlar fişənglərin kölgəsi,
Yurdumuz işıqların ölkəsi.
Bu gün şən bayramıdır ellərin,
Lalələr bayrağıdır güllərin.

**17.** Vaqif Süleymanovun ( Bax: Şəkil № 113), şair Abil İslamın (Bax: Şəkil № 114) "Yenə yaz gəlir" [98] rədifli şeirinə bəsdələdiyi musiqinin adından və mətnindən bahar fəslinə həsr edildiyi, Nərgiz Mehdiyeva (Bax: Şəkil № 115) adlı müğənninin ifasından dinlədiyimiz zaman aydın olur:

---

[96]Bax: http://meneviservetimiz.az/az/2012-05-27-06-30-20/mahn% C4%B1lar/b%C9%99st%C9%99kar-mahn%C4%B1lar%C4%B1/ item/2075-bahar-n%C9%99%C4%9Fm%C9%99si
[97] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 78.
[98] Bax: https://www.youtube.com/watch?v=sPKFv1w-HSA



Şəkil № 113.Vaqif Süleymanov



Şəkil № 114.Abil İslam



Şəkil № 115. Nərgiz Mehdiyeva

Yamyaşıl geyinib meşələr, bağlar,
Atır ağ kürkünü çiynindən dağlar.
Çox gözəl görünür, bizim bu çağlar,
Ana təbiətə yenə yaz gəlir.

Təzə-tər boynunu bükür bənövşə,
Baxır həsrət ilə, çıxan günəşə.
Əvvəl qaranquşlar deyər həmişə,
Ana təbiətə yenə yaz gəlir.

Qartallar qıy vurur, dağlar başında,
Qızlar dövrə vurur, bulaq qaşında.
Elçilər oturur elçi daşında,
Ana təbiətə yenə yaz gəlir.

**18.** Azərbaycanın Respublikasının xalq artisti Nəriman Əzimovun ( Bax: Şəkil № 116), müəllifi anonim olan bir şairin "Yeni il"[99] adlı şeirinə bəsdələdiyi mahnının mətnindən, bu



Şəkil № 116. Nəriman Əzimov

musiqinin bahar mövsümünə, yazın gəlişinə həsr edildiyi anlaşılır:

Dünyanın məhəbbət qanadlarında,
Çiçəklər al-əlvan, güllər, təzə-tər.
Ürək arzusunun qanadlarında,
Hər evə bir sevinc, bir şadlıq gələr.

Nəqərat:
*Döyər qapıları, pəncərələri,*
*Sevinc fərəhindir, nərgizə bənzər.*
*Bu şənlik, bu fərəh bürüyər yeri,*
*Fərəhli gözlərə açılan səhər.*

Çiçək xonçasını gətirər bahar,
Təbiətin gözəl qızına bənzər.
Nə qədər ömür var, nə qədər il var,
Hər evə bir sevinc, bir şadlıq gələr.

---

[99] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 561.

**19.** Azərbaycan Respublikasının xalq artisti Oqtay Rəcəbovun (Bax: Şəkil № 117), şair Nüsrət Kəsəmənlinin (Bax: Şəkil № 118), "Zəfəran"[100] adlı şeirinə bəsdələdiyi musiqini, Azərbaycanın xalq artisti Mirzə Babayevin (Bax: Şəkil № 119) ifasından[101] dinlədiyimiz



Şəkil № 117. Oqtay Rəcəbov



Şəkil № 118. Nüsrət Kəsəmənli



Şəkil № 119. Mirzə Babayev

zaman musiqinin mətnindən, Novruz bayramının önəmli atribututlarından, qoğalımıza, paxlavamıza, şəkərburamıza, halvamıza, müxtəlif təamlı ləziz aşımıza qızılı rəng verən "Zəfəran" çiçəyinə həsr olunduğu anlaşılır:

Süfrələrin bəzəyi,
Şəfəqdəndir ləçəyi.
Çöllərin zərif qızı,
Güllərin dan ulduzu.
Açılmış süfrələrdə,
Yerin görünür hər an,
Zəfəran, ay zəfəran.

Nəqərat:
*Günəşin günə dönmüş atəşisən, odusan,*
*Paxlavanın, halvanın naxışısan, dadısan.*
*Ləzzətisən xörəyin, ətirisən çörəyin,*
*Zəfəran, ay zəfəran.*

Ətrində bahar yanar, aş üstündə yerin var,
Qız-gəlinin əlində tamın bir az da artar.
Səni harda itirsəm, toy evində taparam,
Zəfəran, ay zəfəran.

## 9. BƏSTƏKARLARIMIZIN, ŞAİRLƏRİMİZİN UŞAQLAR ÜÇÜN YAZDIĞI ƏSƏRLƏRDƏ BAHAR BAYRAMI MÖVZUSU VƏ NOVRUZ MOTİVLƏRİ

Bir çox bəstəkarlarımızın yaradıcılığına nəzər saldıımızda "Bahar bayramı"na eyni zamanda "Novruz bayramı"na həsr edilmiş uşaq mahnılarına da rast gəlirik. Azərbaycanın xalq artistləri Fikrət Əmirovun, (Bax: Şəkil № 94), Səid Rüstəmovun (Bax: Şəkil № 23), Oqtay Rəcəbovun (Bax: Şəkil № 117), Oqtay Zülfüqarovun (Bax: Şəkil № 24) və Azərbaycanın əməkdar incəsənət xadimləri Ağabacı Rzayevanın (Bax: Şəkil № 120), Əfsər Cavanşirovun (Bax: Şəkil № 17), Rəşid Şəfəqin ( Bax: Şəkil № 121), Hökümə Nəcəfovanın ( Bax: Şəkil № 122), bu mövzudakı çalışmalarını və xidmətlərini xüsusilə qeyd etməliyik.

[100] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 568.
[101] Bax: https://www.youtube.com/watch?v=t91YBuLP6Dw


Şəkil № 120. Ağabacı Rzayeva


Şəkil № 121. Rəşid Şəfəq


Şəkil № 122.Hökümə Nəcəfova

**1.** Azərbaycan uşaq ədəbiyyatının banisi, əməkdar incəsənət xadimi Abdulla Şaiqin (Bax: Şəkil № 123) "Bənövşə"[102] adlı şeirinə Azərbaycan Respublikasının xalq artisti Səid Rüstəmovun (Bax:Şəkil № 23) uşaqlarımız üçün bəsdələdiyi eyni adlı,şən-şux ovqatlı musiqi-


Şəkil № 123. Abdulla Şaiq

sinin mətnindən, bahar fəslinin ab - havasını duyuruq. (Bax: Əlavələr bölümü, səh. 127 - 128)

Bənövşəyəm, bənövşə,
Düşmüşəm dilə-dişə;
Məni qızlar, oğlanlar,
Dərib taxarlar döşə.

Bahar oldu açaram,
Qar, borandan qaçaram;
Başqa güllər açanda,
Mən quş olub uçaram.

Nəqərat
*Bənövşəyəm, bənövşə,*
*Düşmüşəm dilə-dişə;*
*Məni qızlar, oğlanlar*
*Dərib taxarlar döşə.*

Qurudar məni ayaz,
Yaşayıram bircə yaz.
Rəngim, ətrim gözəldir,
Əl vurmayın, ömrüm az.

**2.** SSRİ xalq artisti Soltan Hacıbəyovun (Bax: əkil № 124) Mirmehdi Seyidzadənin (Bax: Şəkil № 125) "Bənövşə"[103] rədifli şeirinə yazdığı musiqi töhvəsi uşaqlarımız üçün

---

[102] Bax: http://meneviservetimiz.az/az/2012-05-27-06-30-20/mahn %C4%B1lar/az%C9%99rbaycan-b% C9 %99st%C9%99 karlar% C4%B1n%C4%B1n-u%C5%9Faq-mahn%C4%B1lar% C4%B1/ item/329-b%C9 %99n%C3%B6v%C5%9F%C9%99

[103] Bax: https://sozmusiqi.wordpress.com/az/composer/soltan-hacibeyov/benovse/



Şəkil № 124. Soltan Hacıbəyov



Şəkil № 125. Mirmehdi Seyidzadə

nəzərdə tutulmuşdur. Mətnindən bu sözün Bahar fəslinin ilk çiçəyi olan Bənövşəyə ərməğan edildiyi anlaşılır:

Yazda açırsan,
Ətir saçırsan,
Yerin – bağ, meşə
Gözəl bənövşə!..

Zərif ətrin var
Sənin, bənövşə,
Sevir uşaqlar
Səni həmişə…

**3.** Şair Teymur Elçinin (Bax: Şəkil № 26) "Gəl bahar" [104] adlı şeirinə, Azərbaycan Respublikasının xalq artisti Oqtay Zülfüqarovun (Bax: Şəkil № 24) bəsdələdiyi şən ovqatlı uşaq mahnısının sözlərindən bu musiqinin bahar fəslinə aid olduğu anlaşılır: (Bax: Əlavələr bölümü, səh. 129 - 131)

Gözəl bahar, gözəl bahar,
Bağçamıza tez gəl bahar.

Nəqərat:
*Çətir-çətir, güllər gətir.*
*Otaqlara, dolsun ətir.*
*Sənsən əziz, sən nəğməmiz,*
*Gözləyirik yolunu biz.*

Gözəl bahar, gözəl bahar,
Bağçamıza dincəl bahar.

**4.** Şair Teymur Elçinin (Bax: Şəkil № 26) "Səməni" [105] rədifli şeirinə, Azərbaycanın xalq artisti Oqtay Zülfüqarovun (Bax: Şəkil № 24) bəsdələdiyi şən - şux əhval-ruhiyyəli ikinci bir uşaq mahnısının, mətnindən bu musiqinin Novruz bayramının önəmli atributu "Səməni"yə aid olduğu anlaşılır: (Bax: Əlavələr bölümü, səh. 132 - 133)

Səməni, səməni, ay səməni.

Nəqərat:
*Gətirmisən göy çəməni*
*Evimizə sən, səməni.*
*Göy çəməni, sən, səməni.*

Səməni, səməni, ay səməni.

---

[104] Bax:http://meneviservetimiz.az/az/2012-05-27-06-30-20/ mahn % C4%B1lar/az%C9%99rbaycanb %C9 % 99st%C9%99karlar%C4%B1n%C4%B1n-u%C5%9Faq mahn% C4%B1lar %C4% B1/ item /720-g%C3 %B 6z%C9%99l-bahar

[105] Bax: http://meneviservetimiz.az/az/2012-05-27-06-30-31/poeziya /az%C9%99rbaycan-poeziyas%C4%B1/ itemlist/category/178-oqtay-z%C3%BClf%C3%BCqarov

Nəqərat:

*Gətirmisən sən bahardan*
*Evimizə pay, səməni.*
*Göy çəməni, sən, səməni.*

**5.** Azərbaycan Respublikasının xalq artisti Fikrət Əmirovun (Bax: Şəkil № 94), istedadlı şairimiz Zeynal Cabbarzadənin (Bax: Şəkil № 92) "Bahar gəlir"[106] rədifli şeirinə bəsdələdiyi uşaq mahnısının mətnindən, bahar fəslinin gəlişi bu petik misralarla verilmişdir:

Axar sular aşır, daşır,
Dağ dərələr yaşıllaşır.
Sevincimiz həddən aşır,
Ay uşaqlar, xoş bahar gəlir.

Dağda çoban çalır tütək,
Çıxır düzə qoyun, inək.
Əsir sərin-sərin külək,
Ay uşaqlar, xoş bahar gəlir.

Quşlar uçur qatar-qatar,
Çiçəklənir yaşıl bağlar.
Ay uşaqlar, ay uşaqlar,
Sevincimiz xoş bahar gəlir.
Ay uşaqlar, xoş bahar gəlir.
Xoş bahar gəlir.

Qeyd etməliyik ki, bu musiqi Azərbaycanın əməkdar incəsənət xadimi bəstəkar Əfsər Cavanşirovun (Bax: Şəkil № 17), rəhbəri olduğu "Bənövşə uşaq xoru"nun ifasında ( Bax: Şəkil № 126 ) hər zaman səsləndirilmiş, bu gün də uğurla ifa olunmaqdadır.



Şəkil № 126. "Bənövşə" uşaq xoru

**6.** Azərbaycanın əməkdar incəsənət xadimi Ağabacı Rzayevanın (Bax: Şəkil № 120), şair Mirzə Ələkbər Sabirin (Bax: Şəkil № 127), "Gəl, gəl, a yaz günləri"[107] rədifli şeirinə



Şəkil № 127. Mirzə Ələkbər Sabir

bəsdələdiyi (Bax: Əlavələr bölümü, səh.. 134 - 135) musiqinin mətnindən yazın, baharın gəlişinə həsr olunduğu anlaşılır:

[106] Bax: Rauf İmanov. "Böyük qrup bağça uşaqları üçün musiqi müntəxəbatı", Bakı - 1987, 127 s.
[107] Bax: http://meneviservetimiz.az/images/stories/pdf/Gel-gel_a _ yaz_gunleri_not.pdf

Gəl, gəl, a yaz günləri,
İlin əziz günləri.
Dağda ərit qarları,
Bağda ərit qarları.
Çaylar daşıb sel olsun,
Taxıllar tel-tel olsun.
Ağaclar açsın çiçək,
Yarpağı ləçək-ləçək.
Gəl, gəl, a yaz günləri,
İlin əziz günləri.

**7.** Azərbaycanın əməkdar incəsənət xadimi Ağabacı Rzayevanın (Bax: Şəkil № 120), şair Teymur Elçinin (Bax: Şəkil № 26), "Qaranquş"[108] adlı sözünə bəsdələdiyi (Bax: Əlavələr bölümü, səh. 136 - 137) uşaq mahnısını Zabitə Məmmədovanın (Bax: Şəkil № 128), ifasından dinlədiyimiz zaman, mətnindən baharın gəlişi bu poetik misralarla ifadə olunmuşdur:



Şəkil № 128. Zabitə Məmmədova

Sən gələndə qaranquş,
Bu yerlərə yaz gəlir.
Dalınca qatar-qatar,
Durna gəlir qaz gəlir.

Nəqərat:
*Getmə uzaq qaranquş,*
*Sinəsi ağ qaranquş*

Çox ölkələr gəzmisən,
Oxu nəğmən şirindir.
Dünyada ən gözəl yer,
Öz yuvan, öz elindir.

Nəqərat:
*Xoş gəlmisən qaranquş,*
*Qalmışdım nigaran quş.*
Yaz quşu sən gələndə ,
Açır nərgiz, yasəmən.
Nəğmə dolur qəlbimə,
Söz qoşuram yaza mən.

Nəqərat:
*Qaranquş ay qaranquş,*
*Görmə şaxta, boran quş.*

[108] Bax: https://ok.ru/video/4803659203

**8.** Sözləri və musiqisi Səadət Fərziyevaya (Bax: Şəkil № 60), aid olan “Xoş gəlmisən novruzum”[109] adlı uşaq mahnısı (Bax: Əlavələr bölümü, səh. 138 - 141), adından göründüyü kimi Novruz bayramının gəlişi şərəfinə yazılmışdır. Mətnlə tanış olduqca novruz bayramı zamanı, bu mübarək gündə gerçəkləşən əlamətdar hadisələrin poetik ifadəsi öz əksini tapdığını görürük.

Görüşsün bütün ellər,
Yada salaq deməyə.
Gəldi güllər, çiçəklər,
Sevinin rəqs etməyə.

Yaşıl geyinin tarlalar,
Baxın görün kim gəlir.
Gülər üzlü novruzum,
Bol-bərəkət gətirir.

Nəqərat
*A kos-kosa gəlsənə,*
*Bir sevinib gülsənə.*
*Qaynayıb qarışsana,*
*Bizimlə oynasana.*

Bahar gəldi çöllərə,
Torpaq oyandı artıq.
Hər vaxt bahar gələndə,
Sevinib ucalarıq.

Xoş gəlmisən Novruzum,
Qədəmlərin mübarək.
Hər tərəfdə nəğmələr,
Dörd tərəfin gül-çiçək.

Fındıq, qoz, badam, püstə,
Süfrələri bəzəyir.
Şəkərbura, paxlava,
Qonaqları gözləyir.

Qapılar döyüləndə,
Soruşuruq kimsən sən?
Açıb görürük yerdə,
Papaq deyir mənəm, mən..

## 10. ŞAİRLƏRİMİZİN VƏ BƏSTƏKARLARIMIZIN YARADICILIĞINDA “BƏNÖVŞƏ” MÖVZUSU

Azərbaycan şairlərinin və bəstəkarlarının yaradıçılına, eyni zamanda xalq mahnılarımıza, hətta rəqs havalarımıza nəzər saldığımızda bahar fəslinin simgəsi, “Bənövşə” çiçəyinə (Bax: Şəkil № 129) həsr edilmiş çoxsayda nümunələrin olduğu diqqətimizi çəkir. Azərbaycanın əməkdar incəsənət xadimi, Dədə Aşığımız Şəmşir Qubanoğlu Qocayev (Bax: Şəkil № 21) də 1971-ci ildə 4 bənddən ibarət “Bənövşə”[110] adlı gözəl bir şeirlə də bu gözəl çiçəyi poetik misralarla belə vəsv etmişdir:

---

[109] Bax: https://www.youtube.com/watch?v=kjjgql5Qkvo
[110] Aşıq Şəmşir. “O Kürün, Arazın Tərtəriyəm mən”, “Sabah” nəşriyyatı,Bakı-2004, s. 79

Bu mövzu ilə əlaqədar istedadlı şairlərimiz zaman-zaman bir çox şeirlər qoşmuş, bəstəkarlarımız isə həmin



Şəkil № 129. Bənövşə çiçəyi

sözlərə bir-birindən fərqli gözəl musiqilər yazmış, bəzi bəstəkarlarımız isə hətta uşaq mahnıları *( Səid Rüstəmovun Abdulla Şaiqin "Bənövşə" rədifli sözünə, Soltan Hacıbəyovun Mirmehdi Seyidzadənin "Bənövşə" adlı şeirlərinə bəsdələdiyi iki uşaq mahnısı barədə öncəki fəsildə ətraflı bəhs etmişik)* da bəsdələmişlər. Bununla yanaşı xalq musiqiçilərimiz, tanınmış ifaçı sənətkarlarımız "Bənövşə"[111] adında *("Bənövşə 1"* (Bax: Əlavələr bölməsi, səh. 125 - 126 ), *"Bənövşə 2"[112])* iki rəqs nümunəsini icad edib musiqi mədəniyyətimizin xəzinəsinə bəxş etmişlər.

"Bənövşə"[113] ismli aşıq havasını isə ustad Aşıq Əmrah Gülməmmədov (Bax: Şəkil № 130) bir zamanlar öz sazında ifa etmişdir.



Şəkil № 130. Aşıq Əmrah Gülməmmədov

**1.** Aşıq Şəmşirin "Bənövşə" rədifində yazdığı şeir Bənövşə çiçəyinə həsr edilmişdir:

Yaz olanda bizim uca dağlarda,
Öpüşür gül, çiçək, lala, bənövşə.
Maralların, cüyürlərin gözündən,
Utanıb qısılır kola, bənövşə.

Nolar yuxarı tut, barı boynunu,
Üşütməz dağların qarı boynunu.
Sən əyəndə yerə sarı boynunu,
Mən çəkirəm ahu-nalə, bənövşə.

Çağırdım səsimə hay verdi bahar,
Sözdən ürəyimə çay verdi bahar.
Səni gözəllərə pay verdi bahar,
Bəzəksən buxaqda xala, bənövşə.

Şehdən çəmənlərə ətir səpir yaz,
Durmaz, köynəyindən çıxar telli saz.
Şəmşir qocalıqdan inciyib bir az,
Gəlib ki, könlünü ala, bənövşə.

---

[111] Bax: Bəhmənli R., "Azərbaycan xalq rəqsləri", "Adiloğlu" yayınevi, Bakı – 2002, S. 38-39.
[112] Bax: Xalq artisti tarizən Hacı Məmmədovun ifa etdiyi "Bənövşə 2" rəqsi https://sozmusiqi.wordpress. com/az/dance/ benovse/
[113] Bax: Mürsəl Həkimov, "Aşıq sənətinin poetikası", "Səda" nəşriyyatı, Bakı - 2004, S. 542.

**2.** Azərbaycan xalq mahnılarımızdan birinin adı "Bənövşə"dir. Bəstəkarı və söz yazarı anonim olan bu musiqinin mətninə nəzər salaq:

Dağlara gün düşübdür,
Açıl, bənövşəm, açıl!
Bağlara gün düşübdür,
Açıl, bənövşəm, açıl!

Dağlara çökdü duman,
Gizlən, bənövşəm, gizlən.
Bağlara çökdü duman,
Gizlən, bənövşəm, gizlən.

Dağlara əsdi külək,
Dikəl, bənövşəm, dikəl!
Bağlara əsdi külək,
Dikəl, bənövşəm, dikəl!

Dağlara qar yağıbdır,
Yığıl, bənövşəm, yığıl!
Bağlara qar yağıbdır,
Yığıl, bənövşəm, yığıl!

**3.** Azərbaycan Respublikasının xalq artisti, bəstəkar Səid Rüstəmovun (Bax: Şəkil № 23), Aşıq Qurbaninin (Bax: Şəkil № 131), "Bənövşə"[114] adlı şeirinə bəsdələdiyi romansını



Şəkil № 131. Aşıq Qurbani.

Azərbaycanın xalq artisti Gülağa Məmmədovun[115] (Bax: Şəkil № 98) ifasından dinlədiyimiz zaman, musiqinin mətnindən də anlaşılır ki, bu mövzu baharın ilk müjdəçisi "Bənövşə" çiçəyinə həsr olunmuşdur:

Başına döndüyüm, gülüzlü pəri,
Adətdir, dərərlər yaz bənövşəni.
Ağ nazik əlinlə bir dəstə bağla,
Tər buxaq altında düz bənövşəni.

Tanrı səni gül camala yetirmiş,
Səni görən aşiq əqlin itirmiş,
Gözəl qızlar dərib yara gətirmiş,
Heyif ki, dəriblər az bənövşəni.

Qurbani der: könlüm səndən sayrıdır,
Nə etmişəm, yarım məndən ayrıdır?
Ayrılıqmı çəkib boynu əyridir?
Heç yerdə görmədim düz bənövşəni.

---

[114] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 83.
[115] Bax: https://www.youtube.com/watch?v=i7YWja_xVO4

**4.** Respublikamızın xalq artisti Ramiz Mirişlinin (Bax: Şəkil № 103), Azərbaycanın xalq şairi Fikrət Qocanın ( Bax: Şəkil № 15 ), "Bənövşə" rədifli şeirinə bəsdələdiyi musiqinin mətnindən və adından mövzunun Bahar mövsümünün yaraşığı olan Bənövşəyə həsr edildiyi anlaşılır:

Cərgə-cərgə, üz-üzə,
Dəstə baxır göz-gözə.
Kim qonaq gəlsin bizə,
Kim qonaq getsin sizə,
Bənövşə, bəndə düşə,
Sizdən bizə kim düşə.
Nəqərat:
*Baxtım açıla barı,*
*Tuta əlimdən yarım.*
*Gəl, mənim ilk baharım,*
*Toy bizim kəndə düşə.*

Qəlbi odlu cavanlar,
Qəlbi nurlu cavanlar,
Çinar boyu cavanlar,
Özü kəməndə düşə,
Bənövşə, bəndə düşə,
Sizdən bizə kim düşə.
Nəqərat:
*Yanağı al qızların,*
*Dodağı bal qızların.*
*Ay, bu maral qızların,*
*Hansı kəməndə düşə.*

**5.** Respublikamızın əməkdar incəsənət xadimi Sərdar Fərəcovun (Bax: Şəkil № 132), Azərbaycanın xalq şairi Səməd Vurğunun (Bax: Şəkil № 76) "Bənövşə"[116] rədifli şeirinə bəsdələdiyi musiqinin mətnindən anlaşılır



Şəkil № 132. Sərdar Fərəcov

ki, mövzu bahar fəslinin ilk cicəyi olan Bənövşəyə ithaf edilmişdir:

Yazın nübarısan bizim diyarda,
Qıvrım tellərini sana bənövşə.
Mən səni sevmişəm bir ilk baharda,
Könlümü vermişəm sənə bənövşə.

Boynunu kəc burma gəl indən belə,
Mən sənə söz qoşum, sən məni dinlə.
Vurğunun şeirilə, sənin hüsnünlə,
Təbiət gələcək sana, bənövşə.

[116] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 83.

Çıxmışam seyrinə meyli-məzəli,
Heyrandır hüsnünə ellər gözəli,
Könül oylağında yaxın qəzəli,
Çoxları küsəndi mənə bənövşə.

**6.** Azərbaycanın Respublikasının xalq artisti Emin Sabitoğlunun (Bax: Şəkil № 108), xalq şairimiz Bəxtiyar Vahabzadənin (Bax: Şəkil № 133), "Bənövşə" rədifli şeirinə



Şəkil № 133. Bəxtiyar Vahabzadə

bəsdələdiyi musiqinin mətnindən baharın gəlişini ilk müjdələyən Bənövşə çiçəyinə həsr olunmuşdur:

Nə qədər incəsən zərif görkəmin,
Çiçəklər içində düz vüqarın var.
Gözəl xilqət etmiş təbiət səni,
Bənövşə adıyla düz ilqarın var.

Nəqərat:

*Bənövşə nə gözəl,*
*İncə bir çiçək.*
*Şadlanır könüllər,*
*Hüsnünü görək.*

Xoşbəxtdir ətrini bir an duyanlar,
Sevib sevənlərə rəğbətin vardır.
O zərif rənginə valeh olanlar,
Görünür əzəldən çox bəxtiyardır.

**7.** Bəstəkar – müğənni xanımlarımızdan olan Tamilla Məmmədzadənin (Bax:Şəkil №



Şəkil № 134.Tamilla Məmmədzadə

134), şair Yusif Əmirxanovun "Bənövşələr qoxuyanda" rədifli şeirinə yazdığı musiqinin mətn hissəsinə nəzər saldığımızda mövzunun bahar fəslinin gözəl çiçəyi, Bənövşə aid olduğu qənaətinə varırıq:

İlk görüşüm yada düşdü,
Qış o yanda, yaz bu yanda.
Ürəyimə səda düşdü,
Bənövşələr qoxuyanda.

Nəqərat:
*Bahar oldu, yaz açıldı,*
*Bulaqlara iz saçıldı.*
*Məhəbbətdən söz açıldı,*
*Şəlalələr oxuyanda.*

Nərgiz gülü üzə çıxdı,
Şehli otlar dizə çıxdı.
Əllər yenə üzə çıxdı,
Bənövşələr qoxuyanda.

**8.** Aydın Ağasıyevin (Bax:Şəkil №135), şair Nüsrət Kəsəmənlinin (Bax: Şəkil №



Şəkil № 135. Aydın Ağasıyev

118), "Yumul Bənövşəm, yumul"[117] rədifli şeirinə bəsdələdiyi həzin musiqinin mətninə nəzər salldıqda, mövzunun Bənövşə çiçəyinə aid olduğu anlaşılır:

Hava yaman sazaqdır,
Günəş səndən uzaqdır,
Bir ac quzu mələyib
Sənə boylandı, baxdı,
Yumul, bənövşəm, yumul!..

Çəmənlərə iz düşüb,
Bir deyil ki, yüz düşüb…
Niyə sənin payızın
Hər çiçəkdən tez düşüb?
Yumul, bənövşəm, yumul,
Bənövşəm, yumul!

Ömrün bircə həftədir,
Ətrin min cür həbdədir,
İndi sevənlər üçün
Beş qərənfil dəbdədir;
Yumul, bənövşəm, yumul!..

Yum gözünü, çən görmə,
Vaxtsız gələn qəm görmə,
İndi zaman dəyişib,
Mən görəni sən görmə;
Yumul, bənövşəm, yumul!..

[117] Bax: https://sozmusiqi.wordpress.com/az/composer/aydin-agasiyev/benovse/

**9.** Azərbaycanın əməkdar incəsənət xadimi Adil Bəbirovun (Bax:Şəkil № 136), müəllifi anonim olan bir şairin "Bənövşə" adlı şeirinə lirik səpgidə gözəl bir mahnı da



Şəkil № 136. Adil Bəbirov

yazmış, Azərbaycanın xalq artisti Şövkət Ələkbərova (Bax:Şəkil № 70), isə bu musiqini böyük məharətlə gözəl ifa etmişdir:

Yaraşırsan bu Vətənə elə, bənövşə!
Bənzərin var yar alnında telə, bənövşə!
Gəl, ətrini könlümüzə çilə, bənövşə!

Nəqərat:
*Sən baharın sevincini gətirsən dağlara,*
*Niyə boynun bəs əyridir?*
*Bahar hara, qəm hara?!*
*Düzül bu dağlara sən cərgə-cərgə!*
*Qoy, gülsün gözlərin baharla birgə!*

Sevinc gətir, həyat gətir,
Gəl, bənövşə, gəl!..
Yazda da gəl, qışda da gəl,
Sən həmişə gəl!..
Sən, ey könül sevincimiz,
Gəlişi gözəl!

**10.** Əməkdar incəsənət xadimi Telman Hacıyevin (Bax: Şəkil № 14), Azərbaycanın xalq şairi Fikrət Qocanın (Bax: Şəkil № 15), "Bənövşə bəndə düşə"[118] rədifli şeirinə yazdığı musiqini, Respublikanın xalq artisti Yalçın Rzazadənin (Bax: Şəkil № 137) ifasında



Şəkil № 137.Yalçın Rzazadə

dinlədiyimiz zaman mətndən anlaşılır ki, uşaqların öz aralarında oynadığı "Bənövşə bəndə düşə" adlı oyunun sözlərini fərqli variantda əks etdirir:

Ay gül yanaqlı qızlar,
Ay gül dodaqlı qızlar.
Tutaq ki, biz haqsızıq,
Siz olun haqlı, qızlar.

[118] Bax: https://sozmusiqi.wordpress.com/az/composer/telman-haciyev/benovshe-bende/

Nəqərat:
*Bənövşə bəndə düşə,*
*Bizdən sizə kim düşə?*

Yanıq verməyin daha,
Batarsınız günaha.
Deməyin tezdir hələ,
Sonra da gec olar, ha.

Qaralıbdır göy dəniz,
Göy dənizdə kölgəmiz.
Peşkəşdir dəstənizə,
Bizim oğlan dəstəmiz.

**11.** Respublikamızın xalq artisti Ramiz Mirişlinin (Bax: Şəkil № 103), Azərbaycanın xalq şairi Fikrət Qocanın (Bax: Şəkil № 15), "Bənövşə"[119] rədifli şeirinə yallı üslubunda bəsdələdiyi musiqini gənc müğənni Arzu Əliyevanın (Bax: Şəkil № 138), ifasında



Şəkil № 138. Arzu Əliyeva

dinlədiyimiz zaman, mətnindən anlaşılır ki, uşaqların öz aralarında oynadığı "Bənövşə bəndə düşə" adlı oyunun sözlərini fərqli variantdakı ikinci bir təzahürüdür:

Cərgə-cərgə, üz-üzə
Dəstə durub göz-gözə.
Kim qonaq gəlsin bizə?
Kim qonaq getsin sizə?

Nəqərat:
*Bənövşə bəndə düşə,*
*Bizdən sizə kim düşə?..*

Baxtım açıla, barı,
Tuta əlimdən yarım!..
Gəl, mənim ilk baharım,
Toy bizim kəndə düşə!..

Qəldi odlu cavanlar,
Əhdi ulu cavanlar,
Çinarboylu cavanlar
Özü kəməndə düşə!..

Yanağı al qızların,
Dodağı bal qızların,
Ay, bu maral qızların
Hansı kəməndə düşə?

[119] Bax: https://sozmusiqi.wordpress.com/az/composer/ramiz-mirish li/benovse/

**12.** Ələkbər Tağıyevin (Bax: Şəkil № 139), Azərbaycanın əməkdar incəsənət xadimi Mədinə Gülgünün (Bax: Şəkil № 69), "Bənövşə" adlı şeirinə yazdığı lirik duyğulu gözəl mahnını Azərbaycanın xalq artisti Flora Kərimovanın[120] (Bax: Şəkil № 140), ifasında dinlədiyimiz zaman mətndən Baharın fəslinin yaraşığı olan Bənövşə çiçəyinə həsr edildiyi anlaşılır:



Şəkil № 139. Ələkbər Tağıyev



Şəkil № 140. Flora Kərimova

Ötdü quşlar, müjdə verdi baharda,
Yollar açıq, gülə-gülə bənövşə,
Lətif sinən uzaq olsun qubardan,
Dosta yarar, şadlıq dilər bənövşə!..

Sinən üstə qara xallar düzülmüş,
Göz yaşın da yanağına süzülmüş…
Deyirlər ki, əlin yardan üzülmüş,
Məhəbbətin düşmüş dilə, bənövşə…

Səhər mehi əl çəkəndə başına
Hansı gülü, de, çıxardım qarşına?
Mən dözmərəm gözlərinin yaşına
Qərib-qərib durma belə, bənövşə!..

Yaraşırsan göy çəmənin özünə,
Sən inanma hər naşının sözünə!..
Qara xallar çox yaraşır üzünə,
Gəl, mənimlə ülfət eylə, bənövşə!..

**13.** Azərbaycanın xalq artisti Eldar Mansurovun (Bax: Şəkil № 141), şair Vahid Əzizin (Bax: Şəkil № 142), "Bənövşə"[121] adlı şeirinə estrada üslubunda bəsdələdiyi musiqini Firəngiz Rəhimbəyovanın (Bax: Şəkil № 143), ifasından dinlədiyimiz zaman mətndən



Şəkil № 141.Eldar Mansurov



Şəkil № 142. Vahid Əziz



Şəkil № 143. Firəngiz Rəhimbəyova

anlaşılır ki, mövzu Bahar fəslinin ilk çiçəyi Bənövşədən bəhs edir:

Soruşma ki, bu bahardan nə andım,
Həsrətinin əzəli yox, sonu yox.
Kol dibində bənövşədən utandım:
Gizlənmişdi, köynəyi yox, donu yox.

[120] Bax: https://sozmusiqi.wordpress.com/az/composer/alakbar-tagiyev/benovse/
[121] Bax: https://sozmusiqi.wordpress.com/az/composer/eldar-mansur ov/benovse/

Nəqərat:
*Milyon, milyon dən səpildi torpağa,*
*Milyon, milyon pöhrə qalxdı, göyərdi,*
*Mən qıymadım bənövşəni qırmağa,*
*Nə biləydim, aqibəti beləydi?!..*

Gözlədim ki, yaz dumanı çəkilə,
Günəş qova kol dibinin qəmini,
Kövrəlmişdim, əl vurmadım o gülə,
Bellədilər, şumladılar çəməni…

Bənövşəsiz bir ilə də dözərəm,
Bahar keçər, şaxta düzü dolanar,
Ya mən onu gələn yazda üzərəm,
Ya o mənim gözlərimdən boylanar…

## 11. HƏVƏSKAR BƏSTƏKARLARIMIZIN NOVRUZ AHƏNGLİ, BAHAR TƏRAVƏTLİ MAHNILARI

Azərbaycanın bir çox həvəskar bəstəkarları zaman içərisində Bahar bayramına bir-birindən gözəl musiqilər bəsdələyib xalqımıza ərməğan etmişlər. Təsbitimizə əsasən deyə bilərik ki, bu mahnıların bir çoxunu məşhur xanəndələrimiz *(Əlibaba Məmmədov, Arif Babayev, Qulu Əsgərov, Arif Məmmədov, Məmmədbağır Bağırzadə )* və bəzi istedadlı müğənnilərimiz *( Cabbar Musayev, Cavad Rəcəbov),* Ələkbər Tağıyev, Rauf Məmmədov kimi musiqiçilərimiz, hətta bəzilərini də xalq çalğı alətlərimizdən birində çalan, peşəkar ifaçı sənətkarlarımız *( Məşhur kaman ustadı Habil Əliyev, tar ifaçıları Bəhram Nəsibov, Şahid Əbdülkərimov, Sidqi Mustafayev, Şahin Verdiyev və s.)* milli musiqi xəzinəmizə qazandırmışlar. Razim Paşayev, Səadət Fərziyeva və tar və saz ifaçısı, sənətşünaslıq doktoru, professor İlqar İmamverdiyev kimi şair təbli istedadlı musiqiçilərimiz isə Bahar mövsümünün gəlişi münasibəti ilə poetik sözlər yazaraq xüsusi mahnılar bəsdələmişlər.

**1.** Həvəskar bəstəkarlarımızdan Ələkbər Tağıyevin (Bax: Şəkil № 139), şairə xanım Zivər Ağayevanın (Bax:Şəkil № 27), "Mən baharın qızıyam"[122] adlı sözünə "Bayatı - Şiraz" məqamında bəsdələdiyi, "Alleqro" tempində, xoş əhval-ruhiyyəli, oynaq, şən-şux, könüloxşayan musiqi də baharın gəlişinə, bahar bayramına ərməğan olunmuşdur:

Bahar gələndə məndə,
Bitirəm göy çəməndə.
Mən baharın qızıyam,
Köynəyi qırmızıyam.

Uçmağa yox qanadım,
Qızıl lalədir adım,
Çölü, düzü bəzərəm,
Əldən - ələ gəzərəm.

Başımda al şalım var,
Yanağımda xalım var.
Yeyilmərəm acıyam,
Çiçəklərin tacıyam.

[122] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 342. https://www.youtube.com/watch?v=UoyjKVt8MDU

Bu musiqini xalqımız arasında daha çox sevdirib, onu məşhurlaşdıran istedadlı xanım müğənnimiz, Azərbaycanın xalq artisti Nisə Qasımova ( Bax: Şəkil № 144) olmuşdur.



Şəkil № 144. Nisə Qasımova

Təsadüfü deyil ki, Ələkbər Tağıyevin bu gözəl musiqisi illər keçdikcə qonşu ölkələrdə də populyarlaıq qazanmışdır. Türkiyənin tanınmış səs sənətciləri Nursaç Doğanışık (Bax: Şəkil № 145), Arzu Akmeşə ( Bax: Şəkil № 146), Səhər Çağatay (Bax: Şəkil № 147) və s. bu TRT-nin fərqli proqramlarında böyük həvəslə oxumuşlar.



Şəkil № 145. Nursaç Doğanışık



Şəkil № 146. Arzu Akmeşə



Şəkil № 147. Səhər Çağatay

**2.** Ələkbər Tağıyevin (Bax: Şəkil № 139), nəğməkar-şairimiz Hafiz Baxışın (Bax: Şəkil № 148) "Yaz gəldi" [123] adlı şeirinə bəsdələdiyi və Azərbaycan Respublikasının xalq artisti



Şəkil № 148. Hafiz Baxış

Nisə Qasımovanın (Bax: Şəkil № 194) möhtəşəm ifa etdiyi şən-şux ovqatlı mahnı məhz, ilk baharın gözəlliklərinə, yaz fəslinin xoş gəlişinə həsr olunmuşdur:

Bahardır, sevgilim, təbiət coşur,
Dağlar lərzə gəlir sirlər içində.
Bülbül vəcdə gəlir, nəğmələr qoşur,
Yenə vəcdə gəlir, nəğmələr qoşur.
Yenə cəh-cəh vurur güllər içində?
Bahar aşiqidir könlüm əzəldən,
Ayrıla bilmirəm bu şux gözəldən,
Baharla dolaşıb keçdim yüz eldən,
Yoxdur öz elimdən ellər içində.

[123] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 558.
https://www.youtube.com/watch?v=LxFbsqQ15RU

Çal ay aşıq, telli sazı,
Salamlasın könül yazı.
Bülbüllərin xoş avazı,
Deyir, yaz gəldi, yaz gəldi.

Çəmənlərin meh nəfəsi,
Çobanların tütək səsi.
Qaranquşların gəlməsi,
Deyir, yaz gəldi, yaz gəldi.

Nəqərat
*Elimizə bahar gəldi,*
*Könlümüzə bahar gəldi.*
*Bahar gəldi, yaz gəldi,*
*Təbiətə işvə gəldi, naz gəldi.*

*Gəl, gülüm sevgilim,*
*Gül, gülüm sevgilim.*
*Seyr edək çölü, düzü,*
*Qoy ilk bahar bəzəsin ömrümüzü.*

Yam-yaşıldır uca dağlar,
Al geyinib bağça-bağlar.
Salxımlanan göy budaqlar,
Deyir yaz gəldi, yaz gəldi.

Ana torpaq cavanlaşır,
Dağ çayları coşub-daşır.
Qış bizimlə vidalaşır,
Deyir yaz gəldi, yaz gəldi

**3.**Musiqisi və sözləri Razim Paşayevə (Bax: Şəkil № 149) aid olan "Novruz bayramınız mübarək olsun"[124] rədifli şeir, adından göründüyü kimi yurdumuza qədəm qoymuş Bahar



Şəkil № 149. Razim Paşayev

fəslininə, Novruz bayramına həsr olunmuşdur. Hər bəndlə tanış olduğumuzda poetik misralardakı sözlərlə bunun bir daha şahidi oluruq:

Bu gözəl yurdumuza ilk bahar gəlir,
Şirin, ən gözəl arzular gəlir.
Təbiət əlindən xonçalar gəlir,
Novruz bayramınız mübarək olsun.

Nəqərat
*Səməni düzülüb indi hər yana,*
*Xoş ətir yayılır bu şirin cana.*
*Novruz xoş gəlibdir Azərbaycana,*
*Novruz bayramınız mübarək olsun.*

---

[124] Bax: Babayev Rafiq, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 391.

Bayramlar gözəli novruz bayramı,
Elimin, obamın əziz bayramı.
Qoy desin ürəkdən, qoy desin hamı,
Novruz bayramınız mübarək olsun.

**4. a.** Sözlərini 21 mart 2005-ci ildə yazmış, musiqisini isə 12 Fevral 2013 tarixində bəsdələmiş İlqar Cəmiloğlunun (Bax: Şəkil № 75) "Novruz gələndə"[125] isimli şeiri adından göründüyü kimi novruz bayramının gəlişi şərəfinə yazılmışdır: (Bax: Əlavələr bölümü, səh. 114 - 116 )

Köhnə ilin sonu çatır,
Novruz gələndə-gələndə.
Bahar muradına yetir,
Novruz gələndə-gələndə.

Təbiətin üzü gülür,
Günəşdən nurlar süzülür,
Qar can verir, buzlar ölür,
Novruz gələndə-gələndə.

Oba bilir, ellər bilir,
Türk dünyasında sevilir.
Səmənilər, göyərdilir,
Novruz gələndə-gələndə.

Haqdan mərhəmət ələnir,
Torpaq yaşıla bələnir.
Çöhrəyə seinc çilənir,
Novruz gələndə-gələndə.

Zirvədən duman çəkilir,
Boranın beli bükülür.
Tarlaya toxum əkilir,
Novruz gələndə-gələndə.

Arılar gülə qarışır,
Süsən sünbüllə yarışır,
Küsənlər o gün barışır,
Novruz gələndə-gələndə.

Dağlar min-bir çiçək açır,
Yal-yamaclar ətir saçır,
Sürülər yaylağa qaçır,
Novruz gələndə-gələndə.

Yenə gəlir gözəl illər,
Nəğmə deyər qız-gəlinlər.
Bayramlaşar bizim ellər,
Novruz gələndə-gələndə.

[125] Bax: İmamverdiyev İlqar., "Azerbaycan ve İran Türklerinde nevruz etkinlikleri ve âşık şiirinde nevruz", Atatürk Üniversitesi, Türkiyat Araştırmaları Enstitüsü Dergisi, Prof. Dr. M. Fahrettin Kırzıoğlu Özel Sayısı № 28, Erzurum - 2005, S. 236–238

İlqar Cəmil sazı çalar,
Gözəllikdən ilham alar.
Bu bayramdan sözü qalar,
Novruz gələndə-gələndə.

**4 b.** Sözlərini 19 mart 2012-ci ildə yazmış, musiqisini isə 6 Fevral 2013 tarixində bəsdələmiş İlqar Cəmiloğlunun (Bax: Şəkil № 75) "Novruz bayramı xoş gəldin" rədifli şeiri, adından da anlaşıldığı kimi novruz bayramının ana Vətənimizə qədəm qoyması ilə əlaqədar yazılmışdır: (Bax: Əlavələr bölümü, səh. 117 - 118 )

I Bənd
Yenə gəldi bahar fəsli,
{Novruz bayramı xoş gəldin.
Bayramların əsli-nəsli,
Bayramların şahanəsi,
{Novruz bayramı xoş gəldin.

Nəqərat
{*Sən İlqarın sevincisən,*
*Bayramlardan birincisən,*
*Fəsillərdə bir incisən,*
*Novruz bayramı xoş gəldin.*
*Mövsümlərdə dür, incisən,*
*Novruz bayramı xoş gəldin.*

II Bənd
Dağlarda çay daşdı yenə,
Aşıqlar da coşdu yenə.
İl-ilə qovuşdu yenə,
Novruz bayramı xoş gəldin.

Nəqərat
*Hər yan qöncə, qızıl güldü,*
*Şənliyimiz coşan seldi,*
*Hər yan qöncə, qızıl güldü,*
*Sevincimiz daşan seldi,*
*Bayramlar içində ləldi,*
*Novruz bayramı xoş gəldin.*

**4 c.** Sözlərini 7 Mart 2016-cı ildə, musiqisini isə 13 Mart 2016-cı ildə bəsdələmiş İlqar Cəmiloğlunun ( Bax: Şəkil № 75) üçüncü şeiri "Novruzum gəl" adlanır. (Bax: Əlavələr bölümü, səh.119 - 121) Bu şeir də adından göründüyü kimi Novruz bayramının elimiz-obamıza xoş gəlişi ilə əlaqədar yazılmışdır:

Açıldı Novruz gülüm,
Gəl-gəl a Novruzum, gəl.
İki min on altı ilim,
Tez gəl a Novruzum, gəl.

Baharın müjdəsisən,
Qaranquş nəfəslisən.
Ülvi eşq həvəslisən,
Gəl-gəl a Novruzum, gəl.

Təbiət oyanıbdır,
Şahanə dayanıbdır,
Gözəllik yaranıbdır,
Gəl-gəl a Novruzum, gəl.
Tez gəl a Novruzum, gəl.

* * *

Bayramların başısan.
Baharın zər qaşısan,
Mücövhəri, daşısan,
Gəl-gəl a Novruzum, gəl.

Gəlişinlə yaz gətir,
Sədəflənmiş saz gətir,
Şeir qoşub yaz gətir,
Gəl-gəl a Novruzum, gəl.

Gəl, insanlar sevinsin,
Fərəhlənib öyünsün,
Ürək eşqlə döyünsün
Gəl-gəl a Novruzum, gəl.
Tez gəl a Novruzum, gəl.

* * *

İnsanı yaşadansan,
Sultansan, paşadansan,
Hər axşam, sabah, dansan,
Gəl-gəl a Novruzum, gəl.

Gəlişin barış olsun,
Sülh olsun, yarış olsun,
Gözəl sifariş olsun,
Gəl-gəl a Novruzum, gəl.

İlqarın arzususan,
İstəyi, arzusu sən.
Qalıbsan de harda sən?
Gəl gəl a Novruzum, gəl.
Tez gəl a Novruzum, gəl.

**4 ç.** Sözlərini 17 Fevral 2018-ci ildə yazmış, musiqisini isə 4 Aprel 2018 tarixində bəsdələmiş İlqar Cəmiloğlunun (Bax: Şəkil № 75) "Xoş gəlmisən Novruzum" (Bax: Əlavələr bölümü, səh. 122 - 124) rədifli şeiri, adından da məlum olduğu kimi novruz bayramının yurdumuza gəlişi səbəbi ilə yazılmışdır:

Keçən il arzuladım,
Xoş gəlmisən Novruzum.
Nə müqəddəsdir adın,
Xoş gəlmisən Novruzum.

Sorağını aldım hərdən,
Şimal, Cənub, Şərqi, Qərbdən.
Sədan gəir hər diyardan,
Xoş gəlmisən Novruzum.

Bin-bərəkət gətirirsən,
Xoş müjdələr yetirirsən.
Bol zəmilər bitirirsən,
Xoş gəlmisən Novruzum.

Nəqərat
*{Xoş gəlmisən Novruzum, ay Novruzum.}2*

Qədəmlərin mübarək,
Hər gəliş arzu, dilək.
Bu canımda sən ürək,
Xoş gəlmisən Novruzum.

İlhamı səndən alırıq,
Sazı şövq ilə çalırıq.
Sənlə yaşlara doluruq,
Xoş gəlmisən Novruzum.

Sən ismətin timsalısan,
Məhəbbətin əmsalısan.
Bizləri yada salırsan,
Xoş gəlmisən Novruzum.

Nəqərat
*{Xoş gəlmisən Novruzum, ay Novruzum.}2*

Zövqümüzün tacısan,
Bizə qardaş, bacısan.
Dərdlərin ilacısan,
Xoş gəlmisən Novruzum.

Özgə yerin var ürəkdə,
Halal zəhmət var çörəkdə.
Yaşayırsan diləklərdə,
Xoş gəlmisən Novruzum.

Urzumuzu gətirib gəl,
Murazımı götürüb gəl.
Qarı, buzu ötürüb gəl,
Xoş gəlmisən Novruzum.

Nəqərat
*{Xoş gəlmisən Novruzum, ay Novruzum.}2*

Qəlb fərəhlə döyünür.
Şad olur, çox söyünür,
İlqar sənlə öyünür,
Xoş gəlmisən Novruzum.

Səndən ilham alır aşıq,
Sevgililər, aşiq, məşuq.
Bu cahana sən yaraşıq,
Xoş gəlmisən Novruzum.

Sən gələndə bayram olur,
Min bir büsat, dövran olur,
Hər kəs sənə heyran olur.
Xoş gəlmisən Novruzum.

**5.** Azərbaycanın əməkdar incəsənət xadimi, şair Həmid Abbasın (Bax: Şəkil № 150) Novruz bayramı ilə əlaqədar yazdığı "Novruz gələndə"[126] rədifli şeirində, müəllif bahar bayramını poetik misralarla tərənnüm edir. Tarzən Şahin Verdiyevin (Bax: Şəkil № 151), həmin sözdən ilham alaraq bəsdələdiyi musiqi könüloxşayan melodiyası ilə diqqəti çəkir:



Şəkil № 150.Həmid Abbas



Şəkil № 151. Şahin Verdiyev

Baharın özü gəlir, söhbəti-sözü gəlir,
Nəğmənin yüzü gəlir, Novruz gələndə.

Bayramların bayramı, şairlərin ilhamı,
Sevinir, gülür hamı, Novruz gələndə.

Nəqərat
*Sevənlər pıçıldaşır, gənclər uca dağ aşır,*
*Qocalar cavanlaşır, Novruz gələndə.*

Yazılıbdır adına, ocağına, oduna,
Anam düşür yadıma, Novruz gələndə.

## 12. BƏSTƏKAR TƏBLİ XANƏNDƏ VƏ MÜĞƏNNİLƏRİMİZİN NOVRUZ, BAHAR MOTİVLİ NƏĞMƏLƏRİ

Azərbaycanın məşhur xanəndələrinin və tanınmış müğənnilərinin öz bəsdələrində də Novruza, Bahara aid bir çox mahnıların olduğunu araşdırmamız zamanı təsbit edirik.

**1.** Azərbaycanın Respublikasının xalq artisti Əlibaba Məmmədovun (Bax: Şəkil № 152), el şairimiz Rasim Kərimlinin ( Bax: Şəkil № 153) "Baharlı günlərə ilk bahar



Şəkil № 152. Əlibaba Məmmədov



Şəkil № 153. Rasim Kərimli

[126] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 391.

gəlir”[127] rədifli şeirinə bəsdələdiyi musiqinin mətni də bahar bayramına həsr edilmişdir. İlk baharın gəlişi ilə Vətən torpağımıza, dərələrimizə, düzlərimizə bəhər, bağlarımıza bar gəldiyini poetik misralardakı sözlərlə belə ifadə etmişdir:

Baharlı günlərə qovuşur bahar,
Yurdumun qoynuna ilk bahar gəlir.
Günəşindən, eşqindən, hərarətindən,
Düzə bəhər gəlir, bağa bar gəlir.

Nəqərat
*Məhəbbət nur saçır, sevinc oyanır,*
*Qəlblərdə ilk eşqin şöləsi yanır.*
*Yer oğlu özünü göylərdə sanır,*
*Ömrə bəhər gəlir, bağa bar gəlir,*
*Baharlı günlərə ilk bahar gəlir.*

Alın tərimizdir zəfərlərimiz,
Nurlu kəndlərimiz, şəhərlərimiz.
Nəğməylə açılır səhərlərimiz,

*Ömrə zinət gəlir, iftixar gəlir,*
*Baharlı günlərə ilk bahar gəlir.*

**2.** Azərbaycanın Respublikasının xalq artisti məşhur müğənni-bəstəkar Məmmədbağır Bağırzadənin (Bax: Şəkil № 154), Zivər Ağayevanın ( Bax: Şəkil № 27) “Bahar gəlir”[128] adlı



Şəkil № 154. Məmmədbağır Bağırzadə

şeirinə bəsdələdiyi musiqinin mətnindən də anlaşıldığı kimi bahar bayramına həsr olunmuşdur. Ellərə baharın gəlişi səbəbi ilə bağ - bağçalarda barın yetişməsi, baharın əlində tutduğu yaz xonçasının içərisində müxtəlif şirniyyatlarla bərabər heyvanın, narın gəlməsi məcazi anlamda poetik misralarda belə ifadə olunmuşdur:

Ellərə bahar gəlir,
Bağçalara bar gəlir.
Əlində yaz xonçası,
Heyva gəlir, nar gəlir.

Nəqərat.

*Yaradan olsun kömək,*
*Gülsün hər arzu, dilək.*
*Cilvələnib gəlin tək,*
*Yurduma bahar gəlir.*

[127] Bax: Rafiq Babayev, “Min bir mahnı” VI nəşr, “Min bir mahnı” yayınevi, Bakı - 2007, S. 64.
[128] Bax: Rafiq Babayev, “Min bir mahnı” VI nəşr, “Min bir mahnı” yayınevi, Bakı - 2007, S. 64.

Torpaq əziz, göy təmiz,
Gəl görüşə çıxaq biz.
Əlində lalə, nərgiz,
Al geyinib, yar gəlir.

Nəqərat.

*Gülsün üzü güllərin,*
*Sonalansın göllərin.*
*Bayramına ellərin,*
*Kaman gəlir, tar gəlir.*

**3.** İstedadlı bəstəkar - müğənnimiz, Azərbaycanın Respublikasının xalq artisti Məmmədbağır Bağırzadənin ( Bax: Şəkil № 154) yenə Zivər Ağayevanın ( Bax: Şəkil № 27) "Bayram şamları"[129] adlı digər bir şeirinə bəsdələdiyi musiqinin mətni, bahar bayramı ilə əlaqədardır:

Yaz gəlib, çöl güləcək, oyanacaq gül çiçək,
Bərəkətli ay bahar, qədəmlərin mübarək.

Nəqərat

*Əldə şərbət camları, səsələyək dostu yarı,*
*Küsülülər barışsın, yansın bayram şamları.*

Gəldi bahar bayramı, əlində şərbət camı,
Gülüb sevinsin hamı, sevinsin hamı.

Gəzir əldə səməni, bürüyübdü Vətəni,
Əziz bayram günüdü, unudaq dərdi-qəmi.

Nəqərat
*Yaşıl-yaşıl səməni, gəzir çölü-çəməni,*
*Bürüyübdür Vətəni, Vətəni.*

Allah, özün yet dada, yetişək biz murada,
Kaş hər il bayram edək,
Zümrüdgözlü Şuşada.

**4.** Azərbaycanın Respublikasının xalq artisti Məmmədbağır Bağırzadənin (Bax: Şəkil № 154), söz yazarı anonim olan şairin, "Yurdumuza yaz gəlir" [130] adlı şeirinə bəsdələdiyi şən - şux, oynaq mahnının mətnindən də anlaşıldığı kimi, Bahar, Yaz mövsümünün mübarək gəlişindən, Novruz bayramından bəhs edir:

Süfrələrə şam düzün,
Qoy arzunuz çin olsun.
Şölə saçan alovun,
Biri də mənim olsun.

Səməni, nazlı gəlin,
İncə belində kəmər.
Baharın elçisidir,
Bəzəkli nəlbəkilər.
Nəqərat

[129] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 78.
[130] Bax: https://www.youtube.com/watch?v=kzfBEtqiUH8

*Yurdumuza yaz gəlir,*
*Tez barışsın küsənlər.*
*Taleh sizə yar olsun,*
*Sevilənlər sevənlər.*

Şəkərbura, paxlava,
Bəzək verir xonçaya.
Baharın nemətidir,
Elə-obaya.

Evlərimiz bəzənsin,
Toy-bayrama qarışsın.
Hər həyətdə bir tonqal,
Ay-ulduzla yarışsın.

Qızlar əlində xına,
Xonça düzür yan-yana.
Bahar necə yaraşır
Azərbaycana.

**5.** Azərbaycan Respublikasının xalq artisti Məmmədbağır Bağırzadənin (Bax: Şəkil № 154) şair Ələmdar Mahirin (Bax: Şəkil № 155) "Bayram günü"[131] adlı şeirinə bəsdələdiyi musiqinin mətni bahar bayramına həsr olunmuşdur. Novruz kəlməsinin adı keçməsədə anlaşılır ki, bu mövzu Novruz bayramından bəhs edir:



Şəkil № 155. Ələmdar Mahir

Ey ana yurdum, bəzənibsən tamam,
Təzə gəlin tək yenə bayram günü.
Təbrik edirəm şeir ilə bayramını,
Nəğmə qoşum mən sənə bayram günü.

Gəldi yenə tazə bahar, tazə il,
Günlərə ay, aylara əndazə il.
Xəlqimizi dəvət edər yazə il,
El çıxacaq gülşənə bayram günü.

Hiss olunur badi-səbanın dəmi,
Zövqü-səadət bürüyüb aləmi.
Böylə deyirlər ki, görüb Adəmi,
İlk dəfə Həvva nənə bayram günü.

[131] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 77-78.

Süfrə açıb, şirni düzək, çay verək,
Bir-birinin təbrikinə hay verək.
Gəl, gözəlim eşqimizdən pay verək,
Sən mənə, mən də sənə bayram günü.

Köhnə əsrdə qala qoy ahu-zar,
Bayram edib ömür eyləyək bəxtiyar.
Qəlbi sınan, könlü küsən harda var,
Öz evinə qoy dönə bayram günü.

**6.** Müəllifi bəlli olmayan bir şairin "İlk bahar"[132] rədifli şeirinə müğənni-bəstəkar Cabbar Musayevin ( Bax: Şəkil № 156) yazdığı musiqidəki mətnin mövzusu da baharın gəlişi səbəbi ilə bülbüllərin gülə, durnaların gölə gəlməsi, eyni zamanda Novruz bayramı



Şəkil № 156. Cabbar Musayev

münasibəti ilə insanların üzlərində xoş təbəssüm ifadələrinin artması, qız-gəlinlərimizin, ana-bacılarımızın sevinib gülməsi kimi əhval-ruhiyyələrinin yüksək olması kimi məsələlərə həsr edilmişdir:

İlk bahar yetişibdir,
Durnalar gölə gəldi.
Pərvanələr işığa,
Bülbüllər dilə gəldi.

Nəqərat
*Nə gözəldir ilk bahar,*
*Dodağında gülüş var,*
*Üzündə bir təbəssüm,*
*Gülüm oy, durnalar gölə gəldi.*

Sevin, sevil ey könül,
Başına nələr gəldi.
Əlində bir dəstə gül,
Yaz gülə-gülə gəldi.

**7.** Bəstəkarı və şairi anonim olan, fəqət Bahar bayramına həsr edilmiş "Bahar gəlib ellərə"[133] adlı mahnı, müğənni Nadir Bayramlının ( Bax: Şəkil № 157 ) repertuarında yer almaqdadır. Baharın xoş məramla doğma Vətənimizə, yurdumuza elimizə - obamıza, qədəm basması münasibəti ilə sevən aşiqin öz sevgili yarının al - əlvan geyinib

[132] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı-2007, S. 261
[133] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 64.



Şəkil № 157. Nadir Bayramlı

bəzənməsini, bayatı şeir formasında bu misralarla belə rica etmişdir:

Durna kimi süzən yar,
Məndən tez-tez küsən yar.
Bahar gəlir ellərə,
Al geyinib bəzən, yar.

**8.** Müğənni Tofiqə Əliyevanın müəllifi məlum olmayan şairin "Bahar nəğməsi"[134] adlı şerinə oxuduğu mahnının sözləri də Bahar mövsümünü vəsv etməkdədir:

Yaşıllaşır çöllər, oyanır torpaq,
Bəzənir gəlin tək hər dərə, hər dağ.
Ruhuma bir adət olmuş çırpınmaq,
Məhəbbətim səndə, könlüm səndədir,
Bahar nə nazəndə, nə nazəndədir.

Gah yoluna çıxdım, gah yola çıxdım,
Gah intizar çəkdim, həsrətdə qaldım.
Qışda sorağını uzaqdan aldım,
Dedim əmanətim, eşqim səndədir,
Bahar nə nazəndə, nə nazəndədir.

Mən nəğmələr qoşdum sənin adına,
Xoş bir nəfəs kimi çatdım dadına.
Bir həzin axşamda düşsəm yadına,
Bil ki, məhəbbətim eşqim səndədir,
Bahar nə nazəndə, nə nazəndədir.

**9.** Azərbaycan Respublikasının xalq artisti Eldar Mansurovun ( Bax: Şəkil № 141) İsmayıl Dadaşovla (Bax: Şəkil № 158), Xanım İsmayıl qızının ( Bax: Şəkil № 159) birgə yazdıqları "Novruzum"[135] adlı şerinə bəsdələdiyi mahnı, Azərbaycan Respublikasının xalq



Şəkil № 158. İsmayıl Dadaşov



Şəkil № 159. Xanım İsmayılqızı

[134] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 65.
[135] Bax: http://www.musicamoviles.com/LFQErJ1NP9Y/xo-g-lmis-n-novruzum/

artisti Faiq Ağayevin ( Bax: Şəkil № 160) ifasından dinlədiyimiz zaman, musiqinin



Şəkil № 160. Faiq Ağayev

mətnindən, mövzunun Bahar fəslinin yaraşığı olan Novruz bayramına həsr edildiyi anlaşılır.

Çiçəklər bürüyüb dağı, çölü, çəməni,
Süfrələri bəzəyir, yaşıl telli, səməni.
Arzu, istək gizlənər, süfrələrin şamında,
Sevinər ana yurdum, bu bayram axşamında,
Tonqallar alovlanır, hər evdə gözəl xonça,
Bu gün el bayramıdır, deyib, gülək doyunca.

Bizə sevinc gətirər, durnalar qatar-qatar,
Qonşu qapılarına, uşaqlar papaq atar.
Hamı tələsər bu gün, öz yurduna, elinə,
Xoş gəlmisən Novruzum, Azərbaycan elinə.

Bu Novruz bayramında, hər bir ürək şən olar,
Unudular kin-küdrət, gün-gecəylə tən olar.
Hər evə, hər ocağa ruzi-bərəkət gələr,
Novruzun gəlişini, el həsrətlə gözləyər.

Sevinir ana yurdum, hər gün biz yallı gedək,
Xoş gəlmisən Novruzum, qədəmlərin mübarək.
Tonqallar alovlanır, hər evdə gözəl xonça,
Bu gün el bayramıdır, deyib-gülək doyunca.

**10.** Cavanşir Quliyevin (Bax: Şəkil № 109) xalq bayatılarına bəsdələdiyi "Novruzum"[136] adlı musiqini, Azərbaycanın əməkdar artisti Almaz Ələsgərlinin ( Bax: Şəkil



Şəkil № 161. Almaz Ələsgərli

№ 161) ifasında dinlədiyimiz zaman, mətnin mövzusundan və musiqinin adından Novruz bayramına həsr olunduğu anlaşılır:

Novruzum, ay novruzum,
Gəl, gül açsın hər arzum.
Yurdun sərvət diyarı,
Xalqın olsun hər olsun.

[136] Bax: http://www.musicamoviles.com/HLDK72dv4C0/almaz-elesgerli-novruzum-2014/

Nəqərat
*Novruzum, ay novruzum,*
*Gəl, sənə uğur olsun.*
*Sil dərdimi-sərimi,*
*Yenə çal-çağır olsun.*

Novruzum, ay novruzum,
Səni bəxtimə yozum.
Gur yansın bayram şamı,
Onu ömrümə yazım.

Novruzum, ay novruzum,
Gəl, yoluna gül düzüm.
Bənövşə ətri ilə,
Gülsün gecəm-gündüzüm.

**11.** Azərbaycanın əməkdar incəsənət xadimi, Nadir Əzimovun ( Bax: Şəkil № 162) müəllifi bilinməyən bir şairin "Novruz bayramınınz mübarək olsun"[137] adlı sözünə bəsdələdiyi şən - şux əhval - ruhiyyəli mahnısını Azərbaycanın Respublikasının əməkdar artisti, xanım müğənnimiz Mətanət İsgəndərlinin ( Bax: Şəkil № 163) ifasından



Şəkil № 162. Nadir Əzimov



Şəkil № 163. Mətanət İsgəndərli

dinlədiyimizdə, bu musiqinin mətnindən, mövzunun bahar ayının gözəl günü olan, Novruz bayramına həsr edildiyinə inanırıq:

Bu gözəl yurduma, ilk bahar gəlib,
Ən şirin, ən gözəl arzular gəlib.
Təbiət əlində xonçalar gəlib,
Novruz bayramınız mübarək olsun.

Nəqərat
*Mübarək olsun, mübarək olsun,*
*Novruz bayramınız mübarək olsun.*

Səməni düzülüb indi yan-yana,
Xoş ətir yayılır bu şirin cana.
Bahar xoş gəlibdir Azərbaycana
Novruz bayramınız mübarək olsun.

Bayramlar gözəli, novruz bayramı,
Elimin, obamın əziz bayramı.
Qoy desin ürəkdən, qoy desin hamı,
Novruz bayramınız mübarək olsun.

[137] Bax: https://www.youtube.com/watch?v=vYgk-VQloGw

**12.** Sözləri Təranə Abbasovaya aid olan, Asəf An (Bax: Şəkil № 164) adlı bəstəkar - müğənnimizin estrada üslubunda ifa etdiyi "Novruz gəlir"[138] isimli mahnısının mətnindən, elimizə baharın gəlişini müjdələyən novruz bayramına həsr olunduğuna inanırıq:



Şəkil № 164. Asəf An

Baharın ətrini yayıb, çəmənə, çölə düzə,
Təbiəti oyadır, Novruz gəlir elimizə.

Gəlin verək biz əl-ələ,
Yallı gedək, halay çəkək,
Deyək, gülək, əylənək,
Novruz gəlir mübarək.
Bahar gəlir elimizə,
Novruz gəlir elimizə.

Nəqərat

*Qaranquşlar xəbər verir,*
*Bahar gəlir, yaz gəlir.*
*Novruz gəlir elimizə.*
*Təbiətdən, insanlardan,*
*Xoş ovqat, xoş avaz gəlir.*
*Bahar gəlir elimizə,*
*Novruz gəlir elimizə.*

Kosa, Keçəl bahar qızıyla,
Qapıları tək-tək döyək.
Təbrik edək, müjdə alaq,
Novruzun bol süfrəsində,
Tonqal üstən tullanağın,
Sulaşıb ayrılaşarıq,
Niyyət tutaq, qapı pusaq,
Novruzu xoş qarşılayaq.
Bahar gəlir elimizə,
Novruz gəlir elimizə.

**13.** Azərbaycanın Respublikasının xalq artisti, istedadlı müğənni Aygün Kazımovanın



Şəkil № 165. Aygün Kazımova

[138] Bax: https://www.youtube.com/watch?v=o37POiAASD4

(Bax: Şəkil № 165) ifa etdiyi "Novruzum"[139] mahnısı da Novruz bayramına həsr olunmuşdur:

Açın qapıları, taybatay açın,
Novruzum Vətənə vüqarla gəlir.
Duyub arzusunu yarın-yoldaşın,
Könüllər dindirən baharla gəlir.

Nəqərat

*Novruzum təzəlik gətirsin yenə,*
*Göylərə açılan yollara gəlsin.*
*Bizim el bağına, bizim gülşənə,*
*Qoy dövlətlə gəlsin, qoy varla gəlsin.*
*Novruzum, Novruzum, Novruzum gəlsin,*
*Novruzum Vətənə vüqarla gəlsin*

Gəlsin, göz üstündə yeri var onun,
Dodağında təzə təranə gəlsin.
Yolunu gözləyir bu diyar onun,
Mərdlər ocağına mərdanə gəlsin.

**14.** Bəstəkarı və şairi anonim olan, Azərbaycan Respublikasının xalq artisti Brilliant Dadaşovanın (Bax: Şəkil № 111) oxuduğu, "Novruz bayramı"[140] adlı mahnı, adından və mətnindən də anlaşıldığı kimi Novruz bayramı üçün yazılmışdır:

Əssin, əssin sərin külək,
Arzularla dolsun ürək.
Axşam üstü gizlənərək,
Qapı pusub, tutaq dilək.

Nəqərat

*Qaranquşum get yaz gilə,*
*Yaz yağmuru çilə, çilə.*
*Qonaq gəlir bizim elə,*
*Novruz bayramı.*
*Xoş gəlmisən bizim elə,*
*Novruz bayramı.*

Yaşıl açsın hər bir budaq,
Qapı döyüb papaq ataq.
Çərşənbələr axşamında,
Şam yandırıb, xonça tutaq.

**15.** Bəstəkarı, şairi və müğənnisi anonim olan "Bayram günündə"[141] adlı şən - şux əhval-ruhiyyəli musiqinin sözlərinə diqqət etdiyimizdə Novruz bayramına həsr edildiyi anlaşılır.

Könüllər açmış çiçək,
Bil bu bayram günündə.
Sevinir sevən ürək,
Bil bu bayram günündə.

---

[139] Bax: http://www.musicamoviles.com/n7QB9eQ9DGY/ayg-n-kaz-mova-novruzum/
[140] Bax: https://www.youtube.com/watch?v=P3QMrs7jfi4
[141] Bax: https://www.youtube.com/watch?v=TVItaDw7v0Y 4:11 – 7:46

Sevinir hər bir ocaq,
Sevinir qoca, uşaq,
Şəki, Şirvan, Qarabağ,
Bil bu bayram günündə.

Nəqərat
*Sac üstə xallı, fətir,*
*Qoğalı yağlı gətir.*
*Ulduzlar yallı gedir,*
*Bil bu bayram günündə.*

Ürəklər Novruz sevir,
Bil bu bayram günündə.
Qonağı var hər evin,
Gəl bu bayram günündə.

Əziz xoş təranədir,
Sanki lap əfsanədir.
Hər şama pərvanədir,
El bu bayram günündə.

**16.** Bəstəkarı, şairi və müğənnisi anonim olan "Bayram gəlir, Azəri xalqı sevinir"[142] rədifli şən - şux əhval-ruhiyyəli musiqinin sözlərinə diqqət etdiyimizdə Novruz bayramının mübarək gəlişinə həsr edildiyi anlaşılır:

Novruzum gəlir yurduma.
Yaraşır oğul, qızıma.
Süfrələrə şamlar bəzək verir,
Hər tərəf al-əlvan geyir.

Ey doğma ana Vətən,
Hər yeri gözəl, gülşən Azərbaycan.

Nəqərat

*Bayram gəlir, Azəri xalqı sevinir burda,*
*Bayram gəlir, könüllərə nur ələnir Novruz.*
*Bayram gəlir, Azəri xalqı sevinir burda,*
*Bayram gəlir, könüllərə nur ələnir.*

Sevilərdi, nə gözəldi,
Paxlava, qoğal şipşirin,
Keçəlin, Kosanın payın verin,
Oynayın, gülün, əylənin.

Ey doğma ana Vətən,
Hər yanın gözəl-göyçək Azərbaycan.

Nəqərat

*Bayram gəlir, Azəri xalqı sevinir burda,*
*Bayram gəlir, könüllərə nur ələnir.*

[142] Bax: https://www.youtube.com/watch?v=TVItaDw7v0Y 19:09 - 22:48

**17.** Xanım müğənnilərimizdən Xatirə İslamın ifa etdiyi ( Bax: Şəkil № 166), fəqət şairini və bəstəkarını bilmədiyimiz müəlliflərin “Bahar bayramı”[143] adlı mahnısının mətni də Baharın xoş gəlişinə, Novruz bayramına həsr olunmuşdur:



Şəkil № 166. Xatirə İslam.

Bahar gəlir, yaz gəlir,
Anam Azərbaycana,
Səmənilər hər evdə,
Düzülübdür yan-yana.

Nəqərat
*Deyib gülüb şənlənək,*
*Aləm sevinclə dolsun,*
*Bu bayram gecəsində,*
*Hər arzumuz çin olsun.*

*Gəlin dostlar, gəlin yandıraq şamı,*
*Dövrə vuraq şənlik eyləsin hamı.*
*Çox yaraşır yurdumuza, elimizə,*
*Bahar bayramı.*

Hər tərəf əlvan geyir,
Naz eyləyir gül-gülə,
Sevənlər sevilənlər,
Seyrə çıxır əl-ələ.

Səsimiz Qarabağı,
Zəngəzuru dolaşsın.
Kaş qələbə xəbəri,
Bu bayrama qarışsın,

Bahar gəlir yurdumuza, elimizə,
Sevinc gətir ömrümüzə, günümüzə.
Qələbə müjdəsi gətirəydi kaş,
Bu bayram bizə.

## 13. AZƏRBAYCANIN MUSİQİ MƏTNLƏRİNDƏ YAZIN - BAHARIN İZLƏRİ

Azərbaycan xalq musiqisinin bir çox örnəklərini professional və ya həvəskar bəstəkarlarımızın fərqli mövzularda yazmış olduğu əsərlərini, tanınmış sənətcilərimizin ifasında dinlədiyimiz zaman, mətnlərin bəzi məqamlarında, yəni bəndin hər hansı bir misralarında, nəqərat qismində “bahar”, “yaz”, “ilk bahar” adının ötərgi olaraq keçməsini müşahidə edirik. Təbii ki, bu qəbildən olan havaları “bahara, novruza həsr edilmiş mahnılar” deyil, sadəcə bu bayramı, yaz mövsümünü xatırladan mahnılar adlandıra bilərik. Aşağıdakı bir çox örnəklərə nəzər saldığımızda bunun konkret şahidi oluruq.

[143] Bax: https://www.youtube.com/watch?v=Ttcufc4_5c4

**1.** Bəstəkarı və şairi anonim olan və Respublikamızda vokal sənətinin banisi, professor Bülbül Məmmədovun (Bax: Şəkil № 83), ifasında "Gülə-gülə ay xanım"[144] adlı Azərbaycan xalq mahnısını dinlədiyimiz zaman musiqinin mətn qismindən mövzunun bir gözələ aid olduğu anlaşılır. Lakin bununla belə bahar, yaz motivləri, gül, çiçək isimləri də diqqəti çəkir:

Yasəmənlər açıb çiçəklənəndə,
Bənövşələr büküb boynun əyəndə.
Şeh düşübən, güllər də şehlənəndə.

Nəqərat:
*Gülə-gülə ay xanım,*
*Gülə-gülə al canım.*

Gülüşlərin cingildəsin saz kimi,
Hər tərəfə yayılsın avaz kimi.
Sən güləndə könül gülsün yaz kimi.

**2.** Sözü və musiqisi anonim olan "Maralıyam" adlı xalq mahnısında baharın gəlişi zamanı, gənclərin biraraya gələrək şənlənib, rəqs etmələri, bağ-bağcaya girib əlvan rəngli güllərdən dəstə tutub bir-birlərinə hədiyyə vermələri bu misralarla qeyd olunmuşdur:

Yaz olcağın yığışırlar uşaqlar,
Tapışırlar o vaxt yavuq, uzaqlar,
Ay dadaş, atma daş, mən yaralıyam,
Şəkinin, Şirvanın mən maralıyam.

**3.** Sözü və musiqi müəllifləri bilinməyən "Bibxanım" [145] adlı xalq mahnısında da bahar mövsümünün gəlməsi, ilk bəndin ilk misrasında belə ifadə olunmuşdur:

Budur gəldi bahar ayı,
Gəl gedək evə, Bibxanım.
Evim, malım, şirin canım,
Sənə sadağa, Bibxanım.

**4.** Musiqisi və söz yazarı anonim olan "Niyə, bala"[146] adlı qədim xalq mahnısını müğənnilərimizin ifasında dinlədiyimiz zaman, qonşuluqda yaşayan gənc bir qızın gözəllikdə ilk bahara bənzədiyini, ilk bəndin ikinci misrasında da müşahidə edirik:

Qonşuluqda bir qız vardır,
Gözəllikdə ilk bahardır.

**5.** Sözü və musiqisi anonim olan "Səndən mənə yar olmaz" adlı qədim Azərbaycan xalq mahnısının ilk bəndinin 3-cü və 4-cü misrasında deyilir edilir ki, bülbül olmadan yüz mindən artıq çiçəklərin, əlvan rəngli güllərin açması hələ yazın, novbaharın gəlişini ifadə etmir:

Səndən mənə yar olmaz,
Əhdə vəfadar olmaz.
Yüz min gül-çiçək olsa,
Bülbülsüz bahar olmaz.[147]
Nəqərat:

---

[144] Bax: https://www.youtube.com/watch?v=l2j_rMuqoBY saat: 1:39-2:34
[145] Bax: http://elibrary.bsu.az/kis/1603.pdf S.108, Mikrosof Word – El chelengi.doc S. 55, Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 379.
[146] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 388
[147] Bax: http://elibrary.bsu.az/kis/1603.pdf S. 140., Mikrosof Word – El chelengi.doc S. 71.

*Küsdürmüsən çək nazımı,*
*Qışa döndərmə yazımı.*
*Çalıb dindirmə sazımı,*
*Yaralıyam yar, yar.*

**6.** Qənbər Hüseynlinin (Bax: Şəkil № 96), Azərbaycanın əməkdar incəsənət xadimi, şair İslam Səfərlinin ( Bax: Şəkil № 167 ) "Nə vaxta qaldı?"[148] adlı şeirinə bəsdələdiyi musiqini xanəndə Feyruz Səxavətin (Bax: Şəkil № 168), ifasında dinlədiyimiz zaman, nəqərat qisminin ilk misrasından bahar ayının mübarək qədəmləri ilə çiçəklərin açılması, məcazi anlamda çəmənin, çöllərin, düzlərin gülüb sevinməsini bu poetik misra ilə hiss edirik:


Şəkil № 167.İslam Səfərli


Şəkil № 168. Feyruz Səxavət

Qönçələr açılıb, gülür çəmən, düz,
Hər axşam tarladan qayıdanda biz.

**7.** Şair Nüsrət Kəsəmənlinin ( Bax: Şəkil № 118) "Niyə gəlmədin?"[149] adlı şeirinə, İsrail Kərimovun (Bax: Şəkil № 169) bəsdələdiyi musiqinin mətninin ilk bəndində, sevən


Şəkil № 169. İsarail Kərimov

aşiqin yaz günündə intizar, həsrət içərisində sevgilisinin yolunu gözlədiyini, fəqət nədən gəlib çıxmadığını poetik misralarla gileylənərək dərdini belə bəyan edir:

Yaz günü səni gözlədim,
Yaz günü səni izlədim.
Ümidlə tez gəl, dedim,
Yay oldu, niyə gəlmədin,
Gözlədim, niyə gəlmədin?!

**8.** Bir çox şairlərimiz bəzən gözəl-göyçək qızlarımızı baharla müqayisə etmiş, onların yerişini məcazi mənada baharın gəlməsinə, zənənlərimizi yaz mövsümünün ilk çiçəyinə, dodaqlarını isə gül ləçəyinə bənzətmişdir. Respublikamızın xalq artisti Ramiz Mirişlinin (Bax: Şəkil № 103), Azərbaycanın xalq şairi Fikrət Qocanın (Bax: Şəkil № 15) "Aman-aman"[150] rədifli şeirinə bəsdələdiyi musiqidə ifa olunan mətnin ilk bəndində qeyd etdiklərimiz bu poetik misralarla verilmişdir:

---

[148] Bax: İlqar İmamverdiyev, «Azərbaycan rəqs havaları», 1. cilt, "Nurlan" yayınevi, Bakı–2007, S. 137–142
[149] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 389.
[150] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 19.

Özü yazın ilk çiçəyi,
Dodaqları gül ləçəyi.
Tay eyləmə hər göyçəyi,
Göz-qaşından aman-aman.

**9.** Sevil Heydər qızı Əliyevanın (Bax: Şəkil № 170) Azərbaycanın xalq şairi Fikrət Qocanın (Bax: Şəkil № 15) "Anam"[151] rədifli şeirinə bəsdələdiyi musiqinin mətn hissəsində,



Şəkil № 170. Sevil Əliyeva

hər birimiz üçün əziz olan, qəlbi billur kimi saf, könlü kövrək, ruhu ipək, şirin sözlü analarımızı "eşqin solmaz baharı" adlandırmaqla onlara verdiyi dəyəri aşağıdakı poetik misralarla belə ifadə etmişdir:

Əziz anam, şirin sözlü anam,
Qəlbin kövrək, eşqin solmaz bahar.

**10.** Azərbaycan Respublikasının xalq artisti Tofiq Quliyevin (Bax: Şəkil № 91), şair Ələkbər Ziyatayın (Bax: Şəkil № 171) Bakı şəhərinə ithaf etdiyi "Bakı"[152] bəsdələdiyi



Şəkil № 171. Ələkbər Ziyatay

bəsdələdiyi musiqinin mətnində də, Bahar mövsümünün Azərbaycana xoş gəlişi ilə insanların qəlbən sevinməsini ilk bəndin ilk beyitində belə izhar etmişdir:

Ürəklər açılır, baxsan hər yana,
Bahar xoş gəlibdir Azərbaycana.
Sevirəm Xəzərin qucağındakı,
Ey əziz, ey gözəl, mehriban Bakı.

**11.** Azərbaycan Respublikasının xalq artisti Cahangir Cahangirovun (Bax: Şəkil № 93), xalqımızın nəğməkar şairi Zeynal Cabbarzadənin ( Bax: Şəkil № 92) "Harda qalmısan?"[153] adlı şeirinin nəqərat qismində ilk baharın gəlməsi aşağıdakı poetik misralarda ifadə olunmuşdur:

İlk bahar gəldi,
Durnalar gəldi.
Bircə sən gəlib çıxmadın,
Harda qalmısan?

---

[151] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 26.
[152] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 68.
[153] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı-2007, S. 236

Cahangir Cahangirovun “Şur” məqamında bəsdələdiyi, lirik musiqiyə əsaslanan şeirin mövzusu gözü yollarda qalan sevən aşiqin öz sevgilisinin gəlməsini intizarla gözləməsindən bəhs edir. İlk baharın tədricən ana Vətənimizin dağlarına, bağlarına, yaylaqlarına qədəm qoyması ilə birlikdə durnaların da gəldiyini, fəqət könül verib sevdiyi qızın nədən gəlmədiyini, bunun səbəbini öyrənməyə çalışmaqla, üzüntülü bir tərzdə incidiyini, təəssüf nidaları ilə belə ifadə edə bilmişdir:

Qeyd etməliyik ki, 1960-cı illərin əvvəllərində bu kövrək duyğusal lirik mahnının ən gözəl ifaçıları SSRİ xalq artisti, dünya şöhrətli populyar müğənni Rəşid Behbudov (Bax: Şəkil № 19) və Azərbaycan Respublikasının xalq artisti Şövkət Ələkbərova (Bax: Şəkil № 70) olmuşdur. Məşhur müğənnilərimizin ifasından sonra bu əsər qardaş türk ellərinə də qanad açmış, Seda Bağcan ( Bax: Şəkil № 172) adlı səs sənətcisinin də repertuarında yer almışdır. Suavi adında şair-müğənni (Bax: Şəkil № 173) isə bu musiqini yeni bir aranjimanda, digər yorumda, təəssüf ki, orijinal sözlərin təhrif edilməsi ilə bir qədər fərqli variantda ifa etmişdir.


Şəkil № 172.Seda Bağcan


Şəkil № 173. Suavi

**12.** Azərbaycan Respublikasının xalq artisti Cahangir Cahangirovun (Bax: Şəkil № 93), xalqımızın nəğməkar şairi Ənvər Əlibəylinin (Bax: Şəkil № 78) “Bahar olsun” rədifli şeirinə bəsdələdiyi musiqini, Azərbaycanın xalq artisti Sara Qədimovanın (Bax: Şəkil № 174)


Şəkil № 174. Sara Qədimova

ifasından dinlədiyimiz zaman nəqərat qismində bahar kəliməsi bu misralarla verilmişdir:

Nəqarət:
*Mən gülüm, gülsün çəmənlər,*
*Ay ceyran sevgilim!*
*Qoy, açsın güllər-gülşənlər,*
*Mehriban sevgilim!*[154]
*Sevinsin qəlbdən sevənlər*
*Hər zaman, sevgilim!*
*Ömrümüz xəzan bilməz bahar olsun!*

**13.** Azərbaycan Respublikasının xalq artisti Səid Rüstəmovun (Bax: Şəkil № 23), xalqımızın nəğməkar şairi Tələt Əyyubovun (Bax: Şəkil № 175), “Bahar olsun” rədifli şeirinə bəsdələdiyi musiqini Naxçıvan Muxtar Respublikasının əməkdar artisti Ehtiram Hüseynovun (Bax: Şəkil № 176), ifasında dinlədiyimizdə, sözün nəqərat qismində bahar olsun kəlməsi

[154] Bax: https://sozmusiqi.wordpress.com/az/composer/cahangir-cahangirov/bahar-olsun/



Şəkil № 175. Tələt Əyyubov



Şəkil № 176. Ehtiram Hüseynov

bu misralarla ifadə olunmuşdur:

Nəqarət:

*Qoy, bizim dövranımız bahar olsun, yar!*
*Əhdimiz, ilqarımız, qoy, var olsun, yar!*
*Ömrümün bu güllü, bülbüllü çağında*
*Nə boran, nə tufan, nə qar olsun, yar!*[155]

**14.** Respublikamızın xalq artisti Ramiz Mustafayevin ( Bax: Şəkil № 177) Azərbaycanın xalq şairəsi Mirvarid Dilbazinin ( Bax: Şəkil № 178) "Anam yadıma düşdü"[156] rədifli şeirinə



Şəkil № 177. Bamiz Mustafayev



Şəkil № 178. Mirvarid Dilbazi

bəsdələdiyi musiqinin mətnindən baharın yazın nəfəsi hiss olunur. Mirvarid xanım kövrək poetik misralarla qeyd edir ki, ılıq meh əsərkən, yaz gəlməyə tələsir, anam yadıma düşərkən ürəyim yarpaq kimi əsir:

İlıq küləklər əsdi,
Yaz gəlməyə tələsdi.
Mənim ürəyim əsdi,
Anam yadıma düşdü.

Nəqərat

*Bənövşə dəstə-dəstə,*
*Qızıl gül yarpaq üstə.*
*Sular axır ahəstə,*
*Anam yadıma düşdü.*

**15.** Respublikamızın xalq artisti Şəfiqə Axundovanın (Bax: Şəkil № 179) Azərbaycanın xalq şairi Süleyman Rüstəmin (Bax: Şəkil № 180) "İlk baharım" [157] şeirinə bəsdələdiyi musiqinin mətnindən, aşiqin qürurlanıb iftixar etdiyi işvəli-nazlı yarını ilk bahara bənzətmişdir:

[155] Bax: https://www.youtube.com/watch?v=pu_UHQcaCJk
[156] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı-2007, S. 28.
[157] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı-2007, S. 262



Şəkil № 179.Şəfiqə Axundova



Şəkil № 180. Süleyman Rüstəm

Könül verib bir gözələ,
Düşdü adım dildən-dilə.
Ürəyimə vurdu yara,
Ala gözlüm gülə-gülə.
Nazlı yarım, iftixarım,
İlk baharım, gəl.

**16.** Azərbaycanın Respublikasının xalq artisti Səid Rüstəmovun ( Bax: Şəkil № 23) istedadlı şairimiz İslam Səfərlinin (Bax: Şəkil № 167) "Gəldi bahar" rədifli şeirinə bəsdələdiyi musiqini, məşhur xanəndə Qulu Əsgərovun (Bax:Şəkil № 181) ifasında



Şəkil № 181. Qulu Əsgərov

dinlədiyimiz zaman, mövzunun əsasən gözələ aid olduğu, anlaşılır. Lakin ilk bəndin üç misrasınna nəzər saldığımızda baharın gəlişi bu misralarla xatırladılır:

Bağçamıza gəldi bahar,
Yaşıl xalı sərdi bahar.
Gəl dedim, gəlmədi yar,
Gəlmədi yar.[158]

**17.** Azərbaycanın Respublikasının xalq artisti Səid Rüstəmovun ( Bax: Şəkil № 23) istedadlı şairimiz Zeynal Cabbarzadənin (Bax: Şəkil № 92) "Alagöz"[159] rədifli şeirinə bəsdələdiyi musiqinin ikinci bəndin ilk misrasında mübarək bahar mövsümünün xoş gəlişi bu poetik sözlərlə ifadə olunmuşdur:

Bülbül gələr yaz ilə,
Yarım oynar saz ilə.
Hər baxanda naz ilə,
Ürəyimi çala göz.

Yeri gəlmişkən onu da qeyd etməliyik ki, ikinci bəndin ikinci misrası Rafiq Babayevin Bakıda 2007-ci ildə "Min bir mahnı" yayınevi tərəfindən yayınlanmış VI nəşr "Min bir mahnı" adlı kitabının 15-ci səhifəsində "Yarım oyanar? saz ilə" variantında təhrif edilməklə sözün mənası tamamilə dəyişmişdir. Orijinal variantda yarın saz müşayiətində rəqs etməsi, yanlış veriantda isə yarın saz səsi ilə yuxudan oyanması anlamına gəlir. Eynı zamanda 1-ci, 3-cü, və 4-cü mısralar 7 hecalı olduğu halda, təkcə 2-ci mısra 8 hecalı olmuşdur. Aşağıdakı örnəkdən şeirin formasının pozulduğunu görürük.

---

[158] Bax: https://www.youtube.com/watch?v=oHsxTG3YJ0Q
[159] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı-2007, S. 15

Nümunə № 1

***Düzgün versiya***

Ya – rım oy – nar saz i – lə.
1 2 3 4 5 6 7

***Yanlış versiya***

Ya - rım o – ya – nar saz i – lə
1 2 3 4 5 6 7 8

Ayrı-ayrı sənətkarların ifalarında bu musiqini dinlədiyimizdə şeirin ilk bəndinin də təhrif olunduğunu müşahidə edirik. Azərbaycanın əməkdar artisti İdris Mehdiyevin (Bax: Şəkil № 182) ifasında bu bənd orijinal variantda[160] olduğu kimidir:



Şəkil № 182. İdris Mehdiyev

Düşər üzdə xala göz,
Şirin canım, Alagöz!
Qara gözə can qurban,
Yaman olur ala göz.

Yusif Savalan ( Bax: Şəkil № 183) adlı səs şənətcisi isə ikinci misranı orijinalda olduğu gibi (Şirin canım, Alagöz!) değil, yanlış versiyada "Yaman olur ala göz??"[161] variantında



Şəkil № 183.Yusif Savalan

oxumuşdur. Üçüncü misrada isə "Qara gözə can qurban" əvəzinə diğər ikinci bir variantda "Qara göz can alandı"[162] oxumuşdur. Onu da qeyd etməliyik ki, bu misra Rafiq Babayevin Bakıda 2007-ci ilində "Min bir mahnı" yayınevi tərəfindən VI nəşr "Min bir mahnı" adlı kitabının 15-ci səhifəsində "Qara gözə dadandım ??" variantında verilmişdir.

**18.** Respublikamızın xalq artisti, professor Sevda İbrahimovanın (Bax: Şəkil № 184) Azərbaycanın əməkdar incəsənət xadimi şair Baba Vəziroğlunun (Bax: Şəkil № 185), "Ana laylası"[163] adlı şeirinə bəsdələdiyi musiqinin ilk bəndində, bizlər üçün müqəddəs olan, əziz analarımızın hər kəlməsinin baldan şirin olduğunu, nəğmələrimizin tacı adlandıraraq, onların körpələrinə oxuduqları laylalarını isə baharın həzin mehinə bu poetik misralarla bənzətmişdir:

---

[160] Bax: Səid Rüstəmov, "Mahnı və romanslar", "Muzıka" nəşriyyatı, Moskva, 1977, səh 33-35
[161] Bax: https://www.youtube.com/watch?v=L8rX06Y3vMM Bax: 0:45- 0:51
[162] Bax: https://www.youtube.com/watch?v=L8rX06Y3vMM Bax: 0:52 – 0:57
[163] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 24.



Şəkil № 184. Sevda İbrahimova



Şəkil № 185. Baba Vəziroğlu

Yaz mehidi, sərin-sərin,
Hər kəlməsi baldan şirin.
O, tacıdı nəğmələrin,
Ana laylası.

**19.** Respublikasının xalq artisti Tofiq Quliyevin ( Bax: Şəkil № 91), Azərbaycanın xalq şairi Rəsul Rzanın (Bax: Şəkil № 186), "Axşam görüşləri"[164] adlı şeirinə bəsdələdiyi



Şəkil № 186. Rəsul Rza

musiqinin nəqərat qismində əşrəfi - məxluqat adlandırılan müqəddəs insanların qəlbini bahara bənzətmişdir:

Ulduzlar yaxın-uzaq,
Düzülüb çıraq-çıraq.
Ulduzları çağıraq,
Axşam görüşlərinə.

Nəqərat

*Hər könüldə bir bahar,*
*Gəlsin dostlar, tanışlar.*
*Gəlsin nəğməli quşlar,*
*Axşam görüşlərinə*

**20.** Vətənimizin şair övladı Hikmət Mahmudun (Bax: Şəkil № 187) "Ad günün mübarək"[165] rədifli gəraylısına, İsrail Kərimovun (Bax: Şəkil № 169) bəsdələdiyi musiqinin mətnində, aşiqin ülvi məhəbbətlə



Şəkil № 187. Hikmət Mahmud

[164] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 11.
[165] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 6.

sevdiyi, camalı günə, aya bənzəyən, könlünün şirin avazı olan sevgilisini "ilk bahar"a, "ilk yaz"a bənzətməsi, birinci bəndinin birinci misrasında öz əksini tapmışdır:

İlk baharım, ilk yazımsan,
Qəlbimdəki ulduzumsan.
Mənim şirin avazımsan,
Gülüm, ad günün mübarək!

**21.**Respublikanın xalq artisti Emin Sabitoğlunun (Bax: Şəkil № 108), Azərbaycanın xalq şairi Süleyman Rüstəmin (Bax: Şəkil № 180) "Axtararsınız"[166] rədifli şeirinə, bəsdələdiyi musiqini, SSRİ xalq artisti Zeynəb Xanlarovanın ( Bax: Şəkil № 188) ifasından dinlədiyimiz zaman nəqərat qismində, mahnının söz yazarı tövsiyə edir ki, *"İlk bahar mövsümü gəldiyi zaman məni, İsa bulağında, Araz qırağında, sonalı göllərdə axtarın"*:



Şəkil № 188. Zeynəb Xanlarova

İlk bahar çağında,
İsa bulağında.
Araz qırağında,
Sonalı göllərdə axtararsınız.

**22.** Azərbaycanın xalq artisti Emin Sabitoğlunun (Bax: Şəkil № 108), Respublikamızın xalq şairəsi, Nigar Rəfibəylinin ( Bax: Şəkil № 189 ) "Ala gözlüm"[167] adlı sözünə



Şəkil № 189. Nigar Rəfibəyli

bəsdələdiyi musiqidəki mətnin nəqərat qismində,qəlbən sevdiyi ömür - gün yoldaşını bahar mövsümündə, yaz axşamı həzin-həzin anmağını bu kövrək poetik misra ilə qeyd etmişdir:

Yaz axşamı səni bil ki, bu Nigar,
Həzin-həzin yada salır, neyləyim.

**23.** Azərbaycanın Respublikasının xalq artisti Eldar Mansurovun (Bax: Şəkil № 141), şair Vahid Əzizin (Bax: Şəkil № 142) "Aldatma məni"[168] adlı şeirinə bəsdələdiyi musiqinin ilk bəndinin ikinci beytində, özünü qışın sonunda çiçək kimi hiss etdiyi halda, ondan üz döndərmiş aşiqinin bahar mövsümünü görməyə imkan verməməsini, qəmli misralarla dərdini belə izhar etmişdir:

Taleyim gəlmişdin mələk donunda,
İblis libasını gözüm görmədi.
Bir çiçək kimiyəm qışın sonunda,
Baharı görməyə macal vermədin.

[166] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 12.
[167] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 14.
[168] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 16.

**24.** Ələkbər Tağıyevin (Bax: Şəkil № 139), Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadənin (Bax: Şəkil № 133) şeirinə bəsdələdiyi və Respublikanın xalq artisti Nisə Qasımovanın (Bax: Şəkil № 144) ifa etdiyi "İstəyirəm görəm səni"[169] adlı mahnıda da baharın, yazın gəlişini, gül-çiçəklərin ətrafa xoş ətirlər saçmasını ifadə edən poetik söz, birinci və üçüncü misrada belə verilmişdir:

Bahar gəlir göy-çəmənə, yar,
İstəyirəm görəm səni.
Ətir saçır yasəmənə, yar,
İstəyirəm görəm səni.

**25.** Respublikanın xalq artisti Əlibaba Məmmədovun (Bax: Şəkil № 152), Azərbaycanın əməkdar incəsənət xadimi şair Tofiq Mütəllibovun (Bax Şəkil № 190) "İlk
:



Şəkil № 190. Tofiq Mütəllibov

bahar tək"[170] adlı şeirinə diqqət yetirdiyimiz zaman mövzunun sevən bir aşiqin, eşqini bəyan etdiyi ilk məhəbbətinə xitabən yazıldığını görürük. Ayrılığına tab gətirmədiyi sevgilisinin atəşinə yandığı üçün, onu bu həsrətdən qurtarmasını, bir an öncə gəlməsini diləyir. Musiqinin nəqərat hissəsində sevda giriftarına mübtəla olmuş gəncin intizarla yolunu gözlədiyi ilk eşqinin gəlişini ilk baharın, yazın gəlişinə bənzətməsini poetik misralarda belə ifadə etmişdir:

Gəl, gəl tez gəl, döyünsün ürək,
Gəl, gəl sən gəl, ilk bahar tək.

**26.** Sözləri Aşıq Pənah Pənahova (Bax: Şəkil № 191), musiqisi isə Azərbaycan Respublikasının xalq artisti Əlibaba Məmmədova ( Bax: Şəkil № 152) aid olan "Yurdum"[171]



Şəkil № 191 Aşıq Pənah Pənahov

adlı gəraylısında, ana Vətənimizi məcazi anlamda xəzan bilməz bahara bənzətmişdir:

Xəzan bilməz bahar kimi,
Çiçəklənib ana yurdum.
Xalqımızın zəhmətilə,
Dönüb gülüstana yurdum.

**27.** Şirvan aşıq məktəbinin tanınmış sənətkarı, Azərbaycanın əməkdar mədəniyyət işçisi Əhliman Rəhimovun ( Bax: Şəkil № 192 ) son illərdə yazdığı, qısa bir zamanda

---

[169] Bax: https://www.youtube.com/watch?v=fdrw9P5BeMw
[170] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı-2007, S. 262
[171] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 25.



Şəkil № 192. Əhliman Rəhimov

poplulyarlaşan “Naz eyləyir”[172] rədifli şeiri, çağdaş günümüzün aşıqlarının və müğənnilərin repertuarında da yer almışdır. Əsasən “Şirvan gözəlləməsi” adlı saz havası üstündə ifa olunan bu şeririn ilk bəndinin ilk beyti baharın, yazın gəlişi ilə bülbüllərin gül-çiçəklərə naz etməsi poetik misralarla belə ifadə olunmuşdur:

Yenə gəlib yaz ayları,
Bülbül gülə naz eyləyir.
Sevirəm sözün deməyə,
Dodaq dilə naz eyləyir.

**28.** Şairə xanım Rüzgar Əfəndiyevanın ( Bax: Şəkil № 193), “Axtarma məni”[173] adlı şeirinə, Azərbaycan Respublikasının xalq artisti müğənni - bəstəkar Niyaməddin Musayevin (Bax: Şəkil № 194), bəsdələdiyi duyğusal musiqinin mətnində, məcazi mənada öz varlığını



Şəkil № 193. Rüzgar Əfəndiyeva



Şəkil № 194. Niyaməddin Musayev

artıq bahar mövsümündən çox uzaq olduğunu, bu səbəblə də özünü qarlı qışa bənzətdiyi üçün, qəlbini sındırmış aşiqindən, onu axtarmamasını bu poetik misra ilə rica etmişdir:

Gəzdiyim yerləri çox dolanmışam,
Eşqinin oduna gizli yanmışam.
Artıq bahar deyil, qarlı bir qışam,
Odlanıb yansan da, axtarma məni.

**29.** Gənc şairimiz Anar Məmmədovun (Bax:Şəkil № 195), “Axtarıram mən səni”[174] adlı



Şəkil № 195. Anar Məmmədov

şeirinə Vaqif Süleymanovun ( Bax: Şəkil № 113), bəsdələdiyi musiqinin nəqərat hissəsində, öz sevgilisini baharın gəlişi zamanı axtarmasını bu poetik misra ilə qeyd etmişdir:

---

[172] Bax: https://www.youtube.com/watch?v=AAFcc05Tzxk
[173] Bax: Rafiq Babayev, “Min bir mahnı” VI nəşr, “Min bir mahnı” yayınevi, Bakı - 2007, S. 13.
[174] Bax: Rafiq Babayev, “Min bir mahnı” VI nəşr, “Min bir mahnı” yayınevi, Bakı - 2007, S. 13.

Fəsillər dəyişəndə,
Baharın gəlişində.
Sevənlər görüşəndə,
Axtarıram mən səni.

**30.** Respublikamızın xalq artisti, məşhur kaman ustadı Habil Əliyevin (Bax: Şəkil № 196) Azərbaycanın xalq şairi Süleyman Rüstəmin ( Bax: Şəkil № 180) "İlk məhəbbətin"[175]



Şəkil № 196. Habil Əliyev

rədifli qoşmasına "Bayatı-Şiraz məqamı"nda bəsdələdiyi lirik-həzin musiqinin ikinci bəndinin ilk mısrasında da gənc oğlanın öz sevgilisini ilk baharda sevdiyini, lakin sevgilisinin vəfasız çıxaraq qış mövsümündə onu tərk etdiyini, bu sevdanın sonatək baş tutmadığını təəssüf hissiləri ilə belə ifadə etmişdir:

Mən onu sevmişəm bir ilk baharda,
O məni tərk etdi boranda, qarda.

Gətirdiyimiz örnəklərdən bir daha aydın olur ki, bir çox fərqli mövzulardakı musiqilərimizin, istər xalq mahnılarında, istərsə də klassik və ya həvəskar bəstəkarların əsərlərinin mətn hissəsində, yazın xoş gəlişi, baharın ab-havası ötərgi də olsa xatırlanmaqda, anılmaqdadır. Bu səbəbdən də, öncə qeyd etdiyimiz kimi, bu qəbildən olan musiqiləri "Bahar motivli, novruz mövzulu mahnılar" adlı qrupa daxil edə bilmərik.

## 14. AZƏRBAYCANIN NOVRUZ TƏRANƏLİ, BAHAR AHƏNGLİ RƏQS MUSİQİLƏRİ

Azərbaycan xalq musiqimizin önəmli bir qolu olan xalq rəqslərimizin isimlərinə diqqət yetirdiyimizdə bahar, novruz adlarını və ya novruz atributlarından olan "Səməni"[176]nin (Bax: Əlavələr bölümü, səh. 142), "İnnabı"[177]nın (Bax: Əlavələr bölümü, səh. 143 - 144) adını, eyni zamanda bahar mövsümündə açan bir çox gül-çiçək: *"Novruz gülü"*[178] (Bax: Əlavələr bölümü, səh. 145), *"Reyhanı"*[179], *"Bağdagülü"*[180], *"Gül dəstəsi"*[181], *"Yasəməni"*[182], *"Dağ çiçəyi"*[183], *"Çəməni"*[184], *"Darçını"*[185], *"Qızıl gül"*[186], *"Lalə"*[187] adlarını özündə yaşatdığını

[175] Bax: Rafiq Babayev, "Min bir mahnı" VI nəşr, "Min bir mahnı" yayınevi, Bakı - 2007, S. 263.
[176] Səməni - Bax: Rauf Bəhmənli, "Azərbaycan xalq rəqsləri", "Adiloğlu" yayınevi, Bakı – 2002, S. 77.
[177] İnnabı - Bax: Rauf Bəhmənli, "Azərbaycan xalq rəqsləri", "Adiloğlu" yayınevi, Bakı – 2002, S. 20. Bax: Rauf İmanov, "Böyük qrup bağça uşaqları üçün musiqi müntəxəbatı", Bakı–1987, S. 99.
[178] Novruz gülü - Bax: Rauf Bəhmənli, "Azərbaycan xalq rəqsləri", "Adiloğlu" yayınevi, Bakı – 2002, S. 45.
[179] Reyhanı - Bax: Rauf Bəhmənli, "Azərbaycan xalq rəqsləri", "Adiloğlu" yayınevi, Bakı – 2002, S. 65.
[180] Bağda gülü - Bax: Rauf Bəhmənli, "Azərbaycan xalq rəqsləri", "Adiloğlu" yayınevi, Bakı – 2002, S. 52.,
[181] Gül dəstəsi - Bax: Rauf Bəhmənli, "Azərbaycan xalq rəqsləri", "Adiloğlu" yayınevi, Bakı - 2002 S. 106.
[182] Yasəməni - Bax: Rauf Bəhmənli, "Azərbaycan xalq rəqsləri", "Adiloğlu" yayınevi, Bakı - 2002, S. 87
[183] Dağ çiçəyi - Bax: Rauf Bəhmənli, "Azərbaycan xalq rəqsləri", "Adiloğlu" yayınevi, Bakı – 2002, S. 137.
[184] Çəməni - Bax: Rauf Bəhmənli, "Azərbaycan xalq rəqsləri", "Adiloğlu" yayınevi, Bakı – 2002, S. 146.
[185] Darçını - Bax: Rauf İmanov, "Böyük qrup bağça uşaqları üçün musiqi müntəxəbatı", Bakı-1987, S. 63.
[186] Qızıl gül - Bax: Rauf Bəhmənli, "Azərbaycan xalq rəqsləri", "Adiloğlu" yayınevi, Bakı – 2002, S. 37.

müşahidə edirik. Hətta Dədə Şəmşirin (Bax: Şəkil № 10) repetuarında "Lalə"[188], "Qızıl gül"[189] adlı fərqli melodiyalı klassik saz havalarına da rast gəlirik. *"Bənövşə"[190], "Heyva gülü"[191], "Alma gülü"[192], "Alça gülü"[193]* adlı rəqs havalarının bəstəkarı, ilk ifaçısı məşhur zurna-balaban ustadı Əli Kərimov (Bax: Şəkil № 197) olmuşdur.



Şəkil № 197 Əli Kərimov

Tempi dəyişik olan "Səməni rəqsi"[194],"Bayram rəqsi" [195], "Bahar rəqsi (1)" [196], "Bahar rəqsi (2)" [197] "Novruzu rəqsi (1)"[198] (Bax: Əlavələr bölümü, səh. 146), "Novruzu rəqsi (2)"[199] adında iki instrumental musiqi nümunələrini, sazəndələrimiz şövqlə çalaraq, rəqqaslarımızın ifasını müşayiət etməkdədirlər. Onu da bildirməliyik ki, bu qəbildən olan bəzi rəqs musiqilərinin, bəstəkarlarının adları məlum olanlarla yanaşı, müəllifləri bilinməyənlər də vardır.

## 15. NƏTİCƏ

Türk dünyasının ən əski bayramlarından biri Novruzdur. Bu şahanə bayram İran, Əfqanıstan istisna olmaqla Türk cumhuriyyətlərində: Qazaxıstanda, Türkmənistanda, Özbəkistanda, Qırğızıstanda, Tacikistanda, Doğu Türkistanda, Türkiyədə və Azərbaycanda hər il rəsmən dövlət səviyyəsində, möhtəşəm bir mərasim olaraq qeyd edilməkdədir. Təsadüfü deyil ki, qədimdən bəri məşhur ozanlarımız ( *Qurbani, Şah İsmayıl Xətai, Sarı Aşıq, Abbas Tufarqanlı, Aşıq Ələsgər, Aşıq Hüseyn Şəmkirli, Dədə Şəmşir, Aşıq Mikayıl Azaflı, Aşıq Avdı, Aşıq Gülabəli Davudbəyi, Aşıq Hidayət Musaoğlu, Aşıq Mənəf Mahmudoğlu, Aşıq Ramazanəli Xudabəndilu, Aşıq Fərəc Muradi və s.*) və bir çox tanınmış şairlərimiz ( *Mirzə Ələkbər Sabir, Abdulla Şaiq, Səməd Vurğun, Osman Sarıvəlli, Süleyman Rüstəm,*

---

[187] Lalə-Bax: Əfrasiyab Bədəlbəyli, "İzahlı monoqrafik musiqi lüğəti", "Elm" yayınevi, Bakı-1969, S. 57.
Bax: Rauf İmanov, "Böyük qrup bağça uşaqları üçün musiqi müntəxəbatı", Bakı-1987, S. 57.
Bax: Rauf Bəhmənli, "Azərbaycan xalq rəqsləri", "Adiloğlu" yayınevi, Bakı – 2002, S. 33.

[188] Qızıl gül-Bax: İlqar İmamverdiyev., «Dədə Şəmşir ifacılığı sənətində ənənəvi saz havaları», "Vətən oğlu" NP MMC yayınevi, Bakı–2017, 86-87 s.

[189] Lalə- Bax: İlqar İmamverdiyev, «Dədə Şəmşir ifacılığı sənətində ənənəvi saz havaları», "Vətən oğlu" NP MMC yayınevi, Bakı–2017, 90-92 s.

[190] Bənövşə - rəqsinin musiqisini məşhur zurna ifaçısı Əli Kərimov yaradıb. Bax: Bax: Əfrasiyab Bədəlbəyli, "İzahlı monoqrafik musiqi lüğəti", "Elm" yayınevi, Bakı- 1969, S. 57. Bax: Rauf Bəhmənli, "Azərbaycan xalq rəqsləri", "Adiloğlu" yayınevi, Bakı – 2002, S. 38.

[191] Heyva gülü - Bax: İlqar İmamverdiyev «Azərbaycan rəqs havaları»,1. cilt,"Nurlan" yayınevi, Bakı–2007, S.54-55

[192] Alma gülü - Bax: Rauf Bəhmənli, "Azərbaycan xalq rəqsləri", "Adiloğlu" yayınevi, Bakı - 2002 S. 56.

[193] Alça gülü - Bax: Rauf Bəhmənli, "Azərbaycan xalq rəqsləri", "Adiloğlu" yayınevi, Bakı - 2002 S. 85.

[194] Səməni rəqsi - Bax: https://www. youtube. com/watch? v=m CJ pdmvy-aw

[195] Bayram rəqsi - Bax: https://www. youtube. com/watch? v=iyeW DEJiWDw

[196] Bahar rəqsi - Bax: https://www. youtube. com/watch? v=NL5c RpzLtDA

[197] Bax: https://www.youtube.com/watch?v=RhaHRppniGk

[198] Novruzu rəqsi (1) - Bax: https://www.youtube. com/watch? v= V5j2yLYqm54

[199] Novruzu rəqsi (2) - Bax: İlqar İmamverdiyev, «Azərbaycan rəqs havaları», 1. cilt, "Nurlan" yayınevi, Bakı–2007, S. 103 – 105

*Məhəmmədhüseyn Şəhriyar, Bəxtiyar Vahabzadə, Hüseyn Arif, Cəmil Əkbər, Rəsul Rza, Nigar Rəfibəyli, Mirvarid Dilbazi, Mədinə Gülgün, Məmməd Araz, Nəriman Həsənzadə, Aslan Aslanov, Gəray Fəzli, Teymur Elçin, Zeynal Cabbarzadə, Tofiq Mütəllibov, Hafiz Baxış, Ələkbər Ziyatay, Hikmət Mahmud, Rəfiq Zəka, Fikrət Qoca, Ramiz Heydər, İslam Səfərli, Mirmehdi Seyidzadə, Həmid Abbas, Ənvər Əlibəyli, Tələt Əyyubov, Rasim Kərimli, Dilsuz Mustafayev, Ələmdar Mahir, Nüsrət Kəsəmənli, Rüzgar Əfəndiyeva, Aşıq Pənah Pənahov, Ramiz Rövşən, Zivər Ağayeva, Vahid Əziz, Şirin Kərimbəyli Şadiman, Xanım İsmayılqızı, Razim Paşayev, Yusif Dirili, Ruslan Əliyev, Abil İslam, Anar Məmmədov, İlqar İmamverdiyev, Təranə Abbasova və s.)* bahar bayramı ilə əlaqədar bir-birindən fərqli, həm də mükəmməl məzmuna malik şeirlərlər qoşmuş, yazın gəlişini çoxsyda poetik nümunələrlə vəsv etmişlər. Adlı-sanlı bəstəkarlarımız *(Soltan Hacıbəyov, Tofiq Quliyev, Cahangir Cahangirov, Səid Rüstəmov, Vasif Adıgözəlov, Oqtay Rəcəbov, Oqtay Zülfüqarov, Ağabacı Rzayeva, Hökümə Nəcəfova, Qəmbər Hüseynli, Şəfiqə Axundova, Ramiz Mustafayev, Telman Hacıyev, Adil Bəbirov, Emin Sabitoğlu, Sevil Əliyeva, Eldar Mansurov, Sərdar Fərəcov, Ələkbər Tağıyev, Musa Mirzəyev, İsrail Kərimov, Ramiz Mirişli, Oqtay Kazımi, Tofiq Əhmədov, Bəxtiyar Kərimov, Əfsər Cavanşirov, Rəşid Şəfəq, Cavanşir Quliyev, Mehriban Əhmədova, Nəriman Əzimov, Nadir Əzimov, Vaqif Süleymanov, Gövhər Həsənzadə, Qulu Əsgərov, Əlibaba Məmmədov, Tamilla Məmmədzadə, Məmmədbağır Bağırzadə, Aydın Ağasıyev, Rauf Məmmədov, Niyaməddin Musayev, Cabbar Musayev, Habil Əliyev, Şahin Verdiyev, İlqar İmamverdiyev, Sidqi Mustafayev və s.)* isə novruz bayramını biri-birindən gözəl musiqilərlə, qəlbəyatımlı ahənglər qanadında daha da şərəfləndirmişlər. Onu da qeyd etməliyik ki, yuxarıda isimləri keçən bəstəkarlarımız bahar bayramı eləcə də novruzla bağlı hər hansı bir şeir qəlibinə uyğun yeni yazdığı musiqinin adını məhz mətnin başlığından almış, söz yazarının şeirinin adı ilə *("Yaz gəldi", "Novruz", "Novruz gələndə", "Novruz bayramınız mübarək olsun" , "Bahar", "Bahar gəlir", "Bahar gələndə", "Bahar xoş gəlir", "Bahar gəlib ellərə", "Bahar nəğməsi", "Bahar bayramı", "Bayram mahnısı", "Bayram günü", "Bayram şamları", "Bayram nəğməsi", "Bayram axşamlarında", "Bayramlı günlərə ilkbahar gəlir", "İlkbahar", "İlkbahar gəldi", "İlk baharım", "İlkbahar tək", "Bağçada gül", "İstəyirəm görəm səni", "Alagöz", "İlk məhəbbətim", "Ad günün mübarək" )* adlandırmışlar.

Azərbaycan musiqisini təhlil etdiyimizdə anlaşılır ki, təbiətin oyanışı, torpağın dirçəlişi olan Bahar bayramını tərənnüm edən bir çox xalq mahnılarımız müğənnilərimizin repertuarında mövcud olmaqda, məşhur xanəndələrimizin professional ifalarında günümüzdə səsləndirilməkdədir. Təəssüflə qeyd etməliyik ki, bu qrupda yer alan havalarımızın bir çoxunun sözləri və musiqisi anonim olub *( "Bağçada güllər", "Bəh-bəh", "Gül açdı", "Sarı bülbül", "Niyə bala", "Maralıyam"),* müəllifləri bilinməməkdədir.

Baharla, novruzla bağlı ikinci qrup havalarımız da vardır ki, bəstəkarlarımız tərəfindən xüsusi musiqilər yazmışlar. Bu qrupda qərar almış bəstəkarlarımızın, həm də söz müəlliflərimizin adları konkret bəlli olduğu üçün, hər ikisinin, yəni bahar şeirinin və bahar musiqisinin sahibləri əsasən bilinməkdədir.

Baharla bağlı musiqinin mətnləri ilə tanış olduğumuzda anlaşılır ki, bir qrup şeirlər bilavasitə bahar bayramını, baharın gəlişini özəlliklə də Novruz bayramının ab-havasını hər bir bənddə, nəqərat qismində belə poetik misralarla vəsv etdirməkdədir.

Digər bir qrup mahnı mətnlərinin sadəcə müəyyən bir misrasında Novruz bayramını və ya Baharın gəlişini ötərgi ifadə edən, vokal - instrumental musiqi nümunələrində görürük.

Yekun olaraq "Azərbaycan musiqisində bahar mövzusu və novruz motivlərinin izləri adlı" araşdırmamızda çıxardığımız xülasəni bu prinsipdə təsnif edə bilərik.

1.Baharın, yazın gəlişini tərənnüm edən bir çox xalq musiqi nümunələrinin sözlərinin və musiqisinin müəllifləri bilinməməkdədir.

2. Bəstəkarı bilinən, fəqət poetik söz yazarı anonim olan Novruz, Bahar temalı musiqilər.

3. Sözlərinin və musiqisinin müəllifi eyni şəxsə aid olan baharın, yazın gəlişini tərənnüm edən mahnılar.

4. Musiqisinin müəllifi bilinməyən novruz, bahar motivli mahnılar.

5. Bəstəkarı bəlli olan novruz, bahar motivli mahnılar.

6. Müəllifi xanəndələr olan novruz, bahar mövzulu mahnılar.

7. Bəstəkarlıq qabiliyyətinə malik bəzi müğənnilərimizin novruza, bahar bayramına həsr etdikləri nəğmələr.

8. İnstrumental ifaçı (tar, kaman və s.) sənətkarlarımızın novruz, bahar motivli bəsdələri.

"Azərbaycan musiqisində bahar mövzusu və novruz motivlərinin izləri" adlı kitab əslində elmi tədqiqata cəlb oluna bilən, geniş araşdırma və təhlil tələb edən dissertasiya mövzusudur.

## Ə D Ə B İ Y Y A T


1. Abdullayev B. Novruz gəlir, "Kommunist" qəzeti, 24 aprel 1989.
2.Allahmanlı M. "Azərbaycanın Qərb bölgəsinin mənəvi mədəniyyətindən" *( tarixi – etnoqrafik tədqiqat )* "Nurlan" nəşriyyatı, Bakı - 2011, 176 s.
3. Azərbaycan folkloru antologiyası, I kitab, Bakı 1968.
4. Azərbaycan məhəbbət dastanları, Bakı – 1979
5. Azərbaycan xalq mahnıları *(S. Rüstəmov, F. Əmirovun, T. Quliyevin not yazıları).*Bülbülün tərtibatında, Bakı, Azərbaycan Dövlət Musiqi nəşriyyatı, 2 cildə (I cild -1956, II cild – 1958. Təkrar nəşri: I cild – 1980, II cild – 1981.).
6. Azərbaycan lirik xalq mahnıları (Tərtib. D. Məmmədbəyov), Bakı - 1965
7. Azərbaycan xalq musiqisinin antologiyası. 10 cilddə: - I cild.
8. Azərbaycan xalq mahnıları. Bakı, 2003; - II cild.
9. Azərbaycan xalq rəqsləri, Bakı, 1959
10. Azərbaycan xalq rəqsləri,. Bakı, 2003; - III cild.
11. Azərbaycan muğamları və rəngləri. Bakı, 2004.- IV cild.
12. Azərbaycan muğamları və rəngləri. Bakı, 2005.-V cild.
13. Azərbaycan muğamları və zərbi muğamları. Bakı, 2005 -VI cild.
14. Azərbaycan təsnifləri, dəraməd, diringi və rəngləri, qədim el havaları, muğamlar və zərbi muğamlar. Bakı, 2006. - VII cild.
15. Azərbaycan aşıq musiqisi. Bakı, 2007
16. Aşıq Şəmşir, "O Kürün, Arazın Tərtəriyəm mən, (Tərtib. Q. Şəmşiroğlu), "Sabah" nəşriyyatı, Bakı 2004, 510 s.
17. Babayev R. "Min bir mahnı" 4. nəşr, "Min bir mahnı" yayınevi, Bakı-2007, 624 s.
18. Bədəlbəyli Ə., "Musiqi lüğəti", "Elm" nəşriyyatı, Bakı – 1969, 446 s.
19. Bəhmənli R., "Azərbaycan xalq rəqsləri", "Adiloğlu" yayınevi, Bakı – 2002, 158 s.
20. Bülbül. Seçilmiş məqalə və məruzələri, Bakı, 1968.
21. Bünyadov T. Əsrlərdən gələn səslər, "Gənclik" nəşriyyatı, Bakı-1975.
22. Çay A. Hıdırellez Kültür-Bahar Bayramı, Ankara, 1990.
23. Ələsgər İ. Aşıq Ələsgər, Bakı, 1988.
24. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı, "Maarif" nəşriyyatı, Bakı, 1981.
25. Hacıbəyov Ü., Maqomayev M. – Azərbaycan el nəğmələri. Bakı, 1927.
26. Hacıbəyov Ü. Seçilmiş əsərləri, Bakı, 1985.
27. Həkimov M. "Aşıq sənətinin poetikası" Səda nəşriyyatı, Bakı 2004 , 609 s.
28. Həkimov M. "Xalq mövsümləri və aşıq sənəti" Tədqiqlər, IV Kitab "Elm" nəşriyyatı, Bakı - 1973
29. Həsənov K. "Qədim rəqslər", "Ulduz" jurnalı № 11, 1975.

30. Xəlil A. “Novruz: ilkin qaynaqları və tarixi inkişafı” Xalq qəzeti – 2010 - 21 mart - S. 4.
31. İmamverdiyev İ. “Azerbaycan ve İran Türklerinde Novruz etkinlikleri ve aşıq şiirinde Novruz”, Atatürk Üniversitesi, Türkiyat Araştırmaları Enstitüsü Dergisi, Prof. Dr. M. Fahrettin Kırzıoğlu Özel Sayısı № 28, Erzurum 2005, S. 223–239 / Türk dilində
32. İmamverdiyev İ. «Şirvan aşıqlarının saz havaları», “Ozan” yayınevi, Bakı 2011, 106 s.
33. İmamverdiyev İ. «Azərbaycan xalq mahnıları», I cild,“Nurlan” yayınevi, Bakı - 2007, 142 s.
34. İmamverdiyev İ. «Azərbaycan xalq mahnıları»,II cild,“Adiloğlu” yayınevi, Bakı - 2008,146 s.
35. İmamverdiyev İ. «Azərbaycan xalq mahnıları, III cild, “Adiloğlu” yayınevi, Bakı-2008,125 s.
36. İmamverdiyev İ. «Azərbaycan xalq mahnıları»,IV cild, “Şur” yayınevi, Bakı - 2009,136 s.
37. İmamverdiyev İ. «Azərbaycan xalq mahnıları»,Vcild, “Nafta-Pres”yayınevi, Bakı - 2009, 158 s.
38. İmamverdiyev İ. «Azərbaycan xalq mahnıları», VI cild, “Şur” yayınevi, Bakı - 2009, 201 s
39. İmamverdiyev İ. «Azərbaycan rəqs havaları», I cild, “Nurlan” yayınevi, Bakı – 2007,168 s.
40. İmamverdiyev İ. «Azərbaycan rəqs havaları», II cild, “Nurlan” yayınevi, Bakı - 2007, 172 s.
41. İmamverdiyev İ. «Azərbaycan və İran Türklərinin aşıq ifaçılıq sənətinin qarşılıqlı əlaqələri», “Nafta-Pres” yayınevi, Bakı – 2008, 977 s.
42. İmamverdiyev İ. «Dədə Şəmşir ifacılığı sənətində ənənəvi saz havaları», “Vətən oğlu” NP MMC yayınevi, Bakı – 2017, 256 s.
43. İmanov R. “Böyük qrup bağça uşaqları üçün musiqi müntəxəbatı”, Bakı-1987, 127 s.
44. İsazadə Ə. Məmmədov N. Azərbaycan xalq mahnıları və oyun havaları. Bakı, 1975.
45. İsazadə Ə. Məmmədov N. Azərbaycan xalq mahnıları və oyun havaları. Bakı, 1984.
46. Kafkasyalı Ə. “İran Türk Ədəbiyatı Antologiyası”, c. I, Ərzurum - 2002.
47. Kurbanov B. “Milli və dini bayramlarımız”, Ayraç dərgisi, sayı: 3, 2003
48. Kurbanov, B. “Novruz: Sosyo Kültürel Sorunlar”, Atatürk Üniversitesi Sosyal Bilimler Enstitüsü, Kültürel Faaliyetler Dizisi, № 1, Erzurum 1996.
49. Qasımzadə F. “Novruz”- Bahar bayramı, Bakı - 1989.
50. Məhəmməd, «Şəhriyar», “Yazıçı” nəşriyyatı, Bakı – 1987, s. 89.
51. Mirzə Abbas Abbaszadə, “Novruz bayramı”, “Azərbaycan” qəzeti 15 mart 1991.
52. Nəbiyev A. “Novruz bayramı” “Yazıçı” Bakı - 1990.
53. Rüstəmov S. Mahnılar və romanslar. “Muzıka” yayınevi, Moskva – 1977, 95 s.
54. Rüstəmov S. 50 Azərbaycan xalq mahnısı. Bakı, Azərbaycan Dövlət Musiqi nəşriyyatı, 1938.
55. Rüstəmov S. Azərbaycan aşıq mahnıları (4 dəftər). Bakı, Azərbaycan Dövlət Musiqi nəşriyyatı, 1938.
56. Sarıvəlli O. A., Seçilmiş əsərləri, Şeirlər, Poemalar, c.II, Azərnəşr, Bakı 1987, s.75-76.
57. Seyidov M. “Yaz bayramı” Bakı, 1991.
58. Tural S. Novruz, Ankara, 1995.
59. Vəliyev V. “Azərbaycan folklou”, “Maarif” nəşriyyatı 1984.

**İnternet mənbələri:**


**1.** http://kayzen.az/blog/poeziya/12137/bahar-%7C-s%C9%99m%C9%99d-vur% C4%9 Fun. html

**2.**https://az.wikisource.org/wiki/Da%C4%9Flar_(A%C5%9F%C4%B1q_%C6%8Fl%C9%99 sg%C9%99r)

**3.** http://elibrary.bsu.az/kis/1603.pdf S. 296.

**4.** Mikrosof Word – El chelengi.doc S. 149.

**5.**https://www.youtube.com/watch?v=vraunwdbedA

**6.** https://www.youtube.com/watch?v=E6FddagcjCs

**7.** https://www.youtube.com/watch?v=uGQxv_eqDnU

**8.** https://www.youtube.com/watch?v=LgzeeY1Krzk

**9.** https://www.youtube.com/watch?v=OBgQ1rs5r10

**10.** https://www.youtube.com/watch?v=L8rX06Y3vMM

**11.** https://www.youtube.com/watch?v=fdrw9P5BeMw

**12.** https://www.youtube.com/watch?v=LxFbsqQ15RU

**13.** https://www.youtube.com/watch?v=kzfBEtqiUH8

**14.** https://www.youtube.com/watch?v=vYgk-VQloGw

**15.** https://www.youtube.com/watch?v=Ttcufc4_5c4

**16.** https://www.youtube.com/watch?v=o37POiAASD4

**17.** https://www.youtube.com/watch?v=kjjgql5Qkvo

# ƏLAVƏLƏR

## BAYRAMI

Dədə Şəmşirin ifasından.
Nota yazan: İlqar Cəmil.
Tarix: 26.05 -2015 saat 16:34

### *ÜMUMİ KÖK-ŞAH PƏRDƏ KÖKÜ*

| I qrup | | | II qrup | | | III qrup | | |
|---|---|---|---|---|---|---|---|---|
| Zil tellər | | | Dəm tellər | | | Bəm tellər | | |
| 1 | 2 | 3 | 1 | 2 | 3 | 1 | 2 | 3 |
| sim | sim | sim | sim | sim | sim | sim | sim | sim |








Fine

# SÜSƏNBƏRİ

Dədə Şəmşirin ifasından.
Nota yazan: İlqar Cəmil.
Tarix: 6.05 -2015 saat 14:18

## *ÜMUMİ KÖK-ŞAH PƏRDƏ KÖKÜ*

| I qrup | | | II qrup | | | III qrup | | |
|---|---|---|---|---|---|---|---|---|
| Zil tellər | | | Dəm tellər | | | Bəm tellər | | |
| 1 | 2 | 3 | 1 | 2 | 3 | 1 | 2 | 3 |
| sim | sim | sim | sim | sim | sim | sim | sim | sim |








Fine

# NOVRUZ GƏLƏNDƏ

Mus. və söz İlqar Cəmiloğlu.
12.02 – 2013 saat 09:50 /Antep






Köhnə ilin sonu çatır,
Novruz gələndə-gələndə.
Bahar muradına yetir,
Novruz gələndə-gələndə.

Təbiətin üzü gülür,
Günəşdən nurlar süzülür,
Qar can verir, buzlar ölür,
Novruz gələndə-gələndə.

**{**Oba bilir, ellər bilir,
Türk dünyasında sevilir.**}2**
**{**Səmənilər, göyərdilir,
Novruz gələndə-gələndə.**}2**

Haqdan mərhəmət ələnir,
Torpaq yaşıla bələnir.
Çöhrəyə seinc çilənir,
Novruz gələndə-gələndə.

Arılar gülə qarışır,
Süsən sünbüllə yarışır,
Küsənlər o gün barışır,
Novruz gələndə-gələndə.

**{**İlqar Cəmil sazı çalar,
Gözəllikdən ilham alar.**}2**
**{**Bu bayramdan sözü qalar,
Novruz gələndə-gələndə.**}2**

**{**Zirvədən duman çəkilir,
Boranın beli bükülür.**}2**
**{**Tarlaya toxum əkilir,
Novruz gələndə-gələndə.**}2**

Dağlar min-bir çiçək açır,
Yal-yamaclar ətir saçır,
Sürülər yaylağa qaçır,
Novruz gələndə-gələndə.**}2**

**{**Yenə gəlir gözəl illər,
Nəğmə deyər qız-gəlinlər.**}2**
**{**Bayramlaşar bizim ellər,
Novruz gələndə-gələndə.**}2**

# NOVRUZ BAYRAMI XOŞ GƏLDİN

Mus. və söz İlqar Cəmil
Şeirin yazılma tarixi 19.03.2012,
Musiqinin bəstələnmə tarixi 6.02 -2013 saat 17:36






**I BƏND**

{Yenə gəldi bahar fəsli,}2
{Novruz bayramı xoş gəldin.}2
Bayramların əsli-nəsli,
Bayramların şahanəsi,
{Novruz bayramı xoş gəldin.}2

**NƏQƏRAT**

*{Sən İlqarın sevincisən,*
*Bayramlardan birincisən,}2*
*Fəsillərdə bir incisən,*
*Novruz bayramı xoş gəldin.*
*Mövsümlərdə dür, incisən,*
*Novruz bayramı xoş gəldin.*

**II BƏND**

{Dağlarda çay daşdı yenə,}2
{Aşıklar da coşdu yenə.}2
{İl-ilə qovuşdu yenə, }2
{Novruz bayramı xoş gəldin.}2

**NƏQƏRAT**

*Hər yan qöncə, qızıl güldü,*
*Şənliyimiz coşan seldi,*
*Hər yan qöncə, qızıl güldü,*
*Sevincimiz daşan seldi,*
*{Bayramlar içində ləldi,*
*Novruz bayramı xoş gəldin.}2*

# NOVRUZUM GƏL

Mus. və söz: İlgar Cəmil.
13.03 – 2016 saat 09 – 32




21
Vokal.
İ - - ki min on al - - - tı ....... i – lim Gəl gəl a Nov - - ru - - - zu - - m gəl
Inst.
25
Vokal.
Ba - - - ha - - rın mü - - j - - - - də - - si - - - - - - - - sən Qa - - ran - - quş nə - - - - - - - -
Inst.
28
Vokal.
- - - - - - - - fə - - s - - li - - - sən Ül - - vi eşq hə - - - - - - - və - - - s - - li - - - - sən
Inst.
31
Vokal.
Gəl gəl a Nov - - - - - ru - zu - - - m gəl Tə - - - bi - - - ət o - - - - - - -
Inst.
34
Vokal.
- - - - - - - ya - nı - - - b - - - - dır Şa - ha - - - nə da - - - - - - - ya - - ni - - - b - - - dır
Inst.




## GƏL GƏL A NOVRUZUM, GƏL.

Açıldı Novruz gülüm,
Gəl gəl a Novruzum, gəl.
İki min on altı ilim,
Tez gəl a Novruzum, gəl.

Baharın müjdəsisən,
Qaranquş nəfəslisən.
Ülvi eşq həvəslisən,
Gəl gəl a Novruzum, gəl.

Təbiət oyanıbdır,
Şahanə dayanıbdır,
Gözəllik yaranıbdır,
Gəl gəl a Novruzum, gəl.
Tez gəl a Novruzum, gəl.

Bayramların başısan.
Baharın zər qaşısan,
Mücövhəri, daşısan,
Gəl gəl a Novruzum, gəl.

Gəlişinlə yaz gətir,
Sədəflənmiş saz gətir,
Şeir qoşub yaz gətir,
Gəl gəl a Novruzum, gəl.

Gəl, insanlar sevinsin,
Fərəhlənib öyünsün,
Ürək eşqlə döyünsün
Gəl gəl a Novruzum, gəl.
Tez gəl a Novruzum, gəl.

* * *

İnsanı yaşadansan,
Sultansan, paşadansan,
Hər axşam, sabah, dansan,
Gəl gəl a Novruzum, gəl.

Gəlişin barış olsun,
Sülh olsun, yarış olsun,
Gözəl sifariş olsun,
Gəl gəl a Novruzum, gəl.

İlqarın arzususan,
İstəyi, arzusu sən.
Haralarda qalıbsan?
Gəl gəl a Novruzum, gəl.
Tez gəl a Novruzum, gəl.

Şeirin yazılma tarixi 7.06 – 2016 saat 21:25

# XOŞ GƏLMİSƏN NOVRUZUM

Mus. və söz: İlqar Cəmil.
4.04 – 2018 saat 17:37




16
Vokal.
a - - - l - - dı - - - m hər - - dən Şi - - - mal Cə - - - nub Şə - - r - - - qi ........ Qərb - dən
Inst.
19
Vokal.
Sə - dan gə - - lir hə - - - r di - - - - - - ya - - r - - dan Xoş gəl - - mi - - - - - - - sə - - n
Inst.
22
Vokal.
No - v - ru - - - - - zum Bin bə - - rə - - kə - - t gə - - - - - ti - - - - - - rir - - sən
Inst.
25
Vokal.
Xoş müj - - də - - - - lə - - r ye - - - - - ti - - - - - - rir - sən Bol zə - - mi - - - - - - lə - - r
Inst.
28
Vokal.
bi - - - - - ti - - - - - - ri - - r - - sən Xoş gəl - mi - - - - - sə - n No - v - - ru - - - - - zum
Inst.




Keçən il arzuladım,
Xoş gəlmisən Novruzum.
Nə müqəddəsdir adın.
Xoş gəlmisən Novruzum.

Sorağını aldım hərdən,
Şimal, Cənub, Şərqi, Qərbdən.
Sədan gəir hər diyardan,
Xoş gəlmisən Novruzum.

Bin-bərəkət gətirirsən,
Xoş müjdələr yetirirsən.
Bol zəmilər bitirirsən,
Xoş gəlmisən Novruzum.

Qədəmlərin mübarək,
Hər gəliş arzu, dilək.
Bu canımda sən ürək,
Xoş gəlmisən Novruzum.

İlhamı səndən alırıq,
Sazı şövq ilə çalırıq.
Sənlə yaşlara doluruq,
Xoş gəlmisən Novruzum.

Sən ismətin timsalısan,
Məhəbbətin əmsalısan.
Bizləri yada salırsan,
Xoş gəlmisən Novruzum.

Nəqərat
*{Xoş gəlmisən Novruzum, ay Novruzum.}2*

Zövqümüzün tacısan,
Bizə qardaş, bacısan.
Dərdlərin ilacısan,
Xoş gəlmisən Novruzum.

Özgə yerin var ürəkdə,
Halal zəhmət var çörəkdə.
Yaşayırsan diləklərdə,
Xoş gəlmisən Novruzum.

Urzumuzu gətirib gəl,
Murazımı götürüb gəl.
Qarı, buzu ötürüb gəl,
Xoş gəlmisən Novruzum.

Qəlb fərəhlə döyünür.
Şad olur, çox söyünür,
İlqar sənlə öyünür,
Xoş gəlmisən Novruzum.

Səndən ilham alır aşıq,
Sevgililər, aşiq, məşuq.
Bu cahana sən yaraşıq,
Xoş gəlmisən Novruzum.

Sən gələndə bayram olur,
Min bir büsat, dövran olur,
Hər kəs sənə heyran olur.
Xoş gəlmisən Novruzum.

Nəqərat
*{Xoş gəlmisən Novruzum, ay Novruzum.}2*

Şeirin yazılma tarixi: 17.02 – 2018 saat 17:41

# BƏNÖVŞƏ RƏQSİ





# BƏNÖVŞƏ

Söz: A.Şaiq.
Mus: S.Rüstəmov




Bə - - nö -v – şə - yə - m bə - - nö -v - şə düş - mü - - - şəm di - - - - - - lə di - - - şə
Mə - ni.... qız - la – r oğ - - la - n - lar də - ri - b ta – xa - - r - - - lar dö - - - şə

# GƏL, BAHAR
# ПРИДИ, ВЕСНА

Musiqisi: Oqtay Zülfüqarovundur
Музыка: Огтая Зульфугарова

Sözləri: Teymur Elçinindir
Слова: Теймур Эльчина




Nəqərat: Припев:
Bağ _ ça _ mı _ za Tez gəl ba _ har. Çə _ tir _çə _ tir,
При_сядь, вес_на, В на_шем са _ ду. Вес_на, сме_лей!
Gül _ lər gə _ tir. O _ taq _ la _ ra Dol _ sun ə _ tir.
Сре _ ди по _ лей, Сре _ ди до _ лин За _ рю раз _ лей!
Sən _ sən ə _ ziz, Şən nəğ _ mə _ miz,
Жи _ вой бу _ кет, Лу _ чом со _ грет.
Göz _ lə _ yi - rik Yo _ lu _ nu biz, ba _ har,
В са _ ду ос _ тавь Ты свой при _ вет, вес _ на.




Gözəl bahar,
Gözəl bahar,
Bağçamıza
Tez gəl bahar.

Nəqərat:
Çətir-çətir,
Güllər gətir.
Otaqlara
Dolsun ətir.
Sənsən əziz,
Sən nəğməmiz,
Gözləyirik
Yolunu biz.

Тебя в году
Всегда я жду.
Присядь, весна,
В нашем саду.

Припев:
Весна, смелей!
Среди полей,
Среди долин
Зарю разлей!
Живой букет,
Лучом согрет.
В саду оставь
Ты свой привет.

# SƏMƏNİ

Sözləri: Teymur Elçinindir

Musiqisi: Oqtay Zülfüqarovundur






Səməni, səməni,
Ay səməni.

*Nəqərat:*
Gətirmisən göy çəməni
Evimizə sən, səməni.
Göy çəməni,
Sən, səməni.

Səməni, səməni,
Ay səməni.

*Nəqərat:*
Gətirmisən sən bahardan
Evimizə pay, səməni.
Göy çəməni,
Sən, səməni.

Lə, lə, lə, lə, lə, lə,
Lə, lə, lə, lə.

*Nəqərat:*
Gətirmisən göy çəməni,
Evimizə sən, səməni.
Gətirmisən sən bahardan
Evimizə pay, səməni.
Göy çəməni,
Sən, səməni.

# GƏL, GƏL, A YAZ GÜNLƏRİ

Sozləri Mirzə Ələkbər Sabir
Musiqisi Ağabacı Rzayeva




bağ - da ə - rit qar - la - rı. Çay - lar da - şıb sel ol - sun,
Ta - xıl - lar tel - tel ol - sun. A - gac - lar aç - sın çi - çək,
Yar - pa - ğı lə - çək - lə - çək. Gəl, gəl, a yaz gün - lə -
- ri, i - lin ə - ziz gün - lə - ri!

# QARANQUŞ

Sozləri Teymur Elcin
Musiqisi Ağabacı Rzayeva




3
tr
tr
tr
3
tr
tr
tr

# XOŞ GƏLMİSƏN, NOVRUZUM

Musiqisi və sözləri Səadət Fərziyeva




26
Nov-ru-zum Bol bə-rə-kət gə - ti-rib.
A kos ko-sa gəl-sə-nə
33
Bir se - vi-nib gül-sə-nə Qay-na-yıb qa - rış-sa-na Bi-zim - lə oy - na-sa-na A kos ko-sa
40
gəl-sə-nə Bir se - vi-nib gül-sə-nə Qay-na-yıb qa - rış-sa-na Bi-zim-lə oy - na - sa-na
47
Ba-har gəl-di çöl - lə - rə Tor - paq o-yan - dı ar-tıq
p


53
Xoş gəl - mi-sən Nov-ru-zum. Qə-dəm - lə-rin mü -ba - rək. Hər tə - rəf - də nəğ - mə-lər
59
Dörd tə-rə-fin gül - çi - çək A kos ko-sa gəl-sə-nə Bir se - vi-nib
66
gül-sə-nə Qay-na-yıb qa - rış-sa-na Bi-zim-lə oy - na-sa-na. A kos ko-sa gəl-sə-nə
73
Bir se - vi - nib gül - sə - nə Qay - na-yıb qa - rış - sa - na, Bi - zim - lə oy -




Yığışdı bütün ellər,
Yaza salam deməyə,
Gəldi güllər, çiçıklər
Sevinib rəqs etməyə.
Yaşıl geydi tarlalar
Baxın, görün, kim gəlib,
Gülər üzlü Novruzum
Bol bərəkət gətirib!

Fındıq, qoz,badam, püstə,
Süfrələri bəzəyir,
Şəkərbura, paxlava,
Qonaqları gözləyir.
Qapılar döyüləndə
Soruşuruq: - “Kimsən sən?”
Açıb, görürük yerdən
Papaq deyir:-” Mənəm, mən!”

*Nəqərat:*
*A kos-kosa gəlsənə,*
*Bir sevinib gülsənə,*
*Qaynayıb-qarışsana,*
*Bizimlə oynasana.*

(Reçitativ)- bir nəfərin ifasında:
*A kos-kosa gəlsənə*
*Gəlib salam versənə*
*Çömçəni doldursana*
*Kosanı yola salsana*

Bahar gəldi çöllərə,
Torpaq oyandı artıq,
Hər vaxt bahar gələndə
Sevinib ucalarıq.
Xoş gəlmisən Novruzum,
Gədəmlərin mübarək,
Hər tərəfdə nəğmələr,
Dörd tərəfin gül-çiçək.
Nəqərat:

Ay uyruğu-uyruğu
Saqqalı it quyruğu
Kosam bir oyun eylər
Keçini qoyun eylər.
*Nəqərat:*

# SƏMƏNİ RƏQSİ

Nota köçürən: İlqar Cəmil.
11.03 -2018 saat 16:36



# İNNABI RƏQSİ




22
tr
25
1.
28
2.
31
Fine

# NOVRUZGÜLÜ



# NOVRUZU RƏQSİ

Nota yazan: İlqar Cəmil.
11.03 -2018 saat 17:17



## MÜNDƏRİCAT

***Ön söz:*** *Prof.Dr. İlqar İmamverdiyev*........................................................................ 3
**1.** Giriş ..........................................................................................................................4
**2.** Novruz bayramının əsas atributları ........................................................................13
a. Səməni ...................................................................................................................13
b. Novruz şirniyyatları ..............................................................................................16
c. Rəngli yumurtalar ..................................................................................................17
d. Novruz xonçası.......................................................................................................18
e. Kosa və Keçəl ........................................................................................................20
f. Dədə Qorqud və Bahar qız.....................................................................................21
**3.** Küsülülərin barışdığı mübarək gün ........................................................................23
**4.** Şairlərimizin Bahar bayramına ərməğan etdikləri poetik söz inciləri.............................. 27
**5.** Azərbaycan musiqisində Bahar, Novruz mövzusu...........................................................36
**6.** Azərbaycan aşıq yaradıcılığında Novruz, Bahar mövzusu................................................37
**7.** Azərbaycan xalq musiqi irsində Bahar,Novruz temaları..................................................43
**8.** Azərbaycan bəstəkarlarlarının yaradıcılığında Novruz və Bahar motivləri.......................47
**9.** Bəstəkarlarımızın, şairlərimizin uşaqlar üçün yazdığı əsərlərdə Bahar bayramı mövzusu və Novruz motivləri..........................................................................................58
**10.** Şairlərimizin və bəstəkarlarımızın yaradıcılığında "Bənövşə" mövzusu ..........................63
**11.** Həvəskar bəstəkarlarımızın Novruz ahəngli, Bahar təravətli mahnıları ..........................72
**12.** Bəstəkar təbli xanəndə və müğənnilərimizin Novruz, Bahar motivli nəğmələri..............79
**13.** Azərbaycanın musiqi mətnlərində Yazın – Baharın izləri...............................................90
**14.** Azərbaycanın Novruz təranəli, Bahar ahəngli rəqs musiqiləri.......................................102
**15.** Nəticə......................................................................................................................103
**16.** Ədəbiyyat ...............................................................................................................105
**17.** Əlavələr ..................................................................................................................108
**18.** Mündəricat .............................................................................................................147

İKSAD
Publishing House

ISBN 978-605-7510-07-5